**AYƏTULLAH KAŞİFÜL-ĞİTA**

# CƏFƏRİ MƏZHƏBİ VƏ ƏSASLARI

**Tərcümə edən: Əbdülbaqi Gölpinarlı**
**Azəricə işləyəni: Hafiz Abıyev**

İran İslam Cümhuriyyəti «Əlhuda»
Beynəlxalq nəşriyyatının
Bakı şöbəsi – 1993

# GİRİŞ

İslam dini, ictimai qaydaları toplayan, insanlar arasında birliyi saxlayan, bir tərəfdən insanın öz nəfsini nəzarət altına almasını, o biri tərəfdən də fərdi cəmiyyətin faydasına verməyi əsas tutan bir dindir.

İslam dini insanlara eyni münasibət bəsləyən, üstünlüyü yalnız cəmiyyətə faydalı olmaqda görən, insan iradəsini bəşəriyyətin faydasına yönəldən, təkəbbürü qətiyyətlə rədd edən, buna zorla deyil, ağılla, məntiqlə, gözəl öyüdlə yetişməyi vacib sayan, cihadı yalnız nəfəslə, yaxud da islam ölkəsinin düşmənlərilə məhdudlaşdıran bir dindir.

İslam dini meydana gəldiyi ilk günlərdən göləliklə mübarizəyə girişən, bəndəyə qul olmaqı yasaq edən, hürruyyəti əsas götürən, bəndəliyin nüfuzunu qaldırmaq üçün bir yandan dini günahların kəffarəsi olaraq, o biri yandan da ulu Tanrıya yaxınlaşmaqa vəsilə tutaraq çalışan, yaşayış hürruyyət nizamına daxil edən, dünyanı cənnətə çevirməyə cəhd edən bir dindir.

İslam dini son dindir və son olan da özündən əvvəlkilərdən təkmildir, kamildir. İslam ən kamil və mükəmməl şəriətə əsaslanlır və digər bir dinə ehtiyac qalmadığını qəti olaraq söyləmişdir. Bu din ən son və bəşəri ehtiyaclara tam cavab verir.

İslam dini həqiqətdə ən çox üstünlük verən, savaşan tərəfləri sakitləşdirən, hər bir bilənin yalnız doğrunu buyurmasını, pisliyi, batili rədd etməsini vacib sayan, zülmkar, haqsız buyuruq sahiblərinə qarşı həqiqəti söyləməyi ən üstün mübarizə hesab edən bir dindir.

İslamın başlanğıcında hər mücahidin öz həyatını cəmiyyətə necə fəda etdiyi haqqında söz açmalı olsaq, onda bu «Ön söz»ün sonu görünməz.

Fəqət gedərli də olsa qeyd edək ki, islamın başlağıcından uzaqlaşdıqca onun saflığına xələl gətirən, yüksək qayələrindən ayrılan bəzi firqələr üzündən müsəlmanların arasına düşən nifaq çoz pis nəticələr vermişdir. Bu, müsəlman birliyini bir-birinə düşmən olan qütblərə ayırmışdır ki, bunları burada şərh etməyə ehtiyac və imkan yoxdur. Bunun üçün ayrı bir kitab yazmaq gərəkdir.

Ancaq bunu da söyləyək ki, hər hansı bir məzhəbin, firqənin, cərəyanın düşüncələrini, inanclarını, əməllərini, hər şeydən əvvəl, o məzhəbin əsas kitablarından öyrənmək lazımdır. Türk dilində «Düşmən düşmənə mövlud oxumaz» atalar sözü məşhurdur. Hər hansı məzhəbin, firqənin əleyhinə çıxanlar, əlbəttə iftiralara hədəf olacaq, olmazın sözlər eşidəcəklər.

İslam əsaslarından uzaqlaşan firqələri bir yana qoyaq. Müsəlman qardaşlarımız Həzrət Peyğəmbərin (s) nəslindən olan, dinin əsaslarını ən yaxşı bilən və on iki imamın pak cəddindən mənimsədikləri ilə hökm edən Cəfəri məzhəbi haqqında, bu məzhəbin əsas mənbələrindən deyil, düşmənlərin kitablarından məlumat almışlar.

Ona səltənət dövrünün siyasi rəqabətinin də böyük təsiri olmuşdur. Hətta şiəliyin hicri 930-cu ildə vəfat edən Şah İsmail Səfəvi tərəfindən icad edildiyini söyləyən, yaxud da bu məzhəbin islam dininə qarşı qoyulduğunu iddia edən cahillər də vardır. Onlar Həzrət Əlinin (ə) və övladının, Mühəmmədin (s) Əhli-beytinin belə siyasi məqsədlərə alət olmayacağını, bu məzhəbin sədri-islamdan bəri mövcud olduğunu, «şiə» sözünə ayələrdə, hədislərdə rast gəlindiyini bilmirlər.

Bu gün artıq aqlı başında olan hər bir müsəlman islam ölkələrinin bir-birlərinə yaxınlaşmasını və onların islam dininin əsası olan Tövhid və qardaşlıq bağları ilə bağlanması lüzumunu dərk edir.

Namaz qılan, namazda eyni qibləyə sarı dönən, eyni Peyğəmbərin Tövhid bayrağı altına toplaşan, eyni Kitabı tanıyan və eyni dini əsaslara bağlı olan müsəlmanların bir-biri ilə qardaş olması həqiqətdir. Gərək heç bir müsəlman bəd niyyətlilərin, yaxud da cahillərin fəsadına uymasın.

«İmamiyyə-isnaəşəriyyə»nin əsas inanclarını və əməllərini möhkəm, fəqət müxtəsər bir şəkildə əhatə edən mənbəni - böyük alim Məhəmməd Hüseyn Kaşifil-Ğitanın ərəbcə yazdığı «Əslüş-şuəti və üsuliha» kitabını «Cəfəri məzhəbi və əsasları» adı altında türkcəyə tərcümə etməyi özümüzə borc bildik. Bu kitabdan digər müsəlman məzhəblərinə mənsub olanların da Cəfəri məzhəbi haqqında məlumat əldə etməsi mümkündür.

Ümidvarıq ki, əhli-sünnət əzizləri və hər bir sağlam düşüncəli, insaf və mürüvvət əhli olan şəxs bu kitabı iman ilə oxuyacaq və aradakı ayrılıq ortadan götürüləcək.

Böyük Mövlanımız bu xüsusda bizə tərcüman olaraq buyurur:

**To bəraye-vəsl kərdən amədi**

Biz o buyruqa əməl edirik. Tovfiq Allahdandır.

**15 Şəbanul-müzəəzəm 1386**
**Əbdülbaqi Kölpinarlı**

## TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ

«Cəfəri məzhəbi və əsasları» adlı kitab hicri 1337-ci (1918) ildə Qahirədə çap olunan onuncu nəşrindən türkcəyə çevirib oxuculara təqdim edirik. Bu nəşrdə Qahirədə «Rabitət əl-əbab əl-hədis» cəmiyyəti üzvlərindən Seyyid Mürtəza əl-Rədəvi əl-Kəşmirinin çox qısa bir təqdim yazısı var. Bu nəşr əsasən həmin şəxsin dəlaləti ilə meydana gəlmişdir. Ondan sonra kitabın müəllifi Məhəmməd Hüseyn Kaşif əl-Gitanın oğlu Əbdülhəlimin Seyyid Mürtəzaya kitabın nəşrinə icazə verməsini bildirən çox qısa bir qeydi gəlir. Bunu Hacı İbrahim Zeyni Asibinin kitabın doqquzuncu nəşrinə yazdığı yarım səhifəlik bir ön söz davam etdirir. Bu ön sözdə müəllifin və kitabın dəyəri açıqlanır və onun oğluna təşəkkürlər edilir. Biz bu qisimlərin tərcüməsini lazım bilmədik. Bundan sonra müəllifin tərcümeyi-halı və kitabları, vəfatı və bu kitabın dəyəri haqqında Nəcəfi imzasını daşıyan bir yazı var. Bunu əhəmiyyətli sayaraq türk dilinə cevirdik. Yeddinci nəşrin ön sözündə isə müəllif müsəlmanların cəhaləti üzündən bir-birlərinə düşmən kəsildiklərini buna görə də yadellilərin tələlərinə düşdüklərini, hətta məhzəbləri təhlil edən yazıların belə cəhalət üzündən düşmənçiliyi qızışdırdığını acı-acı etiraf edir. Müsəlmanların birləşmələri lüzumunu göstərməklə və bunun da ancaq elmlə, insafla ola biləcəyini anlatmaqla, müəllum, imamiyyə, yəni Cəfəriyyə məzhəbi haqqında, bu islam məzhəbinin düşmənlərinin yazdıqlarından deyil, özlərinin mötəbər kitablarından məlumat almağı məsləhət görür. Bu məqsədlə imamiyyə inancları ilə ibadət və müamilətinin bilinməsi üçün bu müxtəsər, fəqət mötəbər kitabı yazdığını söyləyir. Bundan sonra isə Almaniyadan və başqa Qərb

ölkələrindəki müstəşriklərdən gələn təhqirli yazılar, Qahirədən Əhməd Zəkinin məktubu, müəllifin buna cavabı, Əmir əl-Bəyan Şəkib Aslanın məktubu və bir sıra bəzi məktublarla bunlara verilən cavablar yer tutur. Bunların bir qismi tərif, bir qismi isə suallar və suallara verilən cavablardır. Bu ikinci qisim əsasən risalədəki şərhlərlə izah olunduğundan biz bunları türkcəyə çevirmədik. Növbəti qisimdə kitabın ikinci nəşrinə müəllifin yazdığı və «Ali-İmran» surəsinin 103-cü ayeyi-kəriməsi ilə başlayan ***«Müsəlmanlar necə birləşə bilərlər»*** sərlövhəli ön sözü var. O, bu yazısında yeddinci nəşr üçün hazırladığı ön sözü bir az genişləndirmişdir. Burada müsəlmanlara ancaq onları xilas edəcək Tövhid bayrağı altında irq və məzhəb fərqi gözləmədən birləşmələri ilə əski qüvvət və şövkətlərini bərpa edəcəkləri bildirilir. Birləşmək üçün İslam əsaslarına riayət edən iki bölüyə, yəni əhli-sünnətlə şiələrə bir-birini düşmən görməməsini, məzhəblərini iftiralara istinad etmədən, əsil kitablara əsaslanaraq təhlil və tədqiq etməyi tövsiyə edir.

Kitabda bəzi qısa sual-cavablar vardır ki, onları da tərcümə etməyi lazım bilmədik. Kitab müəllifin də etiraf kimi çox müxtəsər, fəqət çox mötəbərdir. Bunu insaf və imanla oxuyanlar görəcəklər ki, şiəyi-imamiyyə, yəni Cəfəriyyə də əhli-sünnət kimi Allahın birliyinə, peyğəmbərlərin gerçəkliyinə Həzrət Mühəmmədin (s) peyğəmbərlərin ən üstünü və sonuncusu olduğuna, axirət gününə, bütün dini hökmlərə inanan, Allah əmrini əmr bilib ona tabe olan, nəhyini nəhy bilib çəkinən, xüsusən hər bir xüsusda Ali-Mühəmmədin (ə) xəbərlərini sənəd və hüccət qərar verərək onlara istinad etməyi vacib sayan bir islam məzhəbidir.

Ümidvarıq ki, kitabı oxuyanlar qeyri inancları mənimsəyən firqələrlə bu islam məzhəbini artıq eyni saymazlar, ittifaq və

ittihada doğru sağlam bir addım atarlar. Allahın verəcəyi qabiliyyətlə bu iş əmələ gələrsə, özümüzü bəxtiyar sayarıq.

وَنَزَعْنَا مَا فِي صُدُورِهِمْ مِنْ غِلٍّ تَجْرِي مِنْ تَحْتِهِمُ الأَنْهَار

***«Həmd olsun Allaha ki, bizi buna hidayət etdi; Allah bizə hidayət verməsəydi doğru yolu tapmazdıq».***[1]

**ƏBDÜLBAQİ GÖLPİNARLI**

[1] «Əraf» surəsi, ayə 43.

## MÜƏLLİFİN TƏRCÜMEYİ-HALI

Mərhum Şeyx Mühəmməd Hüseyn hicri 1295-ci ildə (1876) Nəcəfdə anadan olmuşdur. Atası Yəhya Əl-Maliki oğlu Şeyx Xızır Nəcəfə Hillənin cənubundakı Cənacə şəhərindən köçmüşdü. «Kaşif əl-Ğita» adlı kitabın sahibi olan oğlu Cəfər əl-Kəbir elm aləminə təmayüz etmiş, ondan sonra da bu ailədən bir çox alimlər çıxmışdır. Cəfərin oğlu Musanın oğlu Riza oğlu Şeyx Əlinin oğlu Məhəmməd Hüseyn ilk təhsilini Nəcəfdə almışdır. Sonralar xorasanlı Məhəmməd Kazimdən üsul, həmədanlı Rizadan və yəzdli Seyyid Kazimdən fiqh, Mirzə Hüseyn Nuridən əxbar və hədis, Əhməd Şirazidən və Mirzə Mühəmməd Baqiri ilə nəcəfabadlı Şeyx Mühəmməd Rizadan hikmət və kəlam öyrənmişdir. Yaradıcıllqda zəkası çox üstün olduğundan qısa bir müddətdə alimlər arasında böyük nüfuz qazanmışdır. Çox gənc çağında dəyərinə layiq mövqe tutmuş, qardaşı müctəhid Şeyx Əhməd ilə bərabər alimlərin inamını qazanmışdır. Yəzadli Seyyid Kazim fiqhə aid olan suallara cavab və fitva vermək xüsusunda onların hər ikisini vəkil etmişdi. Seyyid Yəzdinin vəfatından sonra müəllif fitva sahəsində tək qalmış, ona uyanların sayı isə get-gedə artmışdır. Həyat boyunca Nəcəf əhalisi və tələbələr ondan faydalanmış, günlər keçdikcə şöhrəti daha artıq yayılmışdır. Həyatının bütün dövrlərində elm məçlisləri qurmuş, həmin məclislərdə bir çox tələbələr onu dinləyərək feyz almağa başlamış, beləliklə fiqh, hədis, kəlam elmlərinə aid cildlər dolusu dərsliklər yazmışdır. Onu dinləyənlərin çoxu alimin mühazirələrini qeydə almışlar.

Çox geniş əhatəli biliyi ilə, elmi fəziləti ilə bərabər insanı özünə çəlb edən gözəl bir üsluba, fasih və nadir olan ifadə tərzinə malik olduğundan dərsləri uzun çəkər, ən incə mətləbləri

təfərrüatı ilə anladardı. Ona qulaq asanlar qətiyyən yorulmazdılar. Müxtəlif münasibətlərlə müxtəlif vaxtlarda minbərə çıxar, ifadəsindəki qüdrətlə qəlbləri ələ alar, məntiqindəki qüvvət və isabətlə ağıllara hakim kəsilərdi. Qahirə, Qüds, Kəraçi, Tehran və Nəcəfdəki alimlər mühiti onun xitabət qüdrətinə şahid olunmuşdurlar. Qulaqlar eşitməsədə qəlblər onun sözlərini qəbul edərdi.

Rəhmətlik Kəşifül-Gita Məhəmməd Hüseyn öz uca məqsədinə, yəni islamı Tövhidə qovuşdurmaq üçün bir çox yerlər gəzmişdi. Beləliklə, bütün topluluqlar onun səsini xüsusən özündən eşitmiş, üzünü görmək xoşbəxtliyinə yetişmişdilər. Onun ilk səyahəti hicri 1328-ci ilin şəvval ayının ilk günü həcc fərizəsini ifa etmək üçün Hicaza olmuşdur. Bu səyahətində Şam və Beyrutda iki aya qədər qalmış sonra Saydada bir neçə ay yaşamışdır. Burada təlif etdiyi əsərlərin bir neçəsini nəşr elətdirmiş, bəzi elmi və ədəbi kitablara şərhlər yazmış, əlavələr etmişdir. Saydan Qahirəyə getmiş, orada da üç aydan artıq yaşamışdır. Əzhər alimləri ilə görüşmüş, orada mühazirələr söyləmişdir.

1350-ci ildə Qüds şəhərində toplanan İslam Konqresinə getmiş, Məscidi-Əqsaya çatarkən xitabət gürsüsünə dəvət olunmuş, namazda isə imamətə küçirilmişdir. Bundan sonra Həyfə, Nəblus və Yəfə şəhərini gəzmidir.

Bundan iki il sonra ilk dəfə İrana gəlmiş, Həmədan. Girmanşahan, Tehran, Xorasan, Şiraz, Kazerun, Buşəhr, Xürrəmşəhr, Mühəmmərə, Abadan kimi şəhərləri ziyarət etmişdir. Bu şəhərlərdə də namazlarda imamətdə dayanmış, moizələr söyləmişdir. 1366-cı ildə ikinci dəfə İrana getmiş, bir müddət Kərənd də iqamət etmişdir. 1369-da ildə yenidən İrana gələrək Xorasanda İmam Əliyür-Rizanı (ə) ziyarət etmişdir. Burada İran üləmasından bir çoxları ilə yaxından tanış olmuşdur.

1371-ci ildə müalicə üçün Suriya və Lübnana getmiş, elə həmin il Pakistan hökuməti tərəfindən İslam Konqresinə dəvət olunmuş, təyyarə ilə Karaçiyə gələrək İslam məmləkətlərinin siyasi və ictimai vəziyyəti, onların islahı haqqında danışmış, müstəmləkə siyasəti əleyhinə bir sıra xütbələr söyləmişdir. Konqres sona çatdıqdan sonra Lahur, Pişəvər, Ravəlbəndi və «Hur Kəşmir» deyilən Müzəffərabad şəhərlərini gəzmişdir.

Mərhum Kaşiful-Ğita on mühüm vəzifəsinin moizə və irşad yolu ilə siyasi vəziyyətə nizam vermək, müstəqilliyi qorumaq olduğunu anlamış və bu xüsusda buyurmuşdur: **«Allahım və vicdanım qarşısında məsuliyyət daşıyıram. Bu, mənim üçün vacib şeylərdən biridir».** Alim bununla da hər sahədə öz dini qeyrətini təzahür etdirmişdir.

Kəşiful-Gita Əli (ə)-ın **«Allah həqiqətən də zalımların qarınlarını basa-basa doydurmalarına, məzlumların ac qalmalarına qarşı alimlərdən əhd almışdır»** sözlərini tez-tez təkrar edərdi. Buna görə də o, İraqın və İslam ölkələrinin müstəqillik uğrundakı qiyamlarına qoşulmuş, hətta bu qiyamlara rəhbərlik etmişdir. Birinci Dünya müharibəsi başlar-başlamaz Qut şəhərinə gələrək Nəcəfi-əşrəf əhalisi ilə bərabər mübarizəyə qoşulmuş, hər vasitə ilə müstəmləkə siyasətinə qarşı durmuşdur.

Misilsiz xütbələrini eşidən və onu görmək üçün 1373-cü ilin cəmadiəl-axir ayında Nəcəfə gəlmiş ingilis səfiri ilə söhbətində heç bir şeydən çəkinmədən İngiltərənin dünyanın bir sıra ölkələrində yeritdiyi müstəmləkə siyasətini pisləmiş, xüsusən Qərb dövlətlərinin Fələstinin qədim torpaqlarının qəsbinə, yüz minlərlə günahsız adamların o torpaqlardan köçürülmələrinə soyuq, seyrçi münasibətini kəsqin tənqid etmişdi.

Amerika səfirliyi ilə görüşdüyü vaxt bu ölkənin sionizmə tərəfdar olmasını qınayaraq buyurmuşdu: «Qəlblərimiz siz amerikalıların təqsiri üzündən yaralanmışdır; siz bizə elə bir

zərbə vurdunuz ki, buna qarşı əsla susmayacağıq. Ürəklərimiz qan ağlamaqdadır».

Ömrünün sonlarında Amerikanın təşəbbüsü ilə Bihəmdunda toplanan konqresə çağırılmışdı. O, bu dəvəti qəbul etməmiş və **«Əl-məsəlül-ülya fil-İslam fi Bihəmdun»** adlı bir kitab nəşr edərək müstəmləkəçilik əleyhinə öz islami fikirlərini izhar etmişdir.

## ƏSƏRLƏRİ

İşlərinin bu qədər çox olmasına baxmayaraq, əsər yazmaq və kitab hazırlamağı da bir an unutmamışdır. Lübnanda yaşayarkən bəzi kitabların nəşrinə müvəffəq olmuş və bu kitablara şərhlər və haşiyələr yazmışdır. Bunlara Cürcaninin «Əl-vəsatətü beynəl-Mütənəbbi və hüsumihi», «Müəllimul-isabə fil-kitabi vəl kitabə», Məhəmməd Səid əl-Hübubinin «Divan», Seyyid Cəfərül-Hillinin «Divanu sehribabul və səcul-bəlabil» kitablarını göstərə bilərik.

Aşağıdakı kitabları isə farscadan tərcümə etmişdir:

«Heyət», «Hüccətüs-səadə», Nasir Xosrovun «Səfərnaməsi», İran ədəbiyyatına dair bəzi əsərlər.

Nəşr olunmuş kitabları daha çoxdur. Burada onlardan bir neçəsini qeyd edirik:

1. **«Vacizatul-məsail»**, (fiqhə aiddir), fars və ərəb dillərində, Nəcəfdə dörd dəfə nəşr olunub.
2. **«Eynül-həyat»a haşiyələr»**, (firhə aiddir), Bombeydə çap olunub.
3. **«Əl-müraciətür-Reyhaniyyə»** (filosof Əminür-Reyhani ilə tarix və fəlsəfi mövzuda mübahisələri əhatə edir) 2 cilddə, Saydada və Argentinada nəşr edilib.

4. Reyhaninin «**Nəqdü mülukil-ərəb**», Nəcəf qəzetində çap olumuşdur.

5. «**Sual və cavab**» (fiqhə aiddir), Nəcəfdə üç dəfə çapdan çıxıb.

6. «**Zadül-müqəllidin**» (fiqhə aiddir) fars dilində, Nəcəfdə və Xorasanda on dəfə çap olunub.

7. Seyyid Kazimi Yezdinin fiqhə aid «**Ürvətül-vüsəqa»sına haşiyə**», Nəcəf şəhəri.

8. Əllamə Hillinin «**Təbsirəsinə haşiyə**», Bağdad şəhəri.

9. Qardaşı Əhməd Əli Kaşifül-Gitanın bütün fiqh qaydalarını əhatə edən «**Səfinətün-nicatına tərtib**», dörd cilddə.

10. «**Əl-ayatul-bəyyinat**», (əməviləri, bəhailəri, vəhhabiləri və maddəciləri rədd etmək barəsində), Nəcəf.

11. «**Təhrirul-məcəllə**», beş cilddə, Nəcəf.

12. «**Əl-arizu vət-turbətul-Hüseyniyyə**», Nəcəfdə altı dəfə nəşr olunub.

13. «**Əl-firdövsil-əla**» (bəzi şəriət hökmlərinin hikməti və faydaları barədə), Nəcəfdə iki dəfə və Təbrizdə bir dəfə nəşr edilib.

14. «**Müztəsərül-əğani**», Bağdad.

15. «**Əd-dinu vəl-islam**», iki cilddə, Saydada nəşr edilib.

16. «**Nəbzətun-minəs-siyasətil-Hüseyniyyə**», Nəcəfdə bir neçə dəfə çapdan çıxıb.

17. «**Əl-misaqul-ərəbiyyul-vətəni**». Nəcəf.

18. «**Ət-tövzih fil-İncil vəl Məsih**», iki cilddə, Qahirə və Bağdadda.

19. «**İngiltərə və Amerika səfirlərilə söhbətlər**», Nəcəfdə və Argentinada.

20. «**Əslüş-şiəti və üsuliha**» (Cəfəri məzhəbi və əsasları), Nəcəf, Bağdad.

Bunlardan başqa alimin çap olunmamış birinci cildi itmiş **«Əl əqabətül-ənbəriyyə fi təbaqatil-Cəfəriyyə»**, fiqhə aid iki böyük cilddə ibarət **«Şərhi-ürvətil vüsqa»**, 1329-cu ildə Həcc səfərinə aid xatirələrini ehtiva edən **«Nüzhətüs səmər və nuhzətüs səfər»**, **«Cənnətül-məva»**, **«Əd-dini-vəl islam»**ın üçüncü cildi, **«Tənqiyh hul kifayət»**, üsuliddin və firuiddinə aid **«Daruətül-mərafil-ülya»** adlı əsərləri ilə səkkiz min beytdən artıq olan **«Divanı»** vardır.

Həyatının sonunda Bağdadın Kəhr xəstəxanasında yatmış, sonra İranda Kərənd şəhərinə getmiş, on səkkiz zilqədə 1373-cü ildə (19 iyul 1954) orada vəfat etmişdir. Cəsədi Bağdada, sonra Nəcəfə aparılmış, Vadisəlam qəbristanının sonundakı bir qəbrdə dəfn olunmuşdur. Bu qəbri o özü ölümündən iki əvvəl hazırlatmışdı (rəhmətullahi-əleyhi və raziy əllahu ənh).

# CƏFƏRİ MƏZHƏBİ VƏ ƏSASLARI

Oxucularımıza təqdim etdiyimiz bu kitab həqiqəti axtarmaq və tapmaq baxımından çox faydalı bir əsərdir. Demək olar ki, Kaşifül-Gitadan əvvəl bu məzhəbin inancları bu məzhəbə uyanların rəylərini şərh edən və yalnız bu mövzuya aid olan bir kitab yazılmamışdır. Buna görə də oxucuların çox diqqətini çəkmiş, dəfələrlə nəşr olunmuş, yuxarıda qeyd edildiyi kimi dünyanın bir neçə dillərinə tərcümə edilmişdir.

Kaşifül-Gita bu kitabda şiə haqqındakı töhmət və iftiraya əsaslanan və müasir yazarlarla ədiblərin qələmlərindən çıxmış hücumlara da cavab vermişdir. Şiənin fiqh, kəlam hətta tarix baxımından mövqeyini aydınlaşdırmış, bir sıra şiə alimlərindən də yeri gəldikcə söz açmışdır. Bunu da qeyd etmək lazımdır ki, artıq təəssüb dövrü keçmişdir. Aydınlıq bir dövrə daxil olmuşuq. Bu dövrdə bizə bir yandan qardaşlığı qurmaq, yaxşılaşdırmaq, biliyi sağlamlaşdırmaq, bir yandan da gerçəkləri anlatmaq lazım gəlir.

إِذْ أَوَى الْفِتْيَةُ إِلَى الْكَهْفِ فَقَالُوا رَبَّنَا آتِنَا مِنْ لَدُنْكَ رَحْمَةً وَهَيِّئْ لَنَا مِنْ أَمْرِنَا رَشَدًا

***«Rəbbimiz, dərgahında bir rəhmət ehsan et bizə və işlərimizin müvəffəqiyyətlə doğruluğa yetişməsi üçün səbəblər hazırla bizim üçün».***[1]

**NƏCƏFİ**

[1] «Kəhf» surəsi, ayə 10.

# ÖN SÖZ

Təhəssüflə qeyd etməliyik ki, əhli-sünnət qardaşlarımız şiə haqqında çox az məlumata malikdirlər. Bu çox az olan bilgi də təəssüb dövrlərinin yalanlara qarışıq nağıllarından başqa bir şey deyildir. Onların içərisində şiəliyi islam məzhəblərindən saymayanlara da rast gəlmək olur. Kitabxanalarımızdakı əski və əlyazma kitablarında şiə haqqında verilən fitvalar sözlərimizə ən tutarlı sübutdur. Qardaşlarımızın bu xüsusi əsaslandıqları qaynaqlar şiələrin (xüsusi şiəyi-isna-əşəriyyənin) inanca və əmələ dair kitablarının olmadığı iddia olunan dövrün qərəzkar kitablarıdır. Burada şiəliyi hülul, tənasüh[1] kimi inanclarla eyniləşdirir və onu islamın təmizliyini pozan bir məzhəb kimi qələmə verdilər. Onlar şiəliklikdəki imamət inancının xristianlıqdakı lahutun[2] təsiri ilə meydana gəldiyini sanır və bu məzhəbin islamın əsaslarını bulandırmaq, hətta dağıtmaq üçün yarandığına hökm verərək qəflətə düşürdülər.

Məlumdur ki, «şiə» tərəfdar mənasında olan bir sözdür və Həzrət Peyğəmbər (s) əmisi oğlu, yeznəsi və qardaşlığı Əbutalubin oğlu Əlinin (ə) tərəfini saxlayan müsəlman birliyinə verilmiş bur addır. Şiələrin ilk təmsilçiləri başqa sözlə ilk şiələr kimdirlər? Tarixdən azacıq başı çıxanlar bilir ki, bunlar

---

[1] **«Hülul»** girmək, qarışmaq mənasındadır. **Hülul** – Allahın bir bəndəyə daxil olması, ilahi qüvvənin bir şəxsin varlığına qarışması və o bəndənin Allaha çevrilməs, ilahi bir varlıq halına gəlməsi deməkdir. **Tənasüh** isə ölümdən sonra ruhun yenidən bir insan, heyvan, yaxud bitki halına dünyaya gəlməsi inancıdır. Bu inancı bəsləyənlərə görə insan, dünyada tam insanlığa yetişməyibsə ölümündən sonra yenidən dünyaya qayıdacaq. O şəxsin xarakterində hansı heyvanın sifəti üstündürsə o heyvana ceviriləçək və həmin heyvan kimi ömür sürəcəkdir. Bundan aşağı dərəcədə olanlar bitki və cansızlar aləminə düşəçəklər. Təkrar insana çevirilməyə «tənasüh», heyvana dönməyı «təmasüh», bitkiyə qarışmağa «tərasüh», mədən olmağa «təfasüh», bu inancların hamısına bir yerdə isə «tənasüh» deyilir. Allahı bəndə dərəcəsinə endirən və axirəti inlar edən bu batil inanclar çox qədim və ibtidai dinlərin qalığıdır.

[2] **Lahut** – tanrılığın maddi bir şəkildə görünməsinə inamıdır.

səhabənin ən qabaqcıllarından idilər. Səlmani-Muhəmmədi (Əl-Farsi), Əbu Zərr, Miqdad, Əmmar, Üzeymə, Əbut-Təyyan, Üzeyfətul-Yəmani, Fəzl ibn Abbas və qardaşı Hibrül-Hümmət (yəni hümmətin din hökmlərinin əsaslarını bilən) Abdullah ,[1] Hişam ibn Ütbə, Əbu Əyyubil-Ənsari, Əban və qardaşı Seyyidul-Qürra (yəni Quran oxuyanların, onu ən yaxşı qiraət edənlərin birincisi). Übəyy ibn Kəəb, Həzrət Peyğəmbərdən «**Bu oğlum Hüseyn Kərbəla deyilən yerdə şəhid ediləcək. Kim bu hadisədə iştirak edərsə ona yardım etsin**» hədisini nəql və rəvayət edən və Kərbalada İmam Hüseynin (ə) qarşısında şəhadət şərəfinə yetişən Ənəs, Həmzə, Cəfər, Əqil, Osman ibn Əhnəf, Hüneyf oğlu Səhl Əbu Səyidül-Hudri, ənsarın rəisi Səd ibn Übabə, Buridat ibn Malik, Bura ibn Malik, Hübab ibn Ərt, Rəfat ibn Malikil-Ənsari, Əbut-Tufeyl ibn Əmir, ibn Valilə, Hind ibn Əbihalə, Cudat ibn Hübeytül-Məhzumi anası Ümmuhani binti Əbutalib, Rəsulullahın (s) azançısı Bilal ibn Rəvah kimi əsabi-kiramdir. Bu barədə «Əs-süləfa» sahibi Seyid Əli Hənin «Əd-dərəcatür-rafiə fi təbaqəti-şiə»sinə, lufət ehmində ən yaxşı bir kitab olan «Tirazül-lüfa»ya, «Üstül-qəəbə fi mərifətis-səhabə»yə və digər kitablara müraciət edə bilərsiniz. Həzrət Rəsullahın səhabəsinin böyüklərindən üç yüzə yaxın adam vardır ki, hamsı Əlinin (ə) şiəsidir.

Bunlar islamın əlehinə olmuşlar? Yoxsa şiənin imamı olub Bədrdə, Ühudda, Hüneyndə, Əhzabda və digər döyüşlərdə qılıncı ilə islamı qoruyan, onun dirəyini qaldıran Əbutalıb oğlu Əli (ə) islamın əleyhinə getmişdir?

Həqiqətən də hicrətdən əvvəl və sonra onun qeyrətini, şücaəti olmasaydı, hicrətdən əvvəl isə onun atası Əbutalıb olmasaydı, Allah bunu təqdir etməsəydi, islam Qüreyş qurdları tərəfindən beşikdə ikən yox edilər, ana qucağında ikən boğulardı.

---

[1] Əbdullah ibn Əbbasa bu ləqəbi Həzrət Rəsul (s) vermişdir.

Fəqət Əbutalıbın bunun əvəzində gördüyü mükafat, haşa, kafir olaraq ölməsinə hökm verilmək oldu. Amma Əbu Süfyan nə vaxt Həzrət Peyğəmbərə (s) qarşı bir savaş bayrağı ucalırdısa, dalğalanırdısa, onu ucaldan, o ordunu doyüşə səsləyən bir şəxs idi. Küfrünü, islama düşmənçiliyini açıqlamaqdan da çəkinməzdi. Hətta xilafət bəyin Üməyəyə çatanda demişdi: «Ey Üməyyə oğulları! Arxa-arxaya verin. And olsun ki, nə cənnət var, nə cəhənnəm». Belə olduqda onun müsəlman olaraq öldüyünə hökm edildi. Haşa, kafir olaraq öldüyünə hökm edilən Əbutalıb: **«Həqiqətən də bildim ki, Muhəmmədin dini yer üzündə xalqlar arasında dinlərin ən xeyirlisidir»** demişdi. Əbutalıb Həzrət Mühəmmədin (s) dininin ən xeyirli din olduğunu bildiyi halda və Məkkənin rəisi olduğuna görə o dinə uymayacaq qədər rəyi nöqsanlı, əzmi zəif bir kişi deyildi. Nə isə… Bu söhbətdən vaz keçək. Yenidən islamı guya yıxmağa çalışanlara keçək.

Adlarını qeyd etdiyimiz səhabələrdən sonra Qeys oğlu Əhnəf, Suvəyd, Ətiyyətul-Ovfi, Həkəm ibn Ütəybə, Salim ibn Əbil-Cəd, Əli ibn Əbil-Cəd, Həsən ibn Salih, Səid ibn Çubeyr, Səid ibn Müseyyib, Əsbəq ibn Nubatə, Süleyman ibn Mihranil-Əməş, Yəhya ibn Yəmuril-Ədvani və s. kimi tabeinlər gəlir. Bunların şiədən olduqlarına dəlil gətirmək və digərlərinin adlarını saymaq uzun çəkər. Bunlarmıdır islamın əleyhində olanlar, islamı yıxmaq istəyənlər? Yoxsa nəhv elmini yaradan Əbül-Əsvədid-Duali, lüğət və əruz elminin əsasını qoyan Xəlil ibn Əhməd, Süyutinin «Əl-məzhər» əsərinin II cildində şiə olduğu acıqlanan, sərf elminin yaradıcısı Əbu Muslim, Muaz ibn Muslimil-Hərra bu dinin əleyhinə çıxmışdır?

Ərəblərin imamı sayılan Yəqub ibn İshaqis-Siqqit, təfsir elminin banisi, şiəliyi gün kimi aydın olan Abdullah  ibn Abbas, Cabir ibn Abdullah , Übeyy ibn Kəb, Səid ibn Cübeyr, Səid ibn

Müseyyib Quran elmlərini toplayan ilk müfəssir və «Rəğiyb» adlı təfsirin sahibi Mühəmməd ibn Ömərul-Baqidi kimi şəxsləri İslamın əleyhdarları saymaq olarmı? Hədis elminin müməssili, Rəsulullahın (s) azad köləsi «Kitabül-əhkami vəs-sünəni vəl qəzaya» sahibi Əbu Rafini islam əleyhinə çıxan bir şəxs hesab etmək olarmı? Bu şəxs Əmirəl-möminin Əli (ə)-ın Kufədə beytül-mal məmuru idi. Onun oğlu Əli ibn Əbu Rafi isə sonralar Həzrətin katibliyində işlədi. Qardaşı Übeydullah da bu xidməti icra edənlərdən oldu. Əli ibn Əbu Rafi atasından sonra fiqhə dair bir kitab da yazmışdır. Tarixə aid ilk kitabın müəllifi isə onun qardaşı idi.

Yoxsa kəlam elmini yaradanlardan, ilk dəfə bundan bəhs edənlərdən və bu mövzuda dəyərli kitablar yazanlardan Məhəmməd ibn Hənəfiyyənin oğlu Əbu Hişam, Əbu Cəfər dövrünə qədər yaşayan İsa ibn Rəvzətüt-Tabei islamın əsaslarına qəsd etmişdi?...

***

İmam Sadiq (ə)-ın əshabından olub hicri 140-cı ildə vəfat edən Osman ibn Əhmərit-Tabei, siyər[1] və asar elminin əsasını qoymuşdur. Tabeidən sonra bu sahədə kitab yazanların sırasında Hişam ibn Muhəmməd ibn Sanibi-Kəlbi, Muhəmməd ibn İshaqil-Mütəllibi və Əbu Mühnəfil-Əzdi göstərmək olar. Qalan siyər müəllifləri adları çəkilən alimlərin ardıcıllarıdır və hamısı da şiədir. Onların sırasına «Kitabül-məhasin» sahibi Əhməd ibn Xalidil-Bərqiyyinin, Nasir ibn Muzahimin, İbrahim ibn Mühəmməd ibn Sədis-Səqəfinin, Əbdüləzizil-Cüludiyyil-Bəsriyyil-İmaminin, tarixə aid əsərləri Avropada və Nəcəfdə

---

[1] **Siyər** – Həzrət Peyğəmbərin (s) həyat dastanı, möcüzələri və əxlaqı haqqdında yazılan əsərlər.

nəşr olunmuş Yəqubi Əhməd ibn Yəqubinin və digər müəlliflərin adlarını daxil edə bilərik.

İndi isə şairlər haqqında: İslam şairlərinin ən böyükləri şiələrdən ibarətdir. Onların iki qismə ayırmaq olar. Əmirəl-möminin Əli (ə) ilə Süffüeyn hərbində iştirak edən və rəcəzləri ilə məşhur olan Nabicətil-Cudi, Ürvət ibn Zeydül-Həyl, Ləbid ibn Rəbiətil-Əmiri, Əbut-Tüfeyl Əmir, Əbul Əsvədid-Duali, «Bənət-Suad» qəsidəsinin müəlifi Kəb ibn Züheyr və başqaları birinci qismə aiddir.

İkinci qisim şairlər tabein ilə eyni dövrdə yaşayanlardır. Fərəzdəq, Seyyid Himeyri, Qeys ibn Züreyh belə şairlərindəndir.

Bunlardan sonra yaşayanlar Dibili Huzai, Əbu Nüvas, Əbu Təmmam, Büxtəri, Dikül Cinn Əbdülssəlam, Əbuş-Şeys, Hüseyn ibn Dəhhak, İbnur-Rumi, Mənsur Nəmri, Əşcayi Əsləmi, Mühəmməd ibn Vəhab və onların müasirləri, Bəni-Abbas dövləti zamanında yaşayanların və bu əsrdəkilərin hamısı Mərvan ibn Əbi Həfsə istisna olmaqla şiədirlər...

Əgər şiə olan padşahların da siyahısını buraya əlavə etsək, onda vərəqlər yalnız adlarla dolar. Maraqlananlara «Əl-hüsunül-mənié fi təbəqatiş-şiə»yə baxmağı məsləhət görürük.

Bütün bunlarmı islamın əsaslarına qəsd etmişlər?

***

Şiəliyin əleyhinə söylənən sözlərdən biri də Həzrət Peyğəmbərin (s) və İmamların (ə) yenidən dünyaya qayıdacaqları barədəki yanlış inancdır. Buna **rəcət inancı** deyilir. Fəqət ricət imamiyyə dərgahında zəruri sayılmır. Ona inananları şiə sayıb, inanmayanları şiəlikdən kənar hesab etmək də düzgün deyildir.

Ricətə aid xəbərlər İsanın (ə) göydən enəcəyi, Dəccalın çıxacağı və s. barədə verilən xəbərlər kimidir və bunlara inanan şəxsin müsəlman sayılıb-sayılmayacağına maneçiliyi yoxdur. Deyək ki, lap ricət şiəliyin əsas inanclarından biri olsun, bu şiəliyin musəvilikdən təsirləndiyini isbat edirmi? Musəvilər də Allahın varlığınına, birliyinə inanırlar. Bu halda müsəlmanlıq musəvilikdən təsirlənmişdir demək olarmı? Allah istəsə hər bir ümməti ölümündən sonra diriltməzmi? Buna Onun qüdrəti yoxdurmu?

أَلَمْ تَرَ إِلَى الَّذِينَ خَرَجُوا مِنْ دِيَارِهِمْ وَهُمْ أُلُوفٌ حَذَرَ الْمَوْتِ فَقَالَ لَهُمُ اللهُ مُوتُوا ثُمَّ أَحْيَاهُمْ إِنَّ اللهَ لَذُو فَضْلٍ عَلَى النَّاسِ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَشْكُرُونَ

***«Min-min adam isə ölüm qorxusu ilə yurdlarından çıxanları görməzmi oldu? Allah «ölün» dedi, sonra diriltdi onları».***[1]

Və yaxud:

وَيَوْمَ نَحْشُرُ مِنْ كُلِّ أُمَّةٍ فَوْجًا مِمَّنْ يُكَذِّبُ بِآيَاتِنَا فَهُمْ يُوزَعُونَ

***«O gün hər ümmətdən o şəxsləri məhşərə çəkərik ki, ayələrimizi danırdılar».***[2] Halbuki Allah qiyamətdə bir ümməti deyil hər kəsi məhşərə çəkəcəkdir,[3] Ricət inanclarını qınamaq, qədimdən ta bu zamanadək əhli-sünnət alimlərinə adət olmuşdur. Halbuki bu o qədər də əhəmiyyətli bir şey deyilmiş. Fəqət onlar, sanki bütə tapınırlarmış, yaxud Allaha şərik qoşurlarmış kimi bunun üstündə dururlar.

Onlar iddia edir ki, şiələr: - Cəhənnəm şiəyə haramdır. Şiə cəhənnəmdə çox az bir müddət qalar, - demişlər. Bunu şiə kitablarıdan hansında və kim görmüşdür? Şiyələrin kitabları zühurdadır. Allah sübhanəhu və təalanın cənnəti ona itaət edən

---

[1] «Bəqərə» surəsi, ayə 243.
[2] «Nəml» surəsi, ayə 83.
[3] Bax: «Səbə» surəsi, ayə 40, «Mücədələ» surəsi, ayə 6, 18.

mömin şəxs üçün yaradılmışdır. İstər o bəndə həbəşi bir kölə olsun, istərsə də şiə. Allah cəhənnəmi ona üsyan edən şəxslər üçün yaratmışdır. İstərsə o bəndə Qüreşli və yaxud seyid olsun, istərsə də bir başqası. Şiə imamlarından (ə) buna bənzər həddə-hesaba sığmaz xəbərlər gəlmişdir. Həzrət Peyğənbərin və İmamların bəzi günahkarlara şəfaət verəcəyi bir şeydir, şəfaətin qəbuluna inanmaq isə başqa bir şeydir. Şəfaətə inanmağın özü isə islam dininin zəruri inanclarındandır.

Şiə və xristianlığı müqayisə etməyə girişənlərdən Allah dərgahında imamın Məsih inancına bənzərliyini söyləyənlər də olmuşdur. Fəqət bu cür bir sözü şiədən kim söyləmişdir, belə bir inanc şiədə umumiyyətlə varmıdır? Əgər bu müqayisəyə girişənlərin məqsədləri imam və xüsusən Həzrət Əli (ə) haqqında ifrat bir inanc bəsləyənlər isə bunları şiəyi-imamiyyə-Cəfəriyə ilə eyni saymaq, bir gözdə görmək, bunların inanclarının imamiyyəyə aid eləmək böyük bir xətadır. Şiyəyi-imamiyyə və imamları bu xirqələrdən kənar gəzmiş, onları kafir adlandırmışlar. Şiyəyi-imamiyyə tənasühün, ittihadın[1], hüluлun Allahı cisim bilməyin tam əleyhindədir. Hikmət və kəlama aid kitabların sayı minlərlədir. Hər kitabda Allah təbarəkə və təalanin tənzihi, nöqsan sifətlərdən münəzzeh olması, dəlillərlə sübut olunmuşdur. Belə inancların batil olduğu isə yenə də dəlillərlə isbat edilmişdir.

Özlərini şiə sayan, fəqət imamiyyə tərfindən mülhut və kafir olunduğu bildirilən firqələrlə imamiyyəni bir sanmaq aydın-acıq xətadır, böyük bir zülümdür. Fəqət kədərlə qeyd etməliyik ki, şiə haqqında söz söyləyənlər, yazı yazanlar bu məzhəbə aid məlumatlarını bu məzhəbin öz kitablarından deyil, Bərbəri ibn Xəldunun, yaxud əndəlisli Əhməd ibn Əbdurəbbihin və bunlara

---

[1] **Tənasuh və hulul** əvvəldə qısaca şərh olunmuşdur. **İttihad** isə bəndənin Allahla birləşməsi deməkdir ki şiə imamları bunun da əleyhinə olmuş və bunu kufr saymışlar.

bənzəynlərin kitablarından əxz etmişlər. Halbuki həm yer baxımından, həm verdikləri məlumatın iftira və təəssübdən doğulması baxımından bunların heç biri şiə kitablarına müraciət etməmişlər. Onlara uyanlar isə belə bir zəhmətə qatlaşmağı ağıllarına belə gətirməmişlər.[1]

Şiə məzhəbinin Abdullah ibn Səba ilə başladığı da şiə əleyhində olanların əsassız iddialarındandır. Halbuki şiənin Rical kitablarında, yəni Həzrət Peyğəmbərdən (s) və İmamlardan (ə) hədis rəvayət edənlərlə o dövrdə yaşayanların tərcümeyi-hal, məzhəb və məşrəblərini incələyən kitablarda belələri **(Abdullah ibn Səba kimilər – H.A.)** imamlar tərəfindən də, şiələr tərəfindən də lənətlə yad olunur və bunların şiəyi-imamiyyə ilə heç bir əlaqəsi yoxdur.[2]

«Şiə» sözü haradan və nə vaxt meydana çıxmışdır? Bu söz ilk söyləyən kim olmuşdur? Biz bu xüsusda şiə yolları ilə imamiyyə raviləri deyil, xüsusən əhli-sünnət qardaşlarımızın rəvayətləri ilə bir-iki hədis zikr etməyi lazım bilirik: Suyuti «Əd-dürrül-mənsur fi təfdiri-kitabillahi vəl mənsur»da İbn Əsakirin rəvayəti ilə Cabir ibn Əbdüllahdan bunları rəvayət edir. O demişdir ki: **«Həzrət Peyğəmbərin (s) yanında idik. Əli (ə) oraya gəldi. Peyğəmbər (s) buyurdu ki, nəfsim qüdrət qəbzəsində olan Allaha and olsun ki, bu (Əli - H.A) və şiəsi qiyamət günündə nicat tapanlardandır, muradlarına**

---

[1] Burada bir xatirəmizi söyləməyi lazım bildik. Qiraət və səs baxımından vaxdı ilə bəyənilən bir hafiz əfəndiyə Seyid Əhməd dərəsi məscidinə gəlib bir surə qiraət buyurmasını rica etmişdim: -Bizi əhv elə. Mən Rafizilərin məscidinə getmərəm. Onlar musalman deyil dedi. Şiyəyi-imamiyə kitablarini oxuyub-oxumadığını soruşdum. Onlar batil yazırlar cavabını verdi. Qoy onlar bizim kitablarımızı oxusunlar. Bir məzhəbin əsasını bilmədən gedişini-gəlişini bilmədən hökm yürüdən və Nəhrivan hafizlərinin bərabəri olan əhli-qibləni təkfir curət və cəsarətini kəsdirən bu hafiz əfəndiyə qarşı veriləcək cavab ancaq «**Cahillərdən uz çevir**» yeyi-kərimısidir, biz də ona bu cavabı verdik. **Ə.K.**

[2] Əbdullah ibn Səba haqqında «Əbdullah ibn Səba nağılı» aid kitaba bax. İst. 1974.

**yetişənlərdəndir».** Peyğəmbər (s) bunu buyurarkən Quranın «Bəyyinə» surəsinin 7-ci ayəsi nazil oldu:

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُولَئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ

***«Yaranmışların ən yaxşısıdır iman gətirən, saleh işlər görən kəslər».***

İbn Ədiyy ibn Abbasdan rəvayətində bildirir ki, İbn Abbas buyuryr: **«İnananlar və yaxşı işlər görənlər...»** ayəsi endiyi zaman Rəsulullah Əliyə (ə): **«Onlar... sənsən və sənin şiələrindir. Qiyamət günü Allah rizasını qazanmış və ondan razı olmuş olacaqsınız».** - buyurdu.

İbn Mərduyə Əlidən (ə) rəvayət edir ki, Əli buyurmuşdur: Rəsulullah (s) mənə dedi: Allahın inananlar və yaxşı işlər görənlər haqqında biyurduğu: **«Onlardır şübhə yox ki, yaradılmışların ən xeyirliləri»** ayəsini eşitmisənmi? **Onlar sənsən və sənin şiəndir. Mənimlə onların görüşəcəyi yer Kövsər hovuzunun yanıdır. Ümmətlər haqq-hesaba gəldikləri zaman onlar üzləri ağ olacaqlar».**

Süyutinin zikr elədiyi hədislər burada bitdi.

Bu hədislərin bir qismini İbn Həcər də Darukutnidən rəvayət edərək «Səvaiq» kitabında göstərir. Ümmüsələmə raziyullahu-ənhə Həzrət Peyğəmbər (s): **«Ya Əli sən və əshabın cənnətdəsiniz»** sözlərini rəvayət etmişdir. İbn Əsir «Nihayə» kitabında Həzrət Peyğəmbərin (s) **«Ya Əli sən və şiən Allaha onun razılığını qazanmış və ondan razı olmuş bir halda qovuşacaqsınız. Düşmənlərin isə qızğın və əlləri boynuna bağlı olaraq Allaha yetişəcək»** buyruğunu, sonra da əllərinin necə bağlı olduğunu göstərmək üçün əllərini boynuna qoyduğunu nəql edir. Bu hədis İbn Həcər yuxarıda adını çəkdiyumiz əsərində başqaları isə digər mənbələrdən rəvayət edirlər. Bu da hədisin hədis ərbabı dərgahında şöhrətinə dəlalət

edir. Zəməxşəri «Rəbiul-əbrar» kitabında Rəsulullahdan rəvayət edir. Rəsulullah buyurmuşdur ki, **«Ya Əli qiyamət günü olarkən uca Allaha sığınacağam, sən mənim ətəyimdən yapışarsan. Mənimlə birlikdə Allaha təvəssül edərsən. Övladların səndən yapışarlar. Onların şiələri də onlarla birlikdə Allaha təvəssül edərlər».**

Bu barədə əlavə məlumat almaq istəyən Əhməd ibn Həmbəlin «Müsnəd», Nəsəinin «Həsais» kimi hədis kitablarına müraciət edə bilərlər.

Göründüyü kimi, islam şəriətinin qurucusu Əlinin şiəsini anmış, dəfələrlə onlardan bəhs etmişdir. Onların qiyamət günü nicat tapanlardan, muradına yetənlərdən olacaqlarını, Allahın razılığını əldə edəcəklərini, Allahdan razı bir halda və əmin olacaqlarını buyurmuşdur. Şübhə yoxdur ki, Həzrət Peyğəmbərin (s) peyğəmbərliyinə inanan onun sözünü də təsdiq etməlidir. Çünki Quranın «Nəcm» surəsinin 4-cü ayəsində buyurulur:

إِنْ هُوَ إِلاَّ وَحْيٌ يُوحَى

***«Onun sözü ancaq vəhy edilən sözlərdən ibarətdir».***

Bütün səhabə Əlinin şiəsi olsaydı, onların bir bölüyünü Əlinin şiəsi deyə xatırlamazdılar. Həqiqətən də, Həzrət Peyğəmbərin (s) zamanında Əli tərəfdarı olan, onu imam bilən, Həzrət Peyğəmbərin (s) sözlərini şərh və təfsir eləyən, hökmlərini, hikmətlərini təbliğ edən şəxs olaraq onu tanıyan səhabə az deyildi və Əli şiəsi sözü bunlara aid bir xüsusi ad, bu bölüyün bir adı olmuşdu. Lüğət əhli də bunu təsdiq etmişdir. «Lisanül-ərbəə» və buna bənzər lüğət kitablarına müraciət edilərsə, bu adın Əli (ə) tərəfdarlarına, onun övladlarına verildiyi məlum olar. «Şiə» sözü Əlini sevənlərə və ona rəğbət bəsləyənlərə verildiyi söylənilərsə, bu izah düzgün olmaz. Çünki

bir kimsəni sevmək və ona rəğbət bəsləmək onun şiəsi olmaq üçün kifayət deyil. Burada bir xüsusiyyətin də aydınlaşması lazımdır. Bu da o şəxsə uymaq, onun tərəfini saxlamaqdır. Bu əsas olmadan birisinə kiminsə şiəsi demək, ancaq məcazi bir məna daşıya bilər. Heç şübhə yoxdur ki, bu sözlə müsəlmanların bir qismi nəzərdə tutulur ki, bunlar digər müsəlmanlardan müəyyən bir özünəməxsusluqla ayrılmışlar.

Çoxluğu təşkil edən və bu özünəməxsus sifətlərə malik olmayan əshabi-giramın Həzrət Peyğəmbərə (s) müxalifətdə olduqlarını, onun irşadına uymadıqlarını da söyləmirik. Haşa, Allah onlar haqqında belə bir zənnə düşməkdən bizi qorusun. Onlar bu gün də yer üzündəkilərin ən xeyirliləri olaraq qalırlar. Ancaq hamısının bu sözləri eşidərkən məqsədi anlamamaları ehtimalı vardır. Əhabi-giram islamın ən uca məqamına sahibdir.

Sahibi-şəriət, Əli ibn Əbutalibin özünəməxsus keyfiyyətlərini həmişə bəyan etmişdir. Şiələrdən başqa əhli-sünnət alimləri də bu xüsusdakı hədisləri rəvayət etmişdilər. Məsələn, **«Harun Musaya hansı mənzilədə isə, Əli də mənə o mənzilədədir»**, **«Səni ançaq mömin sevər və sənə ancaq münafiq ədavət bəsləyər»** hədisləri və **«Allahım mənə xalqımdan ən sevgilisini gətir»** mənasını daşıyan qızardılmış quş hədisi[1], **«Mən sizin içinizdə iki dəyərli əmanət qoyub gedirəm; Allahın kitabı və mənim Əhli-beytim»** hədisi, **«Sabah bayrağı elə birisinə verəcəm ki, o Allahı və Rəsulunu sevəndir. Allah və Rəsulu da onu sevir»** hədisi[2], **«Əli haqq illədir, haqq da Əli ilə»** hədisi. Bunlara bənzər bir sıra hədislər də vardır ki, onlar saya gəlməz. Seyyid Həmid Hüseynil-Ləknahuri hər cilddi «Səhih Buxari» qədər olan və on cildi aşan

[1] Həzrət Peyğəmbərə (s) bir qızarmış quş gətirilmişdir. Bu hədisi o münasibətlə buyurdu və Əli (ə) gəldi. Birlikdə yedilər.

[2] Bu hədis Xeybər qəzvəsində buyurmuşdur.

«Əqabətül-ənvar» adlı kitabında bu hədislərin mötəbər yollarla sənədlərini təsdiq etmişdir.

Həzrət Rəsul (s) bu aləmdən əbədi aləmə köçərkən səhabənin bir qismi yaşınının kiçik olması, yaxud Qüreyşdən olması səbəbi ilə və başqa mülahizələrlə Əlinin xilafətini qəbul etmədi. Əli isə hər iki firqənin, yəni əhli-sünnətin və şiənin ittifaqı ilə xəlifəyə beyət eləmədi. Hətta «Səhih Buxari»nin Xeybər qəzvəsi babında açıqladığı kimi altı ay sonra beyət etdi. Səhabədən Zübeyr, Əmmar, Miqdad və sair kimi Əli tərəfdarları da onlara beyət etmədilər.

Sonra Əli bunun islamda başqa bir istiqamət alacağını görərək beyıt elədi. Hər kəs də bilir ki, Əli əmir olmağı istədiyindən, tamah üzündən xilafətə meyl etməmişdi. Onun Zikarda ibn Abbasa söylədiyi söz məşhurdur. O ancaq islamı qüvvətləndirmək, onun sərhədlərini genışləndirmək, haqqı diriltmək və batili məhv etmək istəyirdi. Birinci və ikinci xəlifələrin Tövhidi yaymaq, əsgəri silahlandırmaq, fütuhatı genişləndirmək sahəsində ki xidmətlərini görərkən onlarla barışdı. Dağılmağa imkan vermədi. Odur ki, Əlinin (ə) şiələri də onun qanadları altına girdi, onun nuru ilə nurlandı. Fəqət, haqq batildən ayrılarkən, doğru yol əyri yoldan ayrılıb bəlli olarkən, yəni Müaviyə Həzrət Əliyə (ə) beyətdən boyun qaçırarkən onunla savaşdı. Bu zaman sahabənin çoxu Əlinin tərəfini saxladı, onun bayrağı altına yığışdı. Əli ilə bərabər səhabənin sayılanlarından səksən nəfər var idi, onların hamısı Bədr döyüşündə Əqabə beyətində olmuşdular. Əmmar ibn Yasir, Züş-Şəhadəteyn Hüzeymə, Əbu Əyyub Ənsari və başqaları kimi. Əli (ə) şəhid edildikdən sonra Müaviyə islam arasında zorla hökm sürən, hər xüsusda yalnız öz rəyi ilə hərəkət edən padşahlar kimi hökmdarlığa başladı. Özündən əvvəlki xəlifələrin tam ziddinə olan bir yol tutdu. Halbuki Əmirəl-mömininin işləri, hərəkətləri

hər xüsusda zöhd üzərində qurulmuşdu. Hiyləyə heç tənəzzül etməmişdi. Müaviyə isə buna tam zidd bir yolda idi. Misir valiliyini xəyanətlə Əmr ibn Asa necə verdiyi, ümməti oğlu Yezidə beyət üçün necə məcbur elədiyi, Ziyadı şəriət hökmlərinə tamamilə zidd olaraq necə qardaşımdır deyə tanıdığı və tanıtdığı, saray təşkilatını necə qurduğu, necə yaşadığı, yediyi və içdiyi məlumdur. Bütün bunlar ilk iki xəlifənin silaha, orduya xərclədikləri pullarla, müsəlmanların pulları ilə saxlanılırdı. Hicrətin 422-ci ilində vəfat edən vəzir Əbu Səid Mənsur ibn Hüseynil-Abidin «Nəsrüddürr» kitabında anlatdığı kimi həmin hekayəti biz də zikr edək:

«Qeys oğlu Əhnəf deyir ki, bir gün Müaviyənin ziyarətinə getdim. Mənə isti, soyuq, dadlı, türş yeməklər gətirtdi. Yeməklərin çoxluğundan çaşıb qalmışdım ki, heç vaxt görmədiyim, bir yemək gəldi. Bu nədir? - dedim. Qaz bağırsaqlarıdır. İçi beyinlə doldurulmuş, fısdıq yağı ilə qaynadılmış, sonra üstünə döyülmüş nabat şəkəri səpilmişdi. Mən bu sözləri eşidərkən ağlamağa başladım.

- Nə üçün ağlayırsan? - dedi. Düdim ki, Əlini xatırladım. Bir gün onun hüzurunda getmişdim. Yemək zamanı idi. Mənə oturmağı təklif elədi. Onun qabağına bağlanmış, düyünü möhürlənmiş bir dağarcıq gətirdilər.

- Dağarcıqda nə var? - dedim.

- Qovrulmuş arpa unu, - dedim.

- «Oğurlayarlar deyə qorxdun?» kimi bir söz söylədim.

Dedi ki, xeyr, nə oğurlarlar deyə qorxdum, nə də xəsislikdən bu işi elədim. Fəqət Həsənlə Hüseyn zeytun yağı sürərlər deyə ehtiyat etdim və ona görə bağladım, möhürlədim.

- Ya Əmirəl-möminin, - dedim, - haram deyil ki?

- Xeyr, - buyurdu. Yalnız həqiqi iman sahibi olan şəxslərə, xalqın yoxsullarının üsyan etməməsi üçün onların ən yoxsullarının yaşadığı kimi güzaran keçirmək lazımdır.

Müaviyə, - bəli, - dedi. Üstünlüyünə bərabər olmayan bir şəxsdən danışdın.

Zəməxşərinin «Rəbiyül-əbrar»ında və buna bənzər kitablarda belə şeylərə rast gəlmək olar.

Nəhayət, Müaviyə Allah adına qəbul etdiyi bütün - şərt və əhdləri pozdu. İmam Həsəni (ə) zəhərlətdirdi. Sonra da öz oğlu Yəzid üçün xalqdan zorla beyət tələb elədi və istədiyinə nail oldu. Müaviyənin və Yezidin xilafətindən başlayaraq dində bir cəbhələşmə meydana gəldi. Dinin isə imamları vardır və onlar əlbəttə din xüsusunda bu məqama daha layiq idilər. Beləliklə, iman əhli Əliyə (ə) və övladına cənnət əhlinin cavanları olan İmam Həsən (ə) və İmam Hüseynə (ə) bağlanmışdılar. İmam Hüseyn (ə) Kərbalada şəhadəti bütün iman əhlinin qəlbini yaralanmışdı. Bu faciə, onların qəlbindəki məhəbbəti daha da artırdı. Bəni-Ümeyyə isə tamamilə müstəbid kimi hökm sürməyə başladı. Əhli-beytə və tərəfdarlarına görünməmiş zülmlər etdilər. Fəqət onlar zülmlərini artırdıqca Əhli-beytə olan rəğbət, hətta onların uğrunda candan, başdan keçmək eşqi artırdı. Əbdül Malik Həccac vasitəsilə Kəbəyə mancanaqlarla daşlar atır, Beytullahı uçururdu. Zübeyr oğlu Abdullah  cahiliyyə dövründə belə hörməti gözlənilən Hərəmdə, Kəbə ilə Məqam arasında öldürülmüşdü. Mədinədə Məscidi-nəbiyə at bağlanmışdı. Bəni-Ümeyyə xilafət məqamınaı az bir müddət işğal etdikdən sonra hökmranlıq mərvanilərə keçmişdi. Bu nəsildə Ömər ibn Əbdüləziz istisna olmaqla iman və islama hörmət edən bif nəfər də yox idi.

Əməvililərdən sonra xilafət məqamına Abbas oğulları gəldi. Fəqət bunlar da əmiləri oğulları olan Ələvilərə, yəni Əli nəslinə

Əməvilər qədər zülm elədilər. Onların izlərini məhv elədilər. Ölkələrini xarab etdilər. Mütəvəkkil İmam Hüseyn (ə)-ın şəhadətini ortadan qaldırmaq cürətini belə göstərməyə cəhd eləmədi. Bu əsrdə Əli övladı yalan və hiylədən ibarət olan siyasətdən kənarda çəkildi. Məsələn İmam Hüseynin (ə) oğlu İmam Zeynülabidin Əli (ə) atasının şəhadətindən sonra özünü ibadətə həsr elədi, ətrafındakıların əxlaqını saflaşdırmaqla məşğul oldu. Bu yolu tabeindən Həsəni-Bisri, Tavusi-Yəməni və ibn Sirin kumiləri də tutdu. Onlarla birgə hərəkət elədi. Oğlu Məhəmməd Baqir və nəvəsi Cəfər Sadiq (ə) cəddlərinin xəbərlərini, hədislərini nəşrə başladılar. Xüsusən Bəni-Ümeyyə ilə Bəni-Abbasın bir-birlərini diddikləri fitrət dövründə İmam Sadiq (ə) mümkün olduğu qədər din elmi uğrunda çalışdı. O dərəcəyə qədər çalışdı ki, şiəyi-imamiyyə Cəfəriyyə adı ilə anılmağa başlandı. Əbül Həsənil-Vəşşa küfəlilərdən ibarət bir cəmiyyətə Küfə məscidini nəzərdə tutaraq demişdir: - Mən elə bir zamanda yaşadım ki, bu camidə təqva əhlindən dörd min şəxsi eşitdim. Hamısı da mənə **«Cəfər ibn Mühəmməd dedi ki...»**, deyə hədis rəvayət edirdi.

Xülasə Əməvilər və Abbasilər öz səltənətlərini qüvvətləndirməyə, özlərinə qarşı duranlarla mübarizəyə başlayıb, dünya nemətlərinə dalıb zövqə qapılmışkən Əli övladı elmə, ibadətə, təqvaya sarılmışdı və cəddlərinin yolunu qüvvətləndirmişdilər. Onu yaymışdılar. Həqiqətən də Rəsulullahın xəlifələri bunlar idi. Ümmətin İmamı bunlar idi. Haqq yolunda canlarını fəda edən də bunlar oldu. Hicr ibn Ədiyy Kindi, Əmr ibn Hamiki Hüzai, Rüşeydül Həcəri, Meysəm Təmmar, Abdullah ibn Əfif və başqaları bu hərəkətləri ilə mal və mövqe istəmir, haqqı yerinə yetirməyi, batili yox eləməyi istəyirdilər və bunun üçün də can qoyurdular.

Bunu da qeyd etmək lazımdır ki, biz istər Əməvilərin, istər Abassilərin bəzi yaxşı hərəkətlərini, islama xidmətlərini, islam sərhədlərini genişləndirmələrini inkar etmirik. Allaha and olsun, həqiqəti inkar edənlərdən olmadığımız kimi ayrı-seçkilik salanlardan da deyilik, ancaq onu deyə bilərik ki, onlar da bir ümmət idilər, gəlib getdilər. Dünyada qazandıqlarına əvəz görəcəkləri mükafat da onlara aiddir, cəza da.

Bizim bu sözlərimizdən birinci məqsədimiz şiəliyin necə meydana gəldiyini, hansı şərtlər daxilində və kimlərin ətrafında genişləndiyini mümkün olduğu qədər bildirməkdir. İkincisi məqsədimiz isə şiə inancalırının üsul və füruhunu bildirməkdir. Bunların da çox qısa, fəqət mötəbər bir halda bildirəcəyik.

Din beş əsasa söykənir:

**1. Yaradanı, Allah təbarək və təalanı tanımaq.**

**2. Onun göndərdiyi xəbərləri təbliğ edəni təsdiq edəmək, onlara inanmaq.**

**3. İbadəti əməli bilmək.**

**4. Fəziləti əldə edib pisliyi tərk etmək.**

**5. Axirətə iman gətirmək.**

Bu halda din elm və əməldir.

إِنَّ الدِّينَ عِنْدَ اللَّهِ الإِسْلاَمُ

***«Həqiqətən Allah dərgahında din islamdan ibarətdir».***[1]

İslam və iman bir-birinə bərabərdir və üç rüknə əsaslanır: **Tövhid, Nübuvvət, Məad**.

Bir kimsə bunların birini inkar etsə müsəlman və mömin sayılmaz. Fəqət Allahın varlığına, birliyinə peyğəmbərlərin ulusu Həzrət Mühəmməd (s) peyğəmbər olduğuna, axirət gününə inanan, Allahını və Rəsulunu təsdiq edən həqiqi müsəlmandır. Qanı, malı, irzi müsəlmanlara haramdır. Bu üç

[1] «Ali-İmran» surəsi, ayə 19.

rüknə inanan və dördüncü rükn olan əməli isə ifa edən şəxs isə mömindir. Əməl islamın əsasıdır və beşdir: **namaz, oruc, zəkat, həcc və cihad.**

Bu baxımından iman, qəlbdən inanmaq, dillə söyləmək və bu ərkan ilə əməl etməkdir. Qurani-Kərimdə harada iman zikr edilmişsə, Allaha, Rəsuluna və axirət gününə inanmaq zikr edilmişdir ki, bunlar islamın şərtləridir. Bunlarla bərabər «yaxşı və təmiz əməl» də zikr edilmişsə ikinci məna nəzərdə tutulmuşdur. Allah sübhanəhu və təala «Hucurat» surəsinin 14-cü ayəsində buyurur:

قَالَتِ الأَعْرَابُ آمَنَّا قُلْ لَمْ تُؤْمِنُوا وَلَكِنْ قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الإِيمَانُ فِي قُلُوبِكُمْ

***«Bədəvilər «inandıq» deyirlərsə, de ki: «inanmadınız, fəqət müsəlman oldunuz. İman isə qəlbləriniza girmədi».***

Bundan sonra isə həmin surənin 15-ci ayəsində buyurulur:

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ آمَنُوا بِاللَّهِ وَرَسُولِهِ ثُمَّ لَمْ يَرْتَابُوا وَجَاهَدُوا بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ فِي سَبِيلِ اللهِ أُولَئِكَ هُمُ الصَّادِقُونَ

***«Möminlər o kəslərdir ki, Allaha və Rəsuluna iman gətirmişlər, sonra da bir şübhəyə dalmamışlar. Allah yolunda malları ilə, canları ilə cihad eləmişlər. Onlar doğru sözlü, düz əməlli kimsələrdir».*** Yəni iman iqrardır, yəqindir və əməldir. Bu dörd ruki, yəni inanmaq, iqrar etmək, yəqin yəni tam şübhəsiz inanc və əməl müsəlmanların fikrincə, islam və imanın təməlidir.

Şiə bu dörd rüknə bir beşinci rükn də artırır ki, bu da imamətə inanmaqdır. Yəni imamət nübuvvət kimi Allah tərəfindən verilən bir mövqeydir, bir məqaqmdır.

وَرَبُّكَ يَخْلُقُ مَا يَشَاءُ وَيَخْتَارُ مَا كَانَ لَهُمُ الْخِيَرَةُ سُبْحَانَ اللَّهِ وَتَعَالَىٰ عَمَّا يُشْرِكُونَ

***«Allah istədiyini yaradar, istədiyini seçər, yaradılanın, seçilənin seçməyə haqqı yoxdur».***[1] Ayəyi-kərimısinə görə Allah-təala bəndələrindən istədiyini seçər, Peyğəmbər göndərər, onu möcüzə ilə qüvvətləndirər. İmamət üçün də istədiyini seçər və nəss ilə peyğəmbərlərinə, onu özündən sonra insanlara imam nəsb etməsini əmr edər. Özündən sonra şəriyətinə görə hökm etməsi üçün onu ümmətə bildirməsini buyurar. O da Allahın verdiyi qabilyətlə həmin vəzifəni icra edər. Peyğəmbər Allah buyurduglarını təbliğ edər. İmamin təbliği isə Peygəmbərin təbliğ etdiyi şeylərdir və onları yerinə yetrməkdir. Çünki imama, Peyğəmbərə gəldiyi kimi vəhy gəlməz. İmamət on iki şəxsə aiddir və hər imam özündən sonrakı imamı nişan verir. İmamında Peyğəmbər kimi xətadan, günahdan məsum olması şərtdir. Əks halda ona güvənmək olmaz. Allah təbarəkə və təala İbrahimə (ə)

وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ

***«Mən səni insanlara imam edəcəyəm» dedi. İbrahim, nəslimidə imam et dedi. Allah dedi «Mənim əhtimə, zalımlar nail olmazlar».***[2] Bu ayəyi-kərimədə imamın məsum olduğu açıqca bəyan edilmişdir. Eyni zamanda imamın xalqın ən üstünü, hər cür elmdə ən bilikli olması da şərtdir. Çünki vücudundan məqsəd insanları yetişdirmək, nəfslərini tər-təmiz bir hala gətirmək və onları elmlə, təmiz və yaxşı əməllə yaxşı və təmiz bir hala gətirməkdir.

هُوَ الَّذِي بَعَثَ فِي الأُمِّيِّيـــــــــــنَ رَسُولاً مِنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِنْ كَانُوا مِنْ قَبْلُ لَفِي ضَلاَلٍ مُبِينٍ

[1] «Qəsəs» surəsi, ayə 68.
[2] «Bəqərə» surəsi, ayə 124.

***«Cavadsız kimsələrin [dini, kitab olmayan bütpərəstlərin] içindən seçib onlara bir Peyğəmbər gondərən Odur. O, Allahın ayələrini oxuyar, onları paklığa çağırar. Kitabı və hikməti öyrədər onlara, bu Peyğəmbər».***[1] İmam da peyğəmbərin vəkili, naibi, şəriətin qoruyucusu, ümmətin müqəddəsi və Allahın secdiyi şəxsdir. Özündə nöqsan olan insanları kamilliyə çağıra bilməz. İmam kamillik baxımından peyğəmbərlərdən sonra insanlardan ən üstünüdür. Bu əsasa görə imamətə inanan şəxs əsil mömindir. Qalan dörd rüknə inananlar isə ümumi olaraq müslim və mömindirlər. Onların haqqında da islam hökmlərinin hamısı caridir. Malı, irzi, canı haramdır. Hüzurunda, yaxus özü yox ikən hörməti qorunması vacibdir. İmamətə inanmamaqdan ötrü Allah qorusun, ona heç bir surətlə qərəz bəslənməz. Haqqında pis söz söylənməz. Pis düşüncəyə düşülməz. İmamətə inanan axirətdə mükafatını görər. Fəqət dünyada bütün insanlar birdir, bir-birinə bərabərdir, qardaşdır. Axirətdə, əlbəttə, dərəcələri baxımından Allaha dərgahındakı mərtəbələrində ayrılıq və üstünlük olcaqdır. Bunu yalnız Allah bilir. Bu barədə heç bir kimsə şey söyləyə bilməz.

Şiənin digər müsəlman məzhəblərindən seçildiyi ən əhəmiyyətli mahiyyət on iki imamın imamətini təsdiq etməkdir. Buna görə də bu məzhəb «imamiyyə» və «isna-əşəriyyə» yəni imamətə və on iki imama inananlar adları ilə yad olunur.

Bundan əlavə şiə sözü Zeydiyyə və İsmailiyəyə və şiəliyi qəbul edən digər firqələrə də deyilir. Hətta islam hüdudlarını aşan Xəttabiyyə və buna bənzər mülhidlər də özlərini şiə saydıqlarından belə firqələrin sayı yüzü aşır.

Fəqət bu gün şiə deyildikdə əhli-sünnətdən sonra islamın əsasını təşkil edən və şiənin fərdi-kamili olan imamiyyə (isna-əşəriyyə Cəfəriyyə) yada düşür.

---

[1] «Çumə» surəsi, ayə 2

İmamların on iki nəfərdən ibarət olması da məlum bir şeydir. İslam əhalinin səhih hədis kitablarında, məsələn Buxarinin «Cəmüs-səhih»ində və sairədə aydın yollarla səhih sənədlərlə Həzrət Peyğəmbərin (s): **«Bu iş on iki xəlifə ilə tamamlanır, hamısı da Qüreyşdəndir»** buyurduğu rəvayət edilmişdir və bu mənada bir sıra hədislər də vardır.

Əhli-sünnət də xilafətin Həzrət Peyğəmbərdən (s) sonra otuz il sürəcəyi haqqında bir hədis rəvayət etmişdir. Bunlar da otuz ildən sonra zalım padşahlar dövrünün başlayacağı bildirilmişdir. Burada biz on iki imamın imamətləri haqqında dəlil irad etmək fikrində deyilik. Şiə inanclarının təməllərini hökümlərinin əsaslarını çox qısa, fəqət mötəbər olaraq bildirmək fikrindəyik.

Təkrar edirəm ki, din elm və əməldən meydana gəlir, dini vəzifələr də əqlə və bədənə aiddir. Bədənə aid vəzifələr iki yolla inkişaf edir ki, aşağıda bunlar haqqında məlumat verəcəyik.

Birinci və əqli vəzifələr inanca aiddir. İndi bunları izah etməyə başlayaq.

# TÖVHİD

İmamiyəyə görə, ağıllı şəxsə yaradanını bilmək, tanımaq üluhiyyətində bir olduğuna, rəbb olduğuna, şəriki, bənzəri olmadığına, yaratmaq, ruzi vermək, öldürmək, diriltmək, yoxdan var etmək, varı yox etmək kimi işləri şəriksiz etdiyinə inanmaq gərəkdir ki, bu inanc ağıllı kişinin ağlının da hökm edəcəyi bir inancdır. İmamiyyə varlıq aləmində Allahdan başqa bir müəssir olmadığına inanır və və ruzi vermək, yaratmaq, öldütmək, diriltmək kimi bir işi Allahdan qeyrisinin eləyə biləcəyini söyləyən şəxsin kafir və müşrik olduğunu, müsəlmanlıqdan kənar olduğunu hökm edir. Taət və ibadətin öz doğruluğu ilə yalnız Allaha olması lazımdır. Allahla bərabər bir başqa varlığa ibadət edən edən şəxs, yaxud ondan başqasına tapınan, yaxud ona mənən yaxınlaşa bilməsi üçün qeyri bir varlığa inam bəsləyən, həm də ibadət edən şəxs kafirdir. İbadət ancaq bir olan, şəriki olmayan Allahadır. Peyğəmbərlərin, imamların Allahdan təbliğ etdikləri şeylərə itaət eləmək gərəkdir. Fəqət onlara Allaha ibadət edirəm deyə ibadət edilməz. Belə bir şeyə yönəlmək şeytanın hiyləsinə, məkrinə uğramaqdan doğar. Lakin onlarla xoşbəxtlənmək, Allah dərgahındakı yüksəkliklərə ucalaraq Allaha təvəssül etmək mərqədləri yanında Allaha ibadət etmək caizdir. Fəqət bütün bunlar, haşa, onlara ibadət etmək demək deyildir. Allaha qulluqdur. Ona ibadətdir. Çünki onlara namaz qılmaqla qəbirləri yanında Allaha namaz qilmaq arasında fərq vardır.

فِي بُيُوتٍ أَذِنَ اللهُ أَنْ تُرْفَعَ وَيُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَالآصَالِ

***«Allah tanrı evləri olan məscidlərədə, adının ucaldıması və anılmasına icazə vermişdir».***[1] İmamiyyənin Tövhid haqqındakı inancı və hamısının da birləşdiyi inanc, müxtəsər olaraq anlatdığımız bu inancdır, bu etiqaddır. Hətta imamiyyə Tövhiddə daha da irəli gedir. Tövhidin Tövhidi-zatı, Tövhidi-sifatı, Tövhidi-feli kimi qismləri də var ki, sözü uzatmaq üçün bunlar bəhs etmirik.[2]

---

[1] «Nur» surəsi, ayə 36.

[2] **Tövhidi-zatı** Allah-Təalanın bir olub şəriki, naziri, vəkili, vəziri olmamasına inamaqdır. **Tövhidi-sifatı** sifatlarının zatından ayrı bulunmadığına inanmaqdır. **Sifati-sübutiyə** səkkizdir: **1.** Hər şeyə gücü yetər; ixtiyarı ilə qadirdir; məcbur olaraq deyil və aciz olmaz. **2.** Hər şeyi künhü ilə bilir. **3.** Həyyidir: həyatı daimidir, fəqət ruh ilə deyil. **4.** İradə sahibidir: yaxşılığı istəyəndir, pisliyi xoş gərməz. **5.** Eşidir, görür: qulaq və gözlə yox: zatı bilgiləri ilə **6.** Ondan əvvəl yoxdur, qədimdir; varlığından öncə yoxluq təsəvvür edilməz; sonuna son yox, baqi və əzəldir. **7.** Mütəkəllimdir; dillə yox; kəlam yaradandır. **8.** Sadiqdir: vədindən dönməz; gizb ona caiz deyil.

Allahda bu sifətlər yoxdur. Bunlar **səlbi sifərlər** də deyilir: **1)** Mürəkkəb deyil; **2)** Cism deyildir; **3)** Sifatları hadis deyildir, təcəddüd etməz; **4)** Gözlə görünməz; **5)** Şəriki və bənzəri yoxdur; **6)** Heç kəsə möhtac deyil; **7)** Sifatları zatına uyğundur.

**Tövhidi-feli** yaratmaq, yaşatmaq, öldürmək, diriltmək kimi işlərin ancaq onun tərəfindən edildiyinə və əfalında şəriki, yardımçısı, iradəsinə cəbr edən bulunmadığına inanmaqdır. **Tövhidi-ibadətin** ancaq ona məxsusluğuna ona edilə biləcəyinə, ondan başqasına ibadət caiz olmadığına inanmaqdır.

# NÜBUVVƏT

Şiəyi-imamiyyə Qurani-Kərimin bildirdiyi kimi, bütün peyğəmbərlərin Allah tərəfindən göndərmiş, dərəcələri ucaldılmış, nübuvvətə məzhər edilmiş, mələk vasitəsi ilə gələn, vəhy edilən Allah əmrlərini qullara təbliğ vəzifəsi ilə vəzifələndirilmiş bəndələr olduğuna inanmaqdır. Allah onları xalqı həqiqətə dəvət etmək üçün göndərmişdir. Mühəmməd (s) peyğəmbərlərin sonuncusudur. Şəriət sahibi olan üstünlərin ən üstünü, xalqın ən xeyirlisi və ucasıdır. Xətadan, yanılmaqdan məzurdur. Bütün ömründə Allah onun mübarək ruhunu bədənindən xaric edənə qədər hər işini ancaq Allah rizasına uyğun görmüşdür. Günah işlətmişdir. Allah onu gecə ikən Məscidi-Həramdan Məscidi-Əqsaya aparmış, sonra mübarək cismi ilə ərşin kürsünün ucalarına ucaltmış, ona hicabları açmışdır. O da mənən rəbbinə yaxınlaşmış, yaxınlaşdırılmışdır. Müsəlmanların əlində olan kitab – Qurani-Məcid Allahın möcüzə olaraq insanlara öz hökmlərini bildirmək, halalla haramı ayırd eləmək üçün endirdiyi kitabdır. Onun mislini heç bir fərd yaza bilməz. Onda bir nöqsan, bir dəyişiklik, bir artıqlıq yoxdur. İmamiyyə bu inancda müttəfiqdir. Əgər biri çıxıb Quranda bir nöqsan olduğunu, dəyişiklik olduğunu söylərsə xəta edər, çünki o ulu kitabda buyrulur:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

***«Həqiqətən də biz endirdik zikri və həqiqətən də onu qoruyan bizik».***[1]

Bizim yaxud başqaların yollarından gələn və Quranın nöqsan olduğuna bəzi yerlərin dəyişdirildiyinə dair xəbərlər

[1] «Hicr» surəsi, ayə 9.

zəifdir. Xəbəri-əhəd elmi ifadə etmədiyi kimi onunla əməl də edilməz, ancaq təvil oluna bilər.[1] Bütün imamiyyə Mühəmməd (s) sonra birisinin peygəmbərliyinə inananın və yaxud özünə vəhy gəldiyini, kitab endirildiyini söyləyənin küfrünə hökm edilər, qətlini vacib bilər.

---

[1] **Xəbəri-əhəd** tək şəxsin xəbərləri mənasına uyğundur. Bir hədisi tək bir həfər rəvayət edirsə, o ravinin doğru və yalan söyləməyi adət edilib edilməməsi, bir mənfəət gözləyib gözləməməsi, zəkasının, əqli məlakəsinin yaxşı olub olmaması, xəbəri şəxsən özü eşidib eşidməməsi, o işi görüb görməməsi hafizə qüdrətinin dərəcəsi kimi xüsusların aranması lazımdır. Fiqhdə bir şeyin sübutu üçün iki adil şəxsin şəhadəti vacibdir. Eyni zamanda yuxarıda anladılan şübhələrin həlli də mümkün ola bilməz. Buna görə də xəbəri-əhəd heç vaxt həqiqəti ifadə edə bilmir.

# İMAMƏT

İmamiyyə digər islam məzhəblərindən bu inancla ayrılır. İmamətə inanmaq imamiyyənin üsulundandır. Bundan başqa fərqlər fürua aiddir və bütün müctəhidlərdə görülub. Bu, Hənəfi ilə Şafei və sair məzhəb ərbabları arasındakı fərqlər kimidir. İmamiyyə imaməti Allah tərəfindən verilən bir məqam olaraq qəbul edir. Allah qullarına nəsib olmayan elmi ilə Peyğəmbəri onların arasından necə seçmişdisə ona itaət etməyi necə vacib bilmişsə, Peyğəmbərinə də Həzrət Əli (ə)-ın imamətini ümmətinə bildirməsini özündən sonra onun imam olacaqını təbliğ eləməsini əmr etmişdir. İnsanlar bu günə qədər necə iman və yəqində bir deyillərsə, o gün də bir olmadıqlarından Həzrət Peyğəmbər bu işin ümmətə ağır gələcəyinin, əmisi oğlu və yeznəsinin sevdiyindən bu işi etdiyini düşünmüş, buna görədə Allah sübhanəhu və təala

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ  وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ  وَاللهُ يَعْصِمُكَ مِنَ النَّاسِ  إِنَّ اللهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

***«Ey Peyğəmbər, sənə rəbbindən endirilən əmri bildir. Əgər bunu etməsən onun elçiliyini etməmiş olursan» deyə vəhy göndərmiş».***[1] Həzrət Peyğəmbər (s) isə bu əmrə görə son həcci olduğu üçün Vida həccindən dönərkən Qədiri-Xumda əshaba bir xütbə oxuyub soruşdu: **«Mən möminlərə nəfəslərindən irəli deyildimi?»** Onlar **«Bəli»** deyərək təsdiq edərkən **«Mən kimin mövlasıyamsa, vəliyul-əmriyəmsə bu Əli də onun vəliyul-əmri, imamıdır»** deyə Allahın əmrini Əshaba çatdırmışdı. Başqa yerlərdə də eyham və işarələrlə, yaxud açıqca bunu təkid etmiş, Allahın əmrini yerinə yetirmişdir. Fəqət müsəlmanların

[1] «Maidə» surəsi, ayə 67.

böyükləri Həzrət Peyğəmbərdən sonra bu vəsiyyətləri öz ictihadlarına görə təvil etmişlər. Həzrət Əli (ə) və səhabənin böyüklərindən bir dəstə əvvəlcə ümmətin seçdiyi xəlifəyə beyətdən çəkinmişlər, fəqət sonradan bu xüsusda israrın islama böyük zərərlər verəcəyini anlayıb bundan vaz keçmişlər. Məlumdur ki, Əmirəl-möminin Əlinin nəzərində islam öz canından və nəfsinə aid hər şeydən daha əziz idi. Qəzvələrdə onun islam üçün canını necə fəda etdiyi hamıya məlumdur. Xəlifəyə uyması da bu səbəbdən idi. Fəqət o bunu islamın səlahı üçün münasib görməklə bərabər Allah tərəfindən verilmiş bir məqam olan imamət onun idi və Allahın verdiyi o məqam ondan alınmazdı. Fəqət xilafət özünə yetişərkən Müaviyənin vali olaraq müsəlmanların başında qalmasından, müsəlmanlara əmr etməsindən, hökm verməsindən dinə böyük bir zərər deyəcəyini görmüş, onunla razılaşmayıb savaşa girmişdi.

İmamiyyəyə görə, biz Allahın şiəsiyik, yəni tərəfdarıyıq, ona uyanlarıq, onunla uzlaşanlara uzlaşmışıq. Onunla mübarizə edənlərlə vuruşmadayıq. Onu sevənə dostuq, düşmənləri ilə düşmənik. Bu da Həzrəti Peyğəmbərin (s) **«Allahım onu sevəni sev, ona düşmən olana düşmən ol»** əmrinə uymaqdan başqa bir şey deyildir. Əlnin və övladını sevməyimiz Həzrət Peyğəmbəri sevməyimizdir. Ona itaət etməyimizdir.

Bunları izah etmək məqsədimiz kənarında olduğundan biz yenə imamiyyə haqqındakı sözümüzə qayıdırıq. Qeyd edək ki, imamiyyə təbarəkə və təalanın yer üzündəki bəndələrini hüccət olan bir nəbi yaxud vəsisiz buraxmadığına inanmaqdır. Bu vəsi istər özünü nişan versin, istər nişan verməsin, gizlənsin. Həzrət Peyğəmbər (s) Əlinin imamətini, Həzrət Əli oğlu Həsənin, o da qardaşı Hüseyni vəsi olduğunu bildirmiş, beləcə on ikinci imam olan və zuhuru gözlənilən Mehdiyədək hamısı vəsi olaraq elan olunmuşdur. Bu Adəm (ə)-dan sonuncu Peyğəmbər olan Həzrəti

Mühəmmədə qədər bütün peyğəmbərlərdə cari olan sünnətlərdir. Vəsiliyin isbatı xüsusunda din alimlərinin böyüklərindən, sədri-əvvəldən hicri dördüncü yüz ilə qədər bu xüsusda kitab yazanları göstərək:

Hişam ibn Həkəmin, Hüseyn ibn Səidin, Həkəm ibn Misqitin, Əli ibn Hüseyn ibn Fəzlin, İbrahim ibn Məhəmməd ibn Səid ibn Hilalın, «Əlməhasin» sahibi Əhməd ibn Məhəmməd ibn Bərqinin, böyük müvərrih Əbdüləziz ibn Yəhyayi Cəludinin «Vəsayətə» aid kitabları vardır. Bunların çoxu birinci və ikinci hicri əsərinin adamlarıdır. Üçüncü əsrdə də vəsilikdən bəhs edən bir sıra alimlər yaşamışlar. Əli ibn Riad, Yəhya ibn Müstəbad, Mühəmməd ibn Əhmədis-Səbuni vəsilik haqqında kitablar yazmışlar. Məhəmməd ibn Fərruxun «Kitabül-vəsiyətü və imamə»si qədri uca müdəqqiq, müvərrih «Mürucüz-zəhər» sahibi Əli ibn Hüseynil-Məsudinin Seyyüdüt-Tayifə Məhəmməd ibn Tusinin, dördüncü əsrdən sonra Musa ibn Həsən bəni-Amirin təkif etdiyi vəsiliyə aid kirabları mövcuddur. Məsudi «İsvatül-vəsiyə» adlı məşhur kitabında hər peyğəmbərin on iki vəsisi olduğunu bildirir - və onların adlarını da göstərir. Əlavə olaraq tərcümeyi-hallarını da yazır. On iki imam haqqında da bəzi təfsilata varan bu kitab İranda nəşr olunmuşdur. Alimlərin imamət haqqında tərtib etdikləri bu xüsusda əqli və nəqli dəlilləri bildirdikləri kitablardan bir qismi bunlardır. Biz bu xüsusda artıq danışmağı lazım bilmədik.

Müsəlman firqələrinin və başqalarının imamiyyənin Mehdi haqqındakı inancını qınaması, bu inancı inkar etmələri məlumdur. Heç bir nişanəsi görünməyən, ortada qeybə çəkilmiş imamın varlığı şübhəyə əsas olmuşdur. İnkarçıların sözləri iki əsasa dayanır. Birincisi min il keçdiyi halda imamın hələ də yaşamasıdır. Bunlar bu inkarda olarkən Nuh (ə)-ın ömrünü unutmuşa bənzəyir. Halbuki, Qurani-Kərimin ayələrində açıq-

aydın bildirildiyinə görə Nuh (ə) öz qövmü arasında ***«Min ildən əlli il əskik bir müddət qaldı»*** ayəsi vardır.[1] Hətta bu peyğəmbərin min altı yüz, üç min il ömrü olmasını söyləyənlər olduğu kimi, hədis alimləri Nuh peyğəmbərdən daha çox uzun ömür olanların yaşadığını da qeyd etmişlər. «Təhzibül-əsma»da Xızırın həyatı və peyğəmbərliyi haqqındakı ixtilaflar anladıldığından sonra alimlərin çoxunun onun həyatda olduğunu və peyğəmbər bulunduğunu söylədikləri sufilərlə təmiz şəxslərin elm ərbabının bu xüsusdakı ittifaqı, onu görənlərin, onunla görüşənlərin olduğu bir sıra dəlillərlə anladılır. Ondan elm öyrənənlər suallarına cavab alanlar bildirirlər ki, bunlar izah edilməklə bitməz, söyləyəcəyimiz də məşhur və məlumdur.

Şeyx Əbu Əmir ibn Səlam alim və salih şəxslərin hüzurunda Xızırın diri olduğuna dair fətvalar vermiş, bəzi mühəddislərin bunu inkar etdiklərini söyləmişdir. Bir başqa yerdə də o və Zəməxşəri «Rəbiyül-əbrar»da müsəlmanların dörd peyğəmbərin diri olduğuna müttəfiq çıxdıqlarını, bunlardan İdris ilə İsanın göydə, İlyas ilə Xızırın üzərində olduğunu söyləmişlər. Məlumdur ki, Xızır peyğəmbərlər babası İbrahimin zamanında doğulmuşdur. Yüzlərlə il təbii ömrü ilə yaşayanlar çoxdur ki, Seyyid Mürtəza «Əmali» əsərində bunların bir qismini xatırladır. Səduq kimi başqaları da bunları zikr etməkdədir. Əsrimizdə belə yüz iyirmi ilə qədər yaşayanları bundan daha az, yaxud daha çox ömür sürənləri görmüşük. Bir gün yaşadan bundan daha az, yaxud daha çox minlərcə illər də yaşada bilər. Əsasən bu fövqaladə bir şeydir və peyğəmbərlərlə övliyanın fövqaladə şeylərə məzhər olmaları təəccüblü bir şey deyildir. Hətta Qərb alimlərinin çoxu dünyada əbədi yaşamanın imkanını belə söyləmişlər. Burada uzun-uzadı bəhslərə girib bunu təhqiq

[1] «Məryəm» surəsi, ayə 14.

etmək mümkünsə də mövzumuz və kitabımız buna müsaidə vermir.

İkincisi, özü mövcud deyilsə, varlığının nə hikməti var? Ondan faydalanmadıqca varlığı yoxluq kimi deyildirmi? Fəqət bu sualı soruşanlar rəbbin bundakı hikmətini ilahi məsalihini, yaradılış və yaradış sirlərini, təşri hökmlərin hikmətlərini bilmirlərmi? Neçə şeylər var ki, hələ də hikməti bilinmir. Həcəri-Əsvəd zərəri toxynmayan, faydası görünməyən bir daş ikən öpülməsindəki hikmət nədir? Nədən axşam namazı üç rükət, xiftən namazı dörd, sübh namazı iki rükətdir. Bunlara bənzər daha neçə şeylər var ki, Allahu-Təala mənən özünə yaxın olan mələklərə, şəriət sahibi peyğəmbərə belə bildirmişdir:

إِنَّ اللهَّ عِنْدَهُ عِلْمُ السَّاعَةِ وَيُنَزِّلُ الْغَيْثَ وَيَعْلَمُ مَا فِي الأَرْحَامِ وَمَا تَدْرِي نَفْسٌ مَاذَا تَكْسِبُ غَدًا وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ إِنَّ اللهَّ عَلِيمٌ خَبِيرٌ

***«Qiyamətin qopacağı zaman yağmurun yağacağı an»***[1] və sair.

Hikmətini bilmədiyimiz bəzi şeylər var ki, bizdən gizlənmişdir: İsmi-əzəm, Qədr gecəsi, İcabat saatı və s. Allahın, bizcə, hikməti bilinməyən bir şeyi etməsi və ya bir hökmü verməsi təəccüblü deyildir. İş bynyn vuquunda və kerçək olmasındadır. Peyğəmbərin və məsum vəsilərin xəbər verdikləri şeyə inanmağımız gərəkdir. Hikmətindən, səbəbindən bəhs etməyimiz lazım deyil. Ancaq Mehdi haqqında Həzrət Peyğəmbərdən (s) gələn hədislər iki tərəfdən də, yəni şiələr və əhli-sünnət tərəfindən gəlmişdir. Hikmətini bilmədiyimiz halda təsdiq etmək məcburiyyətindəyik. Əsasən bu xüsusi təfsil üçün bu müxtəsər kitab kifayət eləməz. İmamət haqqında və hər əsrdə bir imamın olduğu, yer üzünün hüccətdən xali qalmayacağı barədə inancımız var və budur. Onun varlığı lütf olduğu kimi,

---

[1] «Loğman» surəsi, ayə 34.

təsərrüfü də bir başqa lütfdür. Hikmətdən sorğu sorulmaz, buna dair dəlillər lap çoxdur. Fəqət Allah istəsə bu qədər də kifayətdir.

## ƏDALƏT

Ədalətdə məqsəd Allah-Təalanın heç bir kimsəyə zülm etməyəcəyinə və əqli-səlimin pis hesab etdiyi şeyi işləməyəcəyinə inanmaqdır. Bu əsas ayrı və başlı-başına bir əsas deyildir. Allahın camal və kamal sifatlarının hamısını hayiz olması etibarı ilə zatında və vəhdaniyyətində mövcuddur. Amma əşərilər, ədliyyəyə, yəni ədlə inanlara müxalifət etmiş, hüsn və qübhün, yəni gözəl və yaxşı işlərlə pis və yaramaz işin əqli olduğunu, ağılla anlaşılıb bilinəcəyini inkar etmişlər. Onların fikrincə, hüsn ancaq şəriətin hüsn olaraq qəbul etdiyi şey, qübh də ancaq şəriətin qübh olaraq qəbul etdiyi şeydir. Allah istəsə ona itaət edəni cəhənnəmə qoyar, üsyan edəni cənnətə. Bu pis bir şey olmaz. Çünki o mülkündə istədiyi kimi ixtiyar sahibidir.

لاَ يُسْأَلُ عَمَّا يَفْعَلُ وَهُمْ يُسْأَلُونَ

***«Elədiyi işə görə O sorğuya tutulmaz. Sorğuya tutulanlar onlar olar».***[1] Hətta onlar Allahın şənini, mərifəti və möcüzəni də əqli yolla deyil, şəri olaraq qəbul edirlər. Fəqət ədlə inananlara görə, bütün bu nəzəri şeylərdə hakim olan şey müstəqil olaraq ağıldır. Şəriət ancaq əqlin qəbul etdiyini təkid edir. Ağıl müstəqil olaraq bəzi şeylərin yaxşı və gözəl, bəzi şeylərin də çirkin və pis olduğuna hökm edər. Eyni zamanda Allahın pis şeyi hökm etməsi də mümkün deyil. Çünki hakimdir. Hökmündə hikmət və nisbət vardır. Zülm etmək isə pisdir.

مِثْلَ دَأْبِ قَوْمِ نُوحٍ وَعَادٍ وَثَمُودَ

---

[1] «Ənbiya» surəsi, ayə 23.

***«Allah bəndələrinə zülm iradə etməz»***[1];

وَمَا اللهُ يُرِيدُ ظُلْمًا لِلْعَالَمِينَ

***«... aləmlərə zülmü iradə etməz».***[2]

Pis şey etmək hikmətə zidd olduğu kimi, itaət edəni əzaba salmaq da zülmdür. Zülm isə pisdir deyərlər və ədl sifatını Allaha aid edərlər. Bu sifatı digər sifatlardan bilxassə ayırıb zikr edərlər. Beləcə əşairənin inancına müxalifətdə bulunarlar. Əşairə də Allah təbarəkə və təalanın adil olduğu inkar etməz, fəqət onların fikrincə ədalət Allahın işidir və onun hər etdiyi iş gözəldir. Buna görədir ki, onlar Mötəzilə və imamiyyənin əqlin hökmü, yaxşını və pisi, gözəli və çirkini anlayışı xüsusundakı rəylərini inkar edərlər. Əqlin bu yaxşı şeydir, bu da pis bir şeydir deyə hər hansı bir şeyə hökm etməsini qəbul etməzlər. Ədlə insanlar isə hüsnün və qübhün əqli olduğunu və əqlin hüsn və qübhə hökm edəcəyini qəbul edərlər. Lütfü və neməti verən Allaha şükrü vacib bilmədikləri kimi, möcüzənin də əqlən vacibliyinə inanırlar. Məsələnin ən çətinlərindən biri olan cəbr və ixtiyar məsələsi də buna əsaslanır. Əşairə cəbrə meylli ikən, mötəzilə insanın azad və muxtar olduğuna, diləyi ilə işlədiyinə, ancaq özünün varlığı Allah sübhanəhu və təaladan necədirsə, ixtiyar vəsfinin də ondan olduğuna inanır. Allah bəndəni yaratmış, ondakı ixtiyar vəsfini də xəlq etmişdir. Ancaq ixtiyar bütünlüklə Allahındır. Bədənin şəxsiyyətinə aid işlərdəki ixtiyar isə bədənin özünə aiddir və bəndədəndir. Allah bir bəndəyə bir işi zorla gördürmədiyi kimi, onu o işdən zorla da çəkindirməz. İstədiyini etməsinə ixtiyar vermişdir. Buna görə də ağıl baxımından bəndə şər işlərsə ona əzab verəcəyi, yaxşı bir işdə bulunarsa onu öyməsi, ona cavab verməsi doğrudur, yerindədir.

---

[1] «Gafir» surəsi, ayə 31

[2] «Ali-İmran» surəsi, ayə 108.

Belə olmadığı təqdirdə savab və əzabın batil olması, peyğəmbərləri göndərmənin, kitabları endirmənin vəd və vaidin faydasız və əbəs görünməsi meydana çıxır. Bu məsələni «Əd-dini vəl-islam» adlı kitabımızın son cüzündə ətraflı anlatmışıq. Burada sözü uzatmayacağıq. Xülasə olaraq onu deyə bilərik ki, imamiyyənin inancından və üsulundan biri də Allah sübhanəhu təalanın adil və qulun hür və muxtar olmuşdur.

## MƏAD

İmamiyyə digər müsəlman məzhəbləri kimi Allah sübhanəhu və təalanın insanları qiyamət günündə hesab və cəza üçün yenidən dirildəcəyinə inanır. Hər bir şəxs həmin gün öz bədəni və ruhu ilə diriləcək və hamı bir-birini görüb tanıyacaqdır. Bu təkrar dirilmə haqqında mübahisəyə luzum yoxdur.

İmamiyyə Quran və sünnətlə qəti olaraq sabit olan cənnətə, cəhənnəmə, bərzəxə, əzaba, mizana, Sirata, ərəfa və

هَٰذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً

***«Kiçik, böyük, bütün işlərimizi təsbit edildiyi kitaba»***[1], insanların xeyir, yaxud şər işlərinin müqabilində mükafat və ya cəza alacaqlarına,

فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ

***«Zərrə ağırlığında xeyir iş görənin o xeyrin, zərrə ağırlığında şər işləyənin isə o şərin əvəzini görəcəyinə»***[2] və Peyğəmbər (s) tərəfindən aydın vəhylə bildirilən bütün məad əhvalatına inanır.

---

[1] «Kəf» surəsi, ayə 49

[2] «Zəlzələ» surəsi, ayə 7.

Buraya qədər anlardıqlarımız əqlə, qəlbə və imana dair qisimlərdir ki, elm və inanca aiddir. İndi bədənin vəzifələrinə, yəni iman əsaslarına görə bədənimizlə edəcəyimiz əməllərin izahına keçirik.

***

İmamiyyə islam şəriəti hökmünə görə, müxtəlif (üzərinə borc düşən) olan şəxsin işlədiyi bütün işlərin Allah tərəfindən aşağıdakı beş hökmə bağlı olduğuna inanır: **vacib, haram, savab, məkruh, mübah.**

Mala, nigaha və sairəyə aid məsələlərin hamısı şəriət baxımından ya səhihdir, yaxud da fasih. Allah-Təala bütün hökmləri peyğəmbərin sonuncusu olan Həzrət Mühəmməd (s) vasitəsilə bildirmişdir. Bunlar Həzrət Peyğəmbərə vəhylə təbliğ olunmuşdur. O da bu vəhyləri insanlara, xüsusilə hər gün hüzurunda olan şəxslərə (səhabəsinə)

لِيَكُونَ الرَّسُولُ شَهِيدًا عَلَيْكُمْ وَتَكُونُوا شُهَدَاءَ عَلَى النَّاسِ

***«Rəsul sizə, siz də insanlara şahidlik eləyin»***[1] hökmünə görə çatdırmışdır. Nübuvvət dövründə meydana gəlməmiş, yaxud bəndələrə çatdırılması lazım bilinməyən hökmləri isə Həzrət Peyğəmbər (s) öz vəsilərinə və hər bir vəsi də özündən sonra gələnə dövründə lazım olan vaxt bildirmişlər. Həzrət Peyğəmbərin (s) zəmani-səadətində bildirilən hədislərin mənasını da səhabə öz anlayışları və qabiliyyətləri dairəsində ümmətə izah etmişlər. Məsələn, bir səhabə hər hansı bir hökmü bir cür, digəri başqa cür eşidib rəvayət etmişdir. Bu hökmlərdən birində mütləq bir xüsusiyyət vardır. Ravinin biri bu xüsusiyyətdən yan keçmiş, yaxud da nəql edən həmin hissəni

[1] «Həcc» surəsi, ayə 78.

unutmuş, nəticədə ziddiyyət ortalığa çıxmışdır ki, bu əslində yoxdur. Bu cür səhabələr üzündən Həzrət Peyğəmbərin (s) söylədiyi hədisləri, onun ifadələrindəki məqsədi öyrənməyə, tədqiq etməyə ehtiyac yaranmışdır.

Səhabələrin hər biri rəy və rəvayət əhlidir. Hamısı da eşitdiyi hədisin ləfzini nəql etməklə ravi və mühəddis sayıldığı kimi, rəvayətdən, yaxud rəvayətlərdən öz anlayışına görə hökm çıxarmaq sahəsində rəy və fitva sahibidir. Buna sahib olanlar isə müctəhiddirlər. Bu mərtəbəyə vara bilməyən müsəlmanlar müctəhidin rəyini təqlid etməli, onun rəyinə tabe olmalıdırlar. Həzrət Peyğəmbərin zamanından etibarən iş beləcə davam etmiş və müsəlmanların bir qismi hökm xüsusunda digər bir qismə tabe olmuşdur.

Yaxşı diqqət olunsa, ictihad qapısının hələ Peyğəmbər (s) zamanında və səhabələr arasında açıq olduğu göz qabağındadır. Yalnız əsri-səadətə yaxın olan dövrlərdə bu iş daha asan idi. Lakin zaman keçdikcə rəylər çoxalmış, ərəb olanlar ərəb olmayanlara qarışmış, sözlər mənasını dəyişməyə, sözə söz qatmaq, yalandan hədis uydurmaq baş alıb getmişdir. Bu xüsusda hökm vermək üçün dərin bilik sahibi olmaq, hədisləri cəm edib doğrusynu yalandan ayırmaq, birini digərindən üstün tutmaq lazımdır. Əsri-səadətdən uzaqlaşdıqca, islam yayıldıqca, alimlər və ravilər çoxaldıqca bu iş daha da güclənmişdir. Fəqət ictihad qapısının Həzrət Peyğəmbərin (s) zamanındakı kimi açıq olması bir zərurətdir. Bu xüsusda hökm çıxartmaq üçün bu çox vacibdir. İmamiyyə görə, ictihad qapısı bu günədək açıqdır. İnsanların bilikli və biliksiz olması, biliksizin bilikliyə müraciət etməsi təbiidir. İnsanlar şəri hökmlərdə ya alim və müctəhiddirlər, yaxud cahil və müqəlliddirlər. Avamların şəri təkliflərdə bir müctəhidə tabe olması vacibdir.

Müsəlmanlar şəri hökmlərin dəlillərinin kitab və sünnət, bunlardan sonra isə ağıl və icmada[1] müttəfiqdirdirlər. Bu sahədə imamiyyə ilə digər məzhəblər arasında ixtilaf yoxdur. Lakin imamiyyə qiyas məsələsində o biri məzhəblərdən ayrılır.

İmamiyyə qiyasa əməl etməz. Şiə imamlarından rəvayətlə gələn xəbərlərə (təvatür) görə «şəriətdə qiyasla əməl edilərsə din məhv olar». Qiyasla hərəkət etməyin pozuqluğu barədə mətləb çox uzundur.

İmamiyyə sünnətə, yəni Həzrət Peyğəmbərdən (s) rəvayətlərə yalnız o təqdirdə tabe olur ki, həmin rəvayətlər öz cədlərinin vasitəsilə söyləmiş olsun. Məsələn, Sadiq Baqirdən, o atası Zeynül-Abidindən, Zeynül-Abidin atası Hüseyndən, Hüseyn atası Həzrət Əlidən, Həzrət Əli Rəsulullahdan (s) rəvayət edirsə, bunu imamiyyə qəbul edir.

Əvvəldə qeyd etdiyimiz kimi, imamiyyəyə görə, ictihad qapısı həmişə açıqdır. Bu qapının bağlandığı iddia edənlərə rəğmən, yenə də açıqdır. Bundan başqa imamiyyə ilə o biri müsəlman məzhəbləri arasında heç bir fərq yoxdur. Mövcud fərqlər yalnız füruddindədir və əhli-sünnət alimləri arasında anlayışdan doğan fərqlər kimidir.

**Müctəhid** - dəlillərdən hökm çıxarmaqda xüsusi bacarıq sahibi olan şəxsdir. Lakin bu adamların onu təqlid etməsi üçün kifayət deyil. Bundan başqa digər şərtlər də lazımdır ki, onlardan ən əhəmiyyətlisi ədalətdir. **Ədalət** - günahlardan çəkinməyə, vacibləri yerinə yetirməyə yarayan bir amildir. Məsələn, igidliyi özünə peşə eləmiş bir şəxs qorxaq şəxsin əksinə olaraq çox asanlıqla döyüşə qoşula bilir. **Ədalət** - Allah qorxusuyla insanın bütün şəraitdə özünü nəzarət altına ala bilməsi qabiliyyətidir ki, bunun ən yüksək dərəcəsi imamda şərt olan ismət, yəni məsumluqdur. Bir də dini zəruriyyətə, məsələn orucun, namazın

---

[1] İslam alimlərinin bir mövzuda müttəfiq olması.

vacibliyinə və bunlara bənzər şeylərə təqlid və ictihad ola bilməz. Ona bütün dini mükəlləflər qeydsiz-şərtsiz inanmalıdırlar. Tövhid, Nübuvvət, Məad və s. kimi inanclarda təqlid yoxdur. Hər bir şəxsin bu saydıqlarımızda müxtəsər bir anlaşılmazlığı olsa, onları dəlillərlə bilməsi lazımdır. Çünki bunlar elmi təkliflər və inanca aid vacib olan şeylərdir. Bunlarda zənnə istinad eləmək doğru olmadığı kimi, başqalarını təqlid də caiz deyildir.

فَاعْلَمْ أَنَّهُ لَا إِلَٰهَ إِلاَّ اللهُ

***«Bil ki, Allahdan başqa Tanrı yoxdu».***[1] Füruiddində isə ictihad və təqlid lazımdır.

Şəri hökmlərin mövzusu mükəlləflərin, (boynuna dini borc düşənlərin) əməlidır. Bunları ictihad, yaxud təqlid yolu ilə bilmək lazım gəlir. Bilməyi və öyrənməyi tərk edən şəxs əzaba düçar olar.

Dini borclar bir neçə növdür. Bəndə ilə Allah arasında Allaha yaxınlıq üçün, Allah rizası üçün oruc və namazdır ki, bədənlə yerinə yetirilir. Bəndə ilə bəndələr arasında: alış-veriş və nigah kimi, burada iki tərəf iştirak edir; boşamaq və ya qul və cariyə azad etmək. Bunda bir tərəf iştirak edir; yemək, içmək, geyinmək. Bu isə bəndənin yalnız özünə məxsusdur.

Bütün bu hökmlərdən bəhs edən fiqh elmi förd fəslə ayrılır:

İbadətlər

Müamilələr

Edilən şeylər

Hökmlər

İbadətlərin təməli altıdır. Bunların ikisi bədənlə (oruc və namaz), ikisi yalnız malla (zəkat və xüms), ikisi də həm mal, həm bədənlə (həcc və cihad) yerinə yetirilir.

---

[1] «Muhəmməd» surəsi, ayə 19.

وَجَاهِدُوا بِأَمْوَالِكُمْ وَأَنْفُسِكُمْ فِي سَبِيلِ اللَّهِ

***«Allah yolunda malınızla, nəfsinizlə cihad edin».***[1] Kəffarələr isə onlara aid günahlar haqqındadır.

## NAMAZ

[1] «Tövbə» surəsi, ayə 41.

Cəfəri məzhəbinə və bütün müsəlmanlara görə, namaz dinin dirəyidir, bəndə ilə Allahın görüşməsidir, bəndənin Allahla görüşə bilməsi üçün nərdivandır, yəni bədənin, möminin meracıdır. Əhli-beytdən (ə) gələn xəbərlərdə deyilir: **«Ulular ulusu Allah təbarəkə və təala yanında bir, yaxud iki vacib namazı tərk edən müsəlmanla kafir arasında elə bir fərq yoxdur».** Çünki namazın islam şəriətində çox əhəmiyyətli bir yeri vardır və ibadətlərin heç birinə bənzəmir. Cəfəri məzhəbinə görə, camaat namazını tərk edən fasiqdir. Bu namaza əhəmiyyət verməyən şəxs isə islamdan həzz ala bilmir, amandan məhrumdur.

Vacib, yəni fərz namazlar islam şəriətində bunlardır: hər gün beş dəfə vacib namazlar, cümə namazı, fitr və qurban bayramının namazları, ayət namazı, təvaf namazı (hacılar üçün) nəzir, yaxud da vəfat etmiş bir şəxsin qəza namazı (əgər vəd edilibsə), haqqı ilə bir şəxsin öhdəyə alınmış namazı, meyyit adına qılınan və cənazə namazı. Qalan namazlar nafilədir. Nafilələrin isə ən əhəmiyyətlisi hər gün və hər gecə qılınanlardır ki, bu da vacib namazların yarısı deməkdir.

Gündəlik (yovmiyyə) vacib namazlar aşağıdakılardır:

Sübh namazı (iki rükət)

Zöhr namazı (dörd rükət)

Əsr namazı (dörd rükət)

Şam namazı (üç rükət)

Xiftən namazı (dörd rükət)

Bunların cəmi 17 rükətdir.

Gecə və gündüz qılınan nafilə namazlar 34 rükətdir. Vacib namazlarla birlikdə cəmi 51 rükətə bərabərdir.[1]

---

[1] Sübhün iki, zöhr və əsrin səkkiz nafiləsi vardır. Bunlar vacibdən əvvəl qılınır. Şam namazının bir rükət nafiləsi vacibdən sonra qılınır. Xiftən namazının bir rükəti ayaq üstə, yaxud iki rükəti oturaraq qılınan nafiləsi vardır ki, vacibdən sonra gəlir. Gecənin üçdə ikisi keçdikdən sonra səkkiz rikət nafiləsi, ondan sonra iki rükət şəf və bir rükət

Burada yadımıza bir hekayə düşdü: Rəğibi İsfahani dəyərli bir kitab olan «Əli mühədərat» əsərində yazır: «İsfahanda Əhməd ibn Əbdüləziz zamanında Qunani deyilən bir kişi varmış. Əhməd bu şəxsdən oxuyarkən bir gün Əhmədin anası Qunaniyə: oğlumu rafizi elədin, demişdi. Qinani, get, ağıllı qadın, -deyə cavab vermişdir. Rafizi dediyin kişilər hər gün əlli bir rükət namaz qılırlar. Sənin oğlun isə əlli bir gündə bir rükət də olsun namaz qılmır. O hara, rafizilik hara?

Nafilələrin hər gün qılınanlarından sonra ən əhəmiyyətlisi ramazan ayının nafilələridir ki, min rükətdir və hər gün qılınan nafilələrdən ayrıdır. Əhli-sünnət fikrincə nafilələrdə ramazan ayında təravih deyə məşhur olan və camaatla qılınması adət olunmuş namaz vardır. Fəqət şiələrdə nafilədə camaat məşhur deyildir. Camat yalnız vacib namazlarda olur.

Cümə və bayram nafilələri ilə digər vacib olan namazlara, səfərdə, yəni yolçuluqda dörd rükət olan namazların ikiyə enməsinə və nafilələrə aid məlumatlar minləri aşan imamiyyə kitablarında vardır. Ayrıca dualara, ədəblərə, zikrlərə aid də saysız-hesabsız qədər kitablar yazılmışdır.

Bizcə, namazın səhih olması üçün üç şey lazımdır. Bunlar birinci şərtlərdir və namazdan kənardır. Lakin bunlar olmasa namaz batil olar. Şərtlərin sayı altıdır: **Təharət, vaxt, üzü qibləyə durmaq, ayıb yerlərin örtülü olması, halal və təmiz libas geyinmək, niyyət.**

Məkan namazın rükünlərindən olmamaqla bərabər zəruridir. Namaz qılınan yerin mübah olması və səcdə yerinin paklığı şərtdir.

---

vətr deyilən namaz vardır. İki rükətdən çox olan nafilələrdən iki rükətdə bir salam verilir və iki-iki qılınır.

Ramazan ayında hər gecə şamla xiftən arasında səkkiz, xiftəndən sonra on iki rükət, iyirminci gecədən sonra xiftəndən sonrakı nafiləyə on rükət də əlavə edilməklə otuz rükət, on doqquzuncu, iyirmi birinci, iyirmi üçüncü gecələrdə bunlardan başqa yüz rükət nafilə vardır və yenə iki rükət də bir salam verilərək qılınır.

İkincisi, namazın cüzlərindəndir ki, namaz bunlardan meydana gəlib. Bunlar da iki növdür. Bir qismi rüköndür. Bunlar olmasa namaz batildir. Rükünlər dörddür: **Təkbürətül-ehram**, yəni Allahu-əkbər, **qiyam** (ayağa durmaq), **rüku**, **sücud**. Rükn olmayanlar isə **qiraət**, **rüku sücud təsbehləri**, **təşəhhüd** və **salamdan** ibarətdir. Bütün bunlarda hüzur və sükun şərtdir. Azan və iqamə, xüsusən iqamə oxumaq müstəhəbdir. İmkan və vaxt varsa, iqamət oxumaq vacibdir.

Üçüncü qisim isə namazı pozan şeylərdir. Bunlar da ikiyə ayrılır. Birinci qismi hədəs, qibləyə arxa çevirmək, namazın şəklini, surətini pozacaq bir iş görmək. İkinci qisim isə bilərək edildiyi təqdirdə namazı pozan şeylərdir: söz danışmaq, bərkdən gülmək, ağlamaq, sağa-sola dönmək, yemək və içmək.

Təharət qusl lazımsa qusl etmək, lazım deyilsə dəstəmaz almağa deyilir. Hər birini vacib edən səbəblər vardır. Su tapılmasa, yaxud xəstəlik, çox şiddətli soyuq, vaxtın daralması kimi bir halda ***«Təmiz torpaqla təməyyum edin».***[1] Ayeyi-kəriməsinin hökmünə görə dəstəmaz və quslun, yaxud birinin yerinə təməyyum edilir. Ayədə göstərilən sait kəlməsinin mənasına lüğət alimləri və fəqihlər müxtəlif hökmlər vermişlər. Buna torpaqdır, mütləq olaraq yer üzüdür, daşdır, qumdur, tozdur deyənlər olmuşdur. Namaza aid qısaca söyləyəcəyimiz bu qədər. Sozü uzatmağa lüzum yoxdur.

## ORUC

Cəfəriyyə məzhəbinə görə, oruç islam şəriətinin əsas ruknlərindən biridir. Oruc üç qismə ayrilir: **Vacib oruclar,**

---

[1] «Nisa» surəsi, 43.

**mustəhəbb oruçlar, naram oruçlar.** Vacib olan oruçlar iki qisimdir: əsil baxımından vacib olanlar və nər hansı səbəb üzündən vacib olan oruclar. Əslən vacib olan oruc Ramazan ayının orucudur. Bir səbəb üzündən vacib olan oruc isə qəza kəffarə və s. ilə əlaqədardır ki, bunların təfsilatı barədə fiqh kitablarında ətraflı məlumat var.

Müstənəb oruclar Rəcəb, Şəban və dikər mübarək aylarında tutulan oruclardır.

Haram oruclar qurban və fitr bayramlarında, habelə qurban bayramının ikinci və üçüncü günlərində tutulan oruclardır. Ərəfə günü, yəni Zilhiccə ayının doqquzuncu günü insanı dua etməkdən qoyursa, onu zikr etməyə gücü çatmayacaq qədər zəiflədirsə, həmin günün və Aşura gününün orucları məkruhdur.

İmamiyyənin saysız-hesabsız kitablarında orucun şərtləri, vaxtında oxunacaq duaları, orucun ədəbi və oruca maneçilik törədən şeylər əks olunmuşdur.

Şiələr Ramazan ayının orucuna çox yüksək əhəmiyyət verirlər.

Oruc da namaz kimi yalnız bədəni ibadətdir.

## ZƏKAT

Şiəlikdə ikinci əhəmiyyətli ibadət namazdan sonra zəkatdır. Ənmməyi-hüdadan (imamlardan) gələn bəzi rəvayətlərə görə

zəkat verməyənin namazı haqq dərgahında qəbul olunmaz. Bütün müsəlmanlarda olduğu kimi, şiələrdə də doqquz növ şeydən zəkat verilir. Bunlar aşağıdakılardan ibarətdir: **dəvə, öküz, qoyun, buğda, arpa, üzüm, xurma, qızıl və gümüş.** Ticarət malından, ətdən, mərcimək və s. kimi şeylərdən isə zəkat vermək müstəhəbdir. Zəkat verilməsinin qaydaları barədə fiqh kitablarında geniş məlumat verilmişdir. «Tövbə» surəsinin 60-cı ayeyi-kəriməsində buyurulur:

إِنَّمَا الصَّدَقَاتُ لِلْفُقَرَاءِ وَالْمَسَاكِينِ وَالْعَامِلِينَ عَلَيْهَا وَالْمُؤَلَّفَةِ قُلُوبُهُمْ وَفِي الرِّقَابِ وَالْغَارِمِينَ وَفِي سَبِيلِ اللهِ وَابْنَ السَّبِيلِ فَرِيضَةً مِنَ اللهِ وَاللهُ عَلِيمٌ حَكِيمٌ

***«Allahın hökmnə görə sədəqələr yalnız fəqirlərə, yazıqlara, sədəqələri toplayıb qeydə alan məmurlara, kölələrə, borclulara, Allah yolunda və yolçulara sərf edilər».***

## FİTR ZƏKATI (FİTRƏ)

Fitr zəkatı, yəni fitrə Ramazan ayının son gününün axşamı, bayram gecəsi günəş batana qədər, onu ödəməyə günü çatan hər bir müsəlman üçün vacibdir. Bu hətta o gün, o gecə doğulan uşaqa da aiddir. Fitrəni özü verə bilməyən şəxs kimin himayəsində yaşayırsa, onun fitrəsini həmin şəxs verməlidir.

Zəkat mal sədəqəsidirsə, fitrədə canın sədəqəsidir. Oruc fitrəni verəndən sonra qəbul olur. Fitrənin miqdarı hər adambaşına buğda, arpa, xurma kimi əşyaların hər hansı birindən təqribən üç kiloqram qədərindədir. Bunun əvəzi həmin əşyanın dəyərində pulla da ödənilə bilər.

## XUMS

Xums bizim fikrimizcə, yeddi şeydən verilir: **müharibə qənimətləri, dənizdən çıxan şeylər, dəfinə, mədən, qazancla əldə edilən iş, harama qarışmış olan mal, müsəlmanlardan zimmiyə, yəni müsəlman dövlətinə tabe olan, cizyə deyilən vergini verən Kitab əhlinin ixtiyarına keçmiş ərazi.**

Xüms aşağıdakı ayeyi-kəriməyə əsaslanır:

وَاعْلَمُوا أَنَّمَا غَنِمْتُمْ مِنْ شَيْءٍ فَأَنَّ للهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَىٰ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِنْ كُنْتُمْ آمَنْتُمْ بِاللهِ وَمَا أَنْزَلْنَا عَلَىٰ عَبْدِنَا يَوْمَ الْفُرْقَانِ يَوْمَ الْتَقَى الْجَمْعَانِ

***«Əgər Allaha və haqla batilin aşkara çıxdığı o iki dəstənin üz-üzə gəldiyi gün bəndəmiz Mühəmmədə nazil olan ayələrə iman gətirdiyimizsə, bilin, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Rəsuluna, Rəsulunun qohumlarına, yetimlərə, yoxsullara, yolçulara aid olar».***[1]

Xüms ali-Mühəmmədin haqqıdır. Allah sübhanəhu və təala mal və bədən sədəqəsi olan zəkat və fitrənin onlara haram buyurmuşdur.

Xüms altı yerə ayrılır. Bunlardan üçü Allaha, Rəsuluna və Rəsulunun qohumlarına aiddir. Bunlar İmam sağdırsa ona, sağ deyilsə onun naibi olan ədalət sahibi müctəhidə verilir və şəriətin, islam dininin qorunması üçün əhəmiyyətli sayılan dini işlərə sərf olunur, yoxsullara verilir. Digər hissə isə Bəni-Haşimdən olub fitrə və zəkat almaq haram edilmiş şəxdlərə paylanılır. Bu hökm Rəsulullah (s) dövründən bu günə qədər qüvvədədir. İmam Şafei (r) «Əl-Ümm» kitabının 69-cu səhifəsində yazır: «Ali-Mühəmmədə sədəqə əvəzinə xüms verilir. Az da olsa, çox da olsa onlara sədəqə verilməz. Onların bunu almaları isə haramdır».

---

[1] «Ənfal» surəsi, ayə 41.

Xümsun aradan götürdüyünü dair heç bir sənəd yoxdur. Lakin şairi imamiyyənin xilafına olaraq yazdığı kitabda belə bir söz söyləmişdir.

İrili-xırdalı fiqh kitablarında zəkatı kimi xümsə də yer verilmişdir. Hicrətin 224-cü ilində vəfat edən Əbu Übeydül Qasım ibn Səlam «Kitabul-əmval» adlı əsərində xüms haqqında ətraflı bəhs açmışdır. Burada xümsün kimlərə verilə biləcəyi və s. imamiyyədə uyğun şəkildə şərh olunmuşdur. Daha ətraflı məlumat üçün həmin kitabın 309-cu səhifəsində 349-cu səhifəyə qədər olan hissəsinə baxa bilərsiniz. Zəkat və xüms yalnız mal ilə olan ibadətlərdəndir. Həm bədən, həm də mal ilə olan ibadətlərə isə həcc və cihad aiddir.

## HƏCC

Şiəliyə görə, islamın ən böyük əsaslarından və ən mühüm dirəklərindən biri də həccdir. Bu vacibin tərk olunması Allah təbarəkə və təalanın hökmü ilə küfr həddinə qədərdir.[1]

Həcc mal və bədənlə yerinə yetirilən cihaddır, hətta mənəvi cihaddır. Cihad isə mənəvi həccdir. Yaxşı diqqət edilsə onların arasında bir birlik olduğunu anlaşılar.

Əqli başında olan, yetkinlik yaşına çatmış, yol üçün azuqə və mindiyi olan, sağlam bədənli bir şəxsin ömründə bir dəfə həccə getməsi vacibdir. Həcc haqqında «Bəqərə» surəsinin 196-cı və «Ali-İmran»ın 97-ci ayələrində Allahın hökmləri, buruqları sabitdir.

Əhli-sünnət alimlərinin həcc haqqındakı hökmləri çox az fərqlərlə imamiyyədə olduğu kimidir.

## CİHAD

[1] «Ali-İmran» surəsi, ayə 97.

Cihad islam binasının təməlidir. İslam onun sayəsində yayılmış və ucalmışdır. Cihad olmasaydı İslam aləmlərə rəhmət, xalqlara bərəkət halına gəlməzdi.

Cihad düşmənə qarşı, yer üzündəki zülm və fəsada qarşı, haqq üçün, gercək üçün canla, başla, mallar vuruşmaqdır.

Bizdə cihad iki qismdir: **cihadi-əkbər, cihadi-əsğər.**

Cihadı-əkbər insanın öz daxilindəki düşmənlə apardığı vurmuşdur ki, bunun adı nəfsdir, təkəbbürdür. İnsan ömrü boyu öz daxilindəki cəhalət, qorxaqlıq, zülmə düşmək, təkəbbür, həsəd, xəsislik, dikbaşlıq kimi yaramaz cəhətlərlə cihad etməlidir. **«Düşmənlərin ən qorxulusu nəfsdir»** buyurmuşdur.

Cihadi-əsğər isə haqqın, ədalətin, düzgünlüyün, fəziləti yolunda dinin düşmənləri ilə vuruşmaqdır. Nəfəs qarşı durmaq, onun pis cəhətlərini tərk etmək, adət edilmiş birliklərdən vaz keçmək daha ağır edilmiş pisliklərdən vaz keçmək daha ağır olduğundan Həzrət Peyğəmbər (s) bəzi hədislərində bu cihada cihadi-əkbər adı vermişdir. Özü və əshabın rizvanullahi əleyhim əcməin ömürləri boyu bu iki cihadla qarşılaşmış və nəticədə islam ən uca və üstün məqama gəlib çatmışdır.

## ƏMR BE MƏRUF, NƏHY ƏZ MÜNKƏR

Bu da həm şərdən, həm də əqlən ən əhəmiyyətli vaciblərdəndir və dinin istinad etdiyi əsaslardandır. İbadətlərin ən üstünlərindən və cihadın qapılarından biridir. Haqqa sərvətdir, doğru yolla getməkdir.

Əmr be məruf və nəhy əz münkər tərk edən ümməti Allah zəlalətə salar, onlara pislik libası geyindirər.

İslam şəriətinin sahibindən və məsum İmamlarımızdan (ə) bu əsaslara yapışmaq, bunları əldən vermək haqqında və bunlara əməl edilmədiyi təqdirdə şəxsin qarşılaşacağı pozğunluq və zərərlərə dair çoxlu hədislər varid olmuşdur.

Hər kim yaxşı işlərə dəvəti, pis əməllərdən çəkindirməyi tərk edərsə, pislik yaxşılığa, yaxşılıq pisliyə dönər.

ظَهَرَ الْفَسَادُ فِي الْبَرِّ وَالْبَحْرِ بِمَا كَسَبَتْ أَيْدِي النَّاسِ لِيُذِيقَهُمْ بَعْضَ الَّذِي عَمِلُوا لَعَلَّهُمْ يَرْجِعُونَ

***«Qazandıqları günahlar üzündən insanlara dənizdə, quruda bəla üz verər. Bəzi işlərinin əvəzini Allah onlara daddırar ki, bəlkə tövbə edələr, haqqa dönələr».***[1]

Bu ayənin hökmünə görə, Allah əmr bə məruf və nəhy əz münkər tərk edən şəxsə lənət edər.

Həqiqətən də islam dini siyasi, dini və mədəni qanunları və xoşbəxtliyi qovuşma səbəblərini nə qədər gözəl şəkildə cəmləmişdir. Bunları yerinə yetirmək üçün hər bir müsəlman böyük bir qüvvədir. «Hamınız cobansınız və hamınız məsuliyyət daşıyırsınız» buyurulmuşdur. Buna görə də hər bir şəxs müsəlman sərhədlərini qorumağa, yaxşılığı buyurmağa, pisliklərdən çəkindirməyə və bu buyuruqlarla hərəkət etməyə borcludur. Bu zaman bunun fayda və nəticələri ümumi olar ki, burada şərh etməyə ehtiyac duymuruq. Belə bir siyasət hansı dində var? İslamda həm bir insanın o birinə nəzarətçi olması,

[1] «Rum» surəsi, ayə 41.

onu qoruması, ən böyük və böyük olduğu qədər də ən incə və əsaslı bir fəlsəfədir və bu hansı dində mövcuddur?

İslamda hər hansı bir şəxsin boynuna üç borc düşür: öyrənmək, öyrəndiyinə əməl etmək və öyrətmək. Düşün və bu dinin buyurduqlarını anla. Bir də müsəlmanların bu günkü vəziyyətinə bax. La hələ və qüvvətə illa billah.

Bunlar imamiyyənin islam şəriətində uyğun olan əsas ibadətləridir ki, yalnız adlarını və əsllərini söyləməklə kifayətləndik.

## MÜAMİLAT

Bunlar ikitərəfli olur. Bir tərəfdən gərəklilik, o biri yandan qəbul şərtləri. Mühüm bir hissəsi mala aiddir və iki qismdir:

Lazım olan əqdlər satış, kirayə vermək, razılaşmaq, ödənc, borc kimi caiz əqdlərdir ki, bunlar çoxlu sayda müxtəlif fiqh kitablarında ətraflı dəlillərlə şərh olunub. Əshabımız (Allah onlardan razı olsun) bu müamilələrdənki hökmlərin heç birində, heç bir vəchlə, ibadətlərdə olduğu kimi, kitab və sünnətdə ayrılmadılar.

Şiəliyə görə, ticarətdə, icarədə, bir sənətdə, ziyarətdə, yaxud da bunlara bənzər hər hansı bir vasitə ilə mal qazanmaqda şəri yolla hərəkət etmək lazımdır. Qəsb, xəyanət, aldatmaq, hiylə kimi qeyri-şəri yollarla qazanc haramdır. Bu işdə müsəlman bir yana dursun, kafiri belə aldatmağın özü halal deyil.

Bundan əlavə ailə həyatına, nəslin törəməsinə əsaslanan əqd də var ki, bu da iki qisimdir:

1) **Daimi əqd.** Bu evlənməkdir. Qurani-Kərimin Nur surəsinin 32-ci sayəsində buyurulur:

وَأَنْكِحُوا الأَيَامَىٰ مِنْكُمْ

***«İçimizdəki ərsiz azad qadınları və arvadsız azad kişiləri, kölələrinizdən və cariyələrinizdən əməli düz olanları bir-biri ilə evləndirin».***

2) **Əqdi-inqita.** Bu müvəqqəti nigahdır. Birincidə bütün müsəlmanlar müttəfiqdir. İkinci nigahı-muta adlanır. Qurani-Kərimdə buyurulur:

وَالْمُحْصَنَاتُ مِنَ النِّسَاءِ إِلاَّ مَا مَلَكَتْ أَيْمَانُكُمْ كِتَابَ اللهِ عَلَيْكُمْ وَأُحِلَّ لَكُمْ مَا وَرَاءَ ذَلِكُمْ
أَنْ تَبْتَغُوا بِأَمْوَالِكُمْ مُحْصِنِينَ غَيْرَ مُسَافِحِينَ

***«Sahibi olduğunuz cariyələri çıxmaqla ərli qadınlarla evlənməyi Allah sizin üçün qadağan etmişdir. Başqaları ilə***

***evlənmək isə sizə halal bilinmişdir. Bu şərtlə ki, işləri gözləyəsiniz, əxlaqsızlığa yol verməyəsiniz...»***[1]

Bu cür nigahın hökmü ilə imamiyyə digər müsəlman məzhəblərindən ayrılır və iləl-əbəd onun bəqasına qail olur. Belə ayrılıq ümmət arasında səhabə dövründə başlayır.

Mütə, yəni müvəqqəti nigah Rəsulullah (s) tərəfindən qanuniləşdirilmişdir. Peyğəmbərin (s) vəfatından sonra Abdullah ibn Abbas, Cabir ibn Abdullah Ənsari, İmran ibn Hüseyn, İbn Məsud, Übeyy ibn Kəb kimi sıhabələr bu nigah icazə vermiş, bu işi mübah[2] saymışlar. Onlar hətta yuxarıdakı ayəni ***«Qadınlardan biri ilə müəyyən bir müddətədək evlənərək faydalandığını təqdirdə...»*** kimi oxumuşlar.

Bunu da qeyd edək ki, onlar ayənin bu cür oxumaqla heç bir təhrif yol verməmişlər. Məqsədləri ayənin təfsir etmək olmuşdur. Məsələn, İbn Cərir «Təfsiri-kəbir»ində İbn Abbasın ayənin bu cür oxuduğunu söyləyirdi də, rəvayət doğrudursa, Hibrül-ümmətin məqsədi, ayənin bu cür nazil olduğunu bildirmək deyil, təfsirini izah etməkdir.

Bu nigahın mübah ikən Həzrət Peyğəmbər (s) tərəfindən haram edildiyini söyləyənlər də vardır. Fəqət bu barədə ixtilaflara da mövcuddur. Bəziləri

إِذَا طَلَّقْتُمُ النِّسَاءَ فَطَلِّقُوهُنَّ لِعِدَّتِهِنَّ وَأَحْصُوا الْعِدَّةَ

***«Qadınlarınızı boşayacağınız zaman onları təmiz olduqları vaxt boşayın...»***[3] ayeyi-kərimısinə, bəziləri də

وَلَهُنَّ الرُّبُعُ مِمَّا تَرَكْتُمْ إِنْ لَمْ يَكُنْ لَكُمْ وَلَدٌ

---

[1] «Nisa» surəsi, ayə 24.
[2] İslam dininə görə nə savab, nə də günah olan işlər.
[3] «Təalaq» surəsi, ayə 1.

***«Uşaqlarımız yoxdursa, qadınınızın qalan mallarının yarısı sizindir...»***[1] ayəsi ilə müvəqqəti nigah nəsh edilmişdir, -deyirlər. Ancaq bu ayələrdə həmin hökmü nəsh edən heç bir bəyan yoxdur. Çünki bildirilən hökmlər daimi əqdə aiddir. Bəziləri isə

إِلاَّ عَلَى أَزْوَاجِهِمْ أَوْ مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَإِنَّهُمْ غَيْرُ مَلُومِينَ

***«Zövcələrinizdən və cariyələrinizdən savayı haram olan hamıdan...»***[2] ayəşinə və «haram olanları» bildirilən hökmlər, mənsuxdur, - demişlər. Bunlar çoxluq təşkil edir.

Alusi öz təfsirində bu ayəni dəlil gətirərək yazır ki, əqdi-daimi ilə alınan qadın haqqında şiə belə bir şey söyləyə bilməz. O, sözünə davam edərək, mütada (müvəqqəti nigahda) miras, iddə, təlaq və nəfəqə kimi və buna bənzər zövciyyə ləvazımının qalmadığını göstərir. Halbuki şəriətində kafir olan, qatil olan zövcə mirasdan məhrumdur. Mirasdan isə ancaq müddətin bitməsi ilə məhrum olur. İddəyə gəlincə, müvəqqəti nigah edilən qadının iddəsini gözləməsi, imamiyyədə görə, lazımdır. Mütəda təlaq isə müəyyən müddətin qadına bağışlanmasıdır. Eyni zamanda mütə ayəsinin bu ayələrlə haram edilməsi düzgün deyildir. Çünki muta ayəsi «Nisa» surəsindədir və Mədinədə nazil olmuşdur. O biri ayələr «Möminin» və «Məaric» surələrindən olub, hər iki Məkkə tənzillidir. Nasuxun mənsuxdən əvvəl nazil olması sübut edir ki, bu qeyri-mümkündür.

Əhli-sünnətin nüfuzlu alimlərindən bir qismi mütə ayəsinin mənsur olmadığına qaildir ki, bunlardan biri də Zəməxşəridir. O, «Kəşşaf» əsərində İbn Abbasdan bu ayənin möhkəm ayələrdən olduğunu rəvayət edir. Digərləri isə Həkəm ibn Uyaynadan mütə ayəsi mənsubdurmu? -deyə soruşduğu zaman, onun «xeyr», -

---

[1] «Nisa» surəsi, ayə 12
[2] «Möminin» surəsi, ayə 6

deyə cavab verdiyini nəql edirlər. Nəhayət, bir qrup bu ayəyə «mənsux», başqa bir qrup isə «məşru» demişdir. Buxari və Müslüm mütənın Həzrət Peyğəmbər (s) tərəfindən Məkkənin fəth edildiyi gün, yaxud Xəybərin fəthində və ya Əbtas qəzvəsində nəhy edildiyini söyləyirlər. Görünür ki, burada da ixtilaf və müxtəlif rəvayətlər vardır. Bəzi müəlliflər mütənin Vida həcci zamanı nəhy edildiyini bildirirlər.

Bütün bu rəvayətlərdən belə çıxır ki, mütə beş-altı dəfə mübah olunmuş, sonra nəsh edilmişdir. Nəvəvi və s. kimi müəlliflər də bunu söyləmişlər. Bu qədər ixtilafdan sonra nəshin dəyəri necədir?

Qeyd olunmalıdır ki, kitab xəbəti-əhəd ilə nəsh edilə bilməz. Rəvayətlərin çoxluğu və bir-birinə zidd olması da bunu göstərir. «Səhih Buxari»də Əbu Rica İbrahim ibn Hüseyndən rəvayət edir ki, o, demişdir: «Allahın dərgahında mütə ayəsi endi. Rəsulullah (s) mütəya amil olduq. Onun haram olmasına dair Quranda başqa bir ayə nazil olmadı. Rəsulullah vəfat edənədək onu nəhy etmədi. Bir şəxs onu öz rəyi ilə nəhy etdi. Bu şəxsin Ömər olduğu söylənilir. Cabir ibn Abdullah Ənsari ümrə gəlmişdi; evinə getdik. Bir çox adam ondan bəzi şeylər soruşdu. Sonra söz mütədan düşdü. Bu zaman Cabir buyurdu: «Bəli, Rəsulullahın (s) zamanında mütə ilə amil olduq. Əbubəkr və Ömərin zamanında da eləcə».

Elə həmin kitabın başqa bir yerində Çabırın dilindən belə bir rəvayət var: «Rəsulullahın (s) və Əbubəkirun zamanında bir ovuc xurma ilə, unla mütə edirdik Ömər onu nəhy edənə qədər belə idi».

Bir az sonra yenə həmin kitabda Əbu Nədrədən belə bir rəvayət nəql olunur: «Cabirin yanında idik. Bir nəfər gəldi və İbn Abbasla İbn Zübeyrin mütə barəsindəki ixtilaflarından söz açdı. Cabir onlara dedi ki, Rəsulullahın (s) zamanında mütəyi-

nisa və mütəyi-həcc ilə əməl edirdik. Sonra Ömər ikisini də nəhy etdi. Biz də bir daha bu işi görmədik».

«Səhih Müslim»in bu fəslində görünür ki, mütəni isbat və nəhy edən xəbərlər var. Cuhani deyir ki, Rəsulullah (s) bizə Məkkənin fəthi ilində mütənı buyurdu. Bu Məkkəyə girərkən oldu. Oradan çıxar-çıxmaz onu bizə nəhy etdi.

Burada nəhy Həzrət Rəsula (s), bir başqa yerdə Ömərə isnad olunur. Bir yandan da mütənin Əbubəkr zamanında işlədiyi qeyd olunur və Həzrət Əli (ə) İbn Abbası mütədən bəhs etməkdən mən etməsi söylənilir. Bununla bərabər bir cəhət də diqqəti cəlb etməkdədir. İbn Zübeyrin Məkkə əmirliyi dövründə onun İbn Abbası nəzərdə tutaraq söylədiyi aşağıdakı sözlərə diqqət yetirək: **«Allah bəzi kişilərin baş-gözlərini kor etdiyi kimi, bəsirət gözlərini də kor etmişdir. Onlar mütənin halal olduğuna fitva verirlər».** İbn Abbas isə ona: mütə İmamül-müttəqin (Həzrət Əli (ə) zamanında da işlənirdi», - deyə cavab vermişdi.

Bütün bunlardan daha təəccüblü şey budur ki, Əmirəl-möminin Həzrət Əlinin (ə) mütənı nəhy etdiyi rəvayət olunur. Mütə xüsusən Əhli-beytin qəbul etdiyi bir şüar idi. Təsadüfi deyil ki, Həzrət Əli (ə) buyurmuşdu: **«Əgər mütənı Ömər nəhy etməsəydi, çox pis kişilər zina edərdi».**

Təbəri bu rəvayəti bir az da geniş şəkildə ifadə edir. O yazır: **«Həzrət Əli (ə) buyurub ki, Ömər insanları mütədan nəhy etməsəydi, ancaq çox pis və öz ölümünə razı olan kişilər zina edərdi».**

Siğə haqqında rəvayət olunan və sənədlə təsdiq olunan xəbərlərin birində deyilir ki, İmam Cəfər Sadiq (ə) buyurub: **«Mən üç şeydə heç kimsədən çəkinmirəm: həcc mütəsi, qadınlarla mütə və məsh üstündən məsh çəkmək».**

Bu fənnin qaydasına görə, ən sağlam fikirlər yalnız höccət vasitəsilə meydana çıxarılmalıdır. Hər cür xəbərlər mütəşabihat

qəbilindən olur və onları tərk edib, Qurani-Kərimin hökmləri ilə hərəkət etmək lazımdır.

Bütün müsəlmanların fikrincə, mütənin məşru və ya mübah olduğunu hamı tərəfindən qəbul edilib sabitləşdikdən sonra nəsh edilib edilmədiyi haqqında xəbərlərdən ixtilaf olduğu zaman şübhəyə düşməyib nəsh edilmədiyinə qail olmaq gərəkdir.

Bunu bir az da aydınlaşdırmaq üçün aşağıdakı sözlərə diqqət yetirək:

Ömər öz xəlifəliyi dövründə mütənin bəzi qarışılıqlara səbəb olduğunu görmüş və bunu zamanın tələbinə uyğun olaraq öz rəyi əsasında mən etmişdi. Rəsulullahın (s) zamanında iki mütə vardı. Onun: «Mən bunları haram etdim, işləyənə cəza verəcəyəm», - deməsi sənədlərlə rəvayət olunmuşdur.

Görünür ki, Ömər: Rəsulullah (s) onları haram etdi, nəsh etdi. - dəmir. Bunun şəxsin öz nəfsinin öhdəsinə buraxır. Mütə edənləri Allah cəzalandırır, - dəmir. Mən cəzalandıraram, - deyir.

Əbu Həfəs dinin əsaslarına dərindən bələd olan bir adam idi. Şəriət hökmlərini tətbiq etməklə çox çiddi nüfuzu vardır. İslamiyyəti xalis, ağlı üstündə idi. Belə olduğu halda dində olmayan bir şeyi dinə necə daxil edirdi. Mühəmmədin (s) halalı qiyamətədək halal, haramı qiyamətədək haramdır, - hökmünü bildiyi halda bu işi necə edə bilərdi? Allah sübhənəhu və təal Qurani-Kərimin «Əl-haqqə» surəsinin 44-47-ci ayələrində buyurur:

وَلَوْ تَقَوَّلَ عَلَيْنَا بَعْضَ الأَقَاوِيلِلأَخَذْنَا مِنْهُ بِالْيَمِينِثُمَّ لَقَطَعْنَا مِنْهُ الْوَتِينَفَمَا مِنْكُمْ مِنْ أَحَدٍ عَنْهُ حَاجِزِينَ

***«Əgər o (Peyğəmbər) özündən bəzi sözlər uydurub Bizə isnad etsəydi, Biz ondan mütləq şiddətli intiqam alardıq! Sonra onun şah damarını qopardardıq! Və heç biriniz də (Bizim əzabımızı) ondan dəf edə bilməzdiniz».***

Burada anlaşılır ki, Ömərin məqsədi o dövrə aid bir şey imiş. Mədəni haram sayması isə zəminə və zamana görə imiş, dini bir məqsəd daşımırmış. Fəqət müasirlərinin bir qismi və ondan sonra gələnlər bu nöqtəni anlamadılar və mütənin Həzrət Peyğəmbər tərəfindən nəsh edildiyini iddia etməyə başladılar.

Müslim Cəbirdən rəvayət etdiyi hədis də göstərir ki, bu nəhy bir məsələ ilə bağlıdır. «İkmal»ın Müslim şərhində bu açıqlanmaqdadır. Rağibi İsfahani yuxarıda adını çəkdiyimiz əsərində müləni halal saydığı üçün Abdullah ibn Zübeyrin İbn Abbası məzəmmət etdiyini yazır. İbn Abbas isə ona: get, anandan soruş, - deyəndən sonra Abdullah ibn Zübeyr anasından bu barədə soruşmuş, qadın isə ona: sən özün də mütədən doğulmusam, cavab vermişdir. Kimdir Abdullah ibn Zübeyrin anası? Əbubəkirin qızı, Ayişənin bacısı Əsma. Əri isə Həzrət Peyğəmbərin (s) yardımçısı Zübeyr.

Rəğib bundan sonra yazır ki, bəsrəli bir qoça Yəhya ibn Əqsəmdən soruşanda ki, mütənin caiz olması barədə kimə iqtida etdin, onun cavabında Yəhya ibn Əqsəm: - «Ömərə iqtida etdim», - cavabını verdi. Bu necə oldu? – sualına isə belə cavab vermişdir: «Ömər dedi: «Ey insanlar, iki mütə var idi. Allah və Rəsulu (s) onları halal etmişdi. Mən onları sizə haram etdim. Kim mütəyə əməl etsə, onu cəzalandıracağam». Biz onun şəhadətini qəbu etdik, haram etməsini isə rədd etdik».

Mühəqqiq Mühəmməd ibn İdrisi Hillinin «Əs-sərair» əsərində dediyi kimi, nəhy və mən haqqındakı xəbərlər bir-birinə zidd olduğundan salim deyildir. Salim olduğunu fərz etsək belə xəbəri-əhəddir, faydalı elmi dəlil olmadığından buna əməl edilməz. «Nəzmi-cəlil»də haram olanlar bildirdikdən sonra buyurulub:

وَالْمُحْصَنَاتُ مِنَ النِّسَاءِ إِلاَّ مَا مَلَكَتْ أَيْمَانُكُمْ كِتَابَ اللهِ عَلَيْكُمْ وَأُحِلَّ لَكُمْ مَا وَرَاءَ ذَلِكُمْ
أَنْ تَبْتَغُوا بِأَمْوَالِكُمْ مُحْصِنِينَ غَيْرَ مُسَافِحِينَ فَمَا اسْتَمْتَعْتُمْ بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ
فَرِيضَةً وَلاَ جُنَاحَ عَلَيْكُمْ فِيمَا تَرَاضَيْتُمْ بِهِ مِنْ بَعْدِ الْفَرِيضَةِ إِنَّ اللهَ كَانَ عَلِيمًا حَكِيمًا

***«(Cihad vaxtı əsir olaraq) sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!».***[1]

Burada **«İstifadə (yaxınlıq) etdiyiniz»** sözü iki məna daşıyır: birincisi, onlardan ləzzət baxımından faydalanmaq, yaxud şəri qaydaya görə müvəqqəti evlənmək. Bunu sözün birinci mənasına görə izah etmək olmaz. Çünki üsuli-fiqhdə Quranın ləfzlərinə ya lüğət anlamı verilir, yaxud da şəri qaydaya uyğun mənalandırılır. Namaz, zəkat və həccdə şəri qaydaya əsaslandığımız kimi, burada da hökmi-şəriyə əsaslanmalıyıq. Bu cür nigahın halal olduğuna Əmirəl-möminin əleyhissəlam, mübah olmasına isə İbn Abbas, Abdullah ibn Məsud, Mücahid, Əta, Cabir Ənsari, Sələmət ibn Əqva, Əbu Səidül Hudri, Səid ibn Cübeyr, İbn Cüreyh və b. qail olmuşlar.

Bu nigahda zərərli bir şey olduğunu iddia edənin cəhdi batildir.

Bütün bunlar məsələnin tarixi və dini baxımdan təhlilidir. Əxlaqi və ictimahi cəhətinə gəlincə deyə bilərik ki, islam hər bir dövrdə zamanın dəyişməsi ilə dəyişməyən, hökmləri hər vaxt baqi qalan və həmişə bəşərin ehtiyaclarına cavab verən, onların yaşayış və güzaranını nizama salan ilahi bir din, ilahi bir

---

[1] «Nisa» surəsi, ayə 24.

rəhmətdir. İslamda başərə ağır gələn, ona yük və möhnət görünən bir şey yoxdur. Bu din aləmlərə rəhmət, bütün xalqlara bərəkət olaraq gəlmişdir. İslam başərin bütün ehtiyaclarına cavab verdiyindən, asanlığı buyurduğundan, nemət və lütf vəsilələrinin hazırladığından dinlərin ən kamili, şəriətlərin sonuncusudur. İnsan özünü tanıyar-tanımaz rastlaşdığı şeylərdən biri də qürbətdir. Cihad üçün, ticarət, yaxud bilik, yaxud da gəzib-dolaşmaq üçün yurdundan ayrılır. Adətən bunların çoxu gənclərdən ibarət olur. Onların bədəni qüvvətli, səhhəti möhkəmdir. Hikmət sahibi xaliq nəslin artırması, başərin bəqası üçün insana şəhvət də vermişdir. Bu cür qürbətə düşənlər isə daimi nigahlana bilməzlər. Odur ki Allah təbarəkə və təal buyurub:

يُرِيدُ اللهُ بِكُمُ الْيُسْرَ وَلاَ يُرِيدُ بِكُمُ الْعُسْرَ

***«... Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər...»;***[1]

وَجَاهِدُوا فِي اللهِ حَقَّ جِهَادِهِ هُوَ اجْتَبَاكُمْ وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ

***«(Ey möminlər!) Allah yolunda layiqincə cihad edin. O (öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı».***[2]

Ölkələri, bölgələri dolduran zinanın pisliyi barəsində danışmağa ehtiyac yoxdur. Müsəlmanlar islam hökmlərinə sarılsalar

فَتَحْنَا عَلَيْهِمْ أَبْوَابَ كُلِّ شَيْ

***«Əlbəttə onlara göy üzünün və yerin bərəkətlərini açardıq».***[3]

Mütə zinanı aradan qaldırır, bicliyin qarşısını alır, nəsli çoxaldır. İnsanlar körpələrini küçələrə atmaqdan, içkiyə və

---

[1] «Bəqərə» surəsi, ayə 185.
[2] «Həcc» surəsi ayə 78.
[3] «Ənam» surəsi, ayə 44.

sairəyə qurşanmaqdan qorunur. Doğrudan da İbn Abbasın bir sıra kitablarında nəql olunan bu sözü çox yerindədir. «Mütə Allahın Mühəmməd (s) ümmətinə bir rəhmətdir. O nəhy edilməsəydi, yalnız çox pis adamlar, ölümünü göz önünə gətirənlər zina edərdi». İbn Abbas bu sözü ustadının, yəni Həzrət Əlinin (ə) tərtəmiz qaynağından almış və söyləmişdir.

Bunu da qeyd etmək lazımdır ki, mütənın iddəsi ən azı qırx beş gündür. Birisi ilə mütə edib, həmin müddəti gözləməyən qadının mütəsı zinadan ibarətdir. Seyyidül-bəşər (s) buyurmuşdur: **«Uşaq yatağa aiddir, zina edənə isə daş».**

## TƏLAQ

Evlənmək – bir kişi ilə bir qadının öz həyatlarını bir-birinə bağlamaları və hər ikisinin bədəndən iki göz və iki əlin

birləşməsi kimi birləşmələridir. Allah sübhanəhu və təal «Bəqərə» surəsinin 187-ci ayəsində bu barədə belə buyurur:

هُنَّ لِبَاسٌ لَكُمْ وَأَنْتُمْ لِبَاسٌ لَهُنَّ

***«Onlar sizin, siz də onların libasısınız».*** Bu ayə ecaz və bəlağətə misilsiz ayələrdəndir və Quranda fərddir.

Bu bağın qırılması yalnız elümlə ola bilər. Hətta elimdən sonra da bu bağ davam edir. Bu yalnız ən əhəmiyyətli hallarda qırıla bilər. Hikmət sahibi bu səbəbləri də izah etmişdir: Ər arvadına nifrət edərsə, onu boşayar. Qadın da ərinə nifrət edərsə öz mehrini bağışlamaq, yaxud onun dəyərini az və ya yox dərəcədə ödəmək şərtilə ayrılar. Nifrət ikitərəfli olarsa, qadın ərinə bir şey bağıslamaq və ya mehrini vaz keçməklə boşana bilər. Lakin islam dini içtimai bir din olduğundan, əsası Tövhid və vəhdət üzərində qurulduqundan bu dində ən əhəmiyyətli şey birlikdir. Bu baxımdan boşanmanın pisliyi barəsində bir çox hədislər varid olmuşdur. Bəzi xəbərlərdə isə halal şeyin boşanması Allahın ən nifrət etdiyi şey kimi qiymətləndirilir. Cəfəriyyə məzhəbinə görə boşanma zamanı iki nəfər şahidin olması şərtdir. Bu «Təlaq» surəsinin 2-ci ayeyi-kəriməsinin

وَأَشْهِدُوا ذَوَيْ عَدْلٍ مِنْكُمْ

***«(Sonradan aranızda ixtilaf olmasın deyə) içərinizdən iki ədalətli şahid tutun»*** hökmünə əsaslanır.

Ərin zorla, yaxud qəzəbindən boşamaması, qadından heyz halından təmizlənmiş olması, bundan sonra isə ərin qadına yaxınlaşmaması da şərtlərdəndir.

İmamiyyə üç təlaqın bir boşayış olması məsələsində, hətta ər üç dəfə «boşsan» desə də qadının boş düşməyəcəyində ittifaq etmişdir, həmrəy olmuşdur. Fəqət bir dəfə boşayır, sonra alar, ikinci dəfə boşayar, yenə də alar. Lakin üçüncü dəfə boşadıqdan

sonra qadının bir başqası ilə nigahlanmasından sonra ərinə haramdır. Bu hal doqquz dəfə təkrar olunarsa, doqquzuncu dəfədə qadın təhlili-şəri ilə də ərinə halal olmaz. Artıq ömrün sonuna qədər bu haramdır.

Əhli-sünnət qardaşlarımız ərin üç dəfə «boşsan» deyərkən qadını ala bilmək üçün bir başqasına nikahlanması lüzumuna qail olmuşlar. Fəqət onlardan rəvayət edilən hədislərdə də bir dəfədə verilən üç təlaqın bir təlaq olduğu açıqlanmaqdadır. Məsələn, Buxari sənədlə İbn Abbasdan rəvayət edir ki, Rəsulullah (s) zamanında Əbubəkrin xilafəti dövründə və Ömərin xəlifəliyinin ilk ilində üç boşayış bir boşayış idi. Ömər dedi ki, insanlar yavaş davranılacaq şeylərdə tələsirlər və bunu qəbul etdi. Qurani-Kərimdə isə buyurulmuşdur:

الطَّلاَقُ مَرَّتَانِ فَإِمْسَاكٌ بِمَعْرُوفٍ أَوْ تَسْرِيحٌ بِإِحْسَانٍ

***«Təlaq vermə iki dəfə mümkündür, bundan sonra yaxşı dolanmaq, ya da xoşluqla ayrılmaq gərəkdir».***[1] Və ya

فَإِنْ طَلَّقَهَا فَلاَ تَحِلُّ لَهُ مِنْ بَعْدُ حَتَّىَ تَنْكِحَ زَوْجًا غَيْرَ

***«Əgər kişi övrətini yenə də (üçüncü dəfə) boşayarsa, o zaman (qadın) başqa bir ərə getməmiş ona (əvvəlki ərinə) halal olmaz».***[2]

## HÜL VƏ MÜBARAT

Ər və arvad aralarındakı əlaqəni ancaq birinin o birinə nifrət etməsi ilə kəsər və bu nifrət, demək olar ki, çox zaman ayrılığın ən mühüm səbəbi olar. Ər arvadına nifrət edərsə, onu boşamaq, ərin haqqıdır. Fəqət arvad ərinə nifrət edirsə, o boşamaq üçün öz

[1] «Bəqərə» surəsi, ayə 229.
[2] «Bəqərə» surəsi, ayə 230.

ərinə mehri qədərində, yaxud daha çox mal, ya da pul verərək boşanır. Bu cür boşanmaya **«hül»** deyilir.

«Bərəqə» surəsinin 229-cu ayəsində buyurulur:

الطَّلاَقُ مَرَّتَانِ فَإِمْسَاكٌ بِمَعْرُوفٍ أَوْ تَسْرِيحٌ بِإِحْسَانٍ وَلاَ يَحِلُّ لَكُمْ أَن تَأْخُذُواْ مِمَّا آتَيْتُمُوهُنَّ شَيْئًا إِلاَّ أَن يَخَافَا أَلاَّ يُقِيمَا حُدُودَ اللّهِ فَإِنْ خِفْتُمْ أَلاَّ يُقِيمَا حُدُودَ اللّهِ فَلاَ جُنَاحَ عَلَيْهِمَا فِيمَا افْتَدَتْ بِهِ تِلْكَ حُدُودُ اللّهِ فَلاَ تَعْتَدُوهَا وَمَن يَتَعَدَّ حُدُودَ اللّهِ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

***«Boşanma iki dəfədir. Bu qanuni yolla mal-mülkdən tutub saxlamağı, ya da xeyirxahlıq göstərib mal-mülkdən əl çəkməyi tələb edir. Hər ikisi Allahın qoyduğu sədləri qoruya bilməməkdən qorxmalıdır. Bağışladığından nəyisə tutub saxlamaq sizə halallıq gətirməz. Əgər qorxsanız ki, kişi ilə qadın Allahın sədlərini qoruya bilməyəcək, o zaman qadının fidyə verməsi ilə heç biri günaha batmaz».*** Qadının əri ilə yaxınlaşmağa nifrət etməsi, onunla bir yatağa girmək istəməməsi, evində oturmağı belə arzulamaması kimi fövqəladə bir soyuqluq duyması belə boşanmanın şərtlərindəndir. Qadının bu cür soyuqluğu dil ilə ifadə etməsinə lüzum yoxdur.

Qadındakı bu şiddətli nifrətin nəticəsi olaraq əri onu verəcəyi şey əvəzində boşaya bilməz. Bu zaman «Filənkəsi verdiyi şey əvəzində boşadım və o məndən boşdur»,- deməsi kifayətdir. Yaxud qadın bir şəxsi bu işdə özünə vəkil edə bilər. Vəkil olan şəxs qadının verdiyi mal-mülkü onun ərinə təslim edərək, kişinin vəkalətini alır və təlaq siğəsini oxuyur.

Ər və arvadın bir-birinə qarşılıqlı nifrəti nəticəsində qadının ərinə bir miqdar mal, yaxud pul verməsi ilə boşanmasına **mübarat** deyilir. Bu zaman ər təlaq siğəsini zövcəsinin adı ilə «Zövcəm filankəsin mehri əvəzində boşadım», - şəklində oxuyur. Yaxud da hər iki tərəfin vəkil etdiyi bir şəxs bu vəzifəni yerinə yetirir. Beləliklə də ər və arvad bir-birindən ayrılır.

**Hul və mübarat** yolu ilə verilən təlaq təlaqi-baindir, yəni ər təkrarən öz zövcəsinə rücü edə bilməz. Amma qadın onu boşayan kişiyə verdiyi malın bir qismini bağışlayarsa, kişi qadının iddəsi müddətində ona rücu edə bilər.

Hər iki təlaqda, bütün boşanma şərtləri mövcuddur. Lakin ər mübarat təlaqında qadından mehrindən artıq bir şey ala bilməz, hulda isə ala bilər.

Təlaq siğəsini ərəbcə oxunması gərəkdir. Ər bunu oxuya bilməsə, bacara bilən birisini vəkil edər, qadın da həmin şəxsə vəkalət verər ki, təlaqı oxunsun.

## ZİHAR, İLA VƏ LƏAN

Bu üç şey də arvadın öz ərinə haram olmasına səbəbdir. Bunların hər biri bütün təfərrüatı ilə fiqh kitablarında mövcud olduğundan və hər üçünə az təsadüf edildiyindən bu barədə ətraflı danışmağı lüzumsuz sayırıq.

## FƏRƏİZ VƏ MƏVARİS

Bir şəxsin malının, yaxud haqqının onun ölümündən sonra bir başqasına keçməsinə irs, yəni miras deyilir. Bu, iki şəxsin arasındakı qohumluq əlaqələri, yaxud onların digər bağlılığından meydana gəlir.

Diri olan şəxsə «varis», yəni mirasçı, ölənə «müris», yəni miras qoyub gedən, qalmış mala isə miras deyilir.

Soy yaxınlığı birinin o birinin övladı olması ilə, yaxud ikisinin də bir atanın və ya bir ananın övladı olması ilə meydana gəlir. Səbəblə miras sahibi olmaq isə evlənmək yolu ilə baş verir.

Barışın payı Qurani-Məciddə təyin olunmuşsa, buna «fəraiz-fərz olan miraslar» deyilir. Digər yolla qalan miras «məvaris-yaxınlıq dolayısı ilə olan miraslar» adı verilir.

Qurani-Məciddə açıqca bildirilən fəraiz altı qisimdir:

**1) Murasın yarısı**

Vəfat edən zövcənin övladı yoxdursa, malının yarısı ərinə çatır. Ölən kişinin qızından başqa övladı yoxdursa, qızı mirasçıdır və malın yarısı onundur. Ölən kişinin anası, atası və övladı yoxdursa, ana-ata bir, yaxud ataları bir olan bacı mirasçıdır.

**2) Dörddə bir**

Ölən kişinin övladı varsa, malın dörddə bir arvadındır. Kişinin övladı yoxdursa, mirasının dörddə biri yenə onun arvadına çatır.

3) **Şəkkizdə bir**

Ölən kişinin övladı varsa, malın şəklində biri onun zövcəsinə çatır.

**4) Üçdə bir**

Ölən kişinin övladı yoxdursa, bu haqq anaya aiddir. Mirasın iki və daha artıq hissəsi anaya, qalan üçdə biri bir bacı və bir qardaşa çatır.

**5) Üçdə iki**

Ölən kişinin oğlu yoxdursa, mirasın üçdə ikisi iki və yaxud çox olan qızların haqqıdır. Atabir, yaxud ata-anabin bacılar, qardaşları yoxdursa, bu hissəni alırlar.

**6) Altında bir**

Övlad varsa, ata ilə ananın haqqıdır. Vəfat edən kişinin qardaşı varsa, ananın haqqıdır. Anabir oğlan, yaxud qız da tək olarsa, malın altıda birinə sahibdir.

***

Bunlardan başqaları yaxınlıq baxımından mirasçı sayılırlar və kişi qadının aldığı haqqın iki misli qədərində mirasa sahib olur. Bu da üç qismə ayrılır:

1) Ölən kişinin atası, anası, oğulları, oğullarının oğulları, aşağıya doğru mirasa sahibdirlər.

2) Ata tərəfindən ana tərəfindən cədd və cədləri, nə qədər yuxarıya çıxarsa çıxsın, mirasa haq sahibi olurlar. Oğlan və qızlar da belədir.

3) Əmilər və bibilər, dayılır və xalalar. Bunların mirasa müəyyən bir haqqa sahibliyi yoxdur.

Qurani-Məciddə «fərz» (vacib) adı ilə səhmləri təyin edilən və yuxarıda göstərilən mirasçıların bütün payları malın cəminə bərabər olursa, məsələn, ata, ana, iki bacı ilə bərabər mirasçı olursa, bu zaman ata ilə ana  mirasın altında birini, iki bacı üçdə ikisinin alırlar. Beləliklə hamısının payı birlikdə malın cənminə bərabər olur.

Amma bəzi hallarda vərəsənin alacağı malın hamısından daha çox ola bilir. Məsələn, vəfat edənin atası, anası, iki bacısı və arvadın olarsa, bu zaman ata ilə ananın hər birini malın altıda birini alır ki, iki bacı üçdə birini, arvad dörddə birini alır ki, belə payların hamısı beşdə dörd olur. Beləliklə malın hamısının dörddə bir miqdarı artıqdır.

Bəzən də bu əksinə olur. Yəni səhmlərin cəmi mirasın həcmindən daha az ola bilər. Məsələn, mirasçılar bir bacı ilə arvaddan ibarət olarsa, bacıların payı mirasın yarısıdır. Zövcəninki isə dörddə biridir. Bunun cəmi dördə üç olur ki, bu pay malın (mirasın) həcmindən dördə bir kəsə azdır.

Bu iki səhmin birisinə görə, yəni səhmlərin maldan (mirasdan) çox olmasına «əvl», az olmasına «təsib» deyilir.

Miras xüsusunda şiəyi-imamiyyə ilə digər islam məzhəbləri arasında bu iki məsələdən («əvl» və «təsib») başqa ixtilaf yoxdur.

Şiələr Əhli-beyt imamlarından (ə) sənədlərlə nəql edilən rəvayətlərə əsaslanaraq, «əvl» və «təsib»in batil olduğuna inanır. Yəni mirasın, səhmləri heç bir vaxt malın cəmindən nə az, nə də çox ola bilər. Mirasçılar yuxarıda göstərilən səhmlərə görə haqlarını alırlarsa, səhmlərin cəmindən nə bir artıqlıq ola bilər, nə də bir əskiklik.

***

Həzrət Peyğəmbərin (s) səhabəsinin böyüklərindən bir çoxu da bu inancda olmuşdur. Bunlardan biri İbn Abbasdır. Onun «Çöldə toplanmış qum dənələrini belə bilən Allah mirasın, miras səhmlərinin, malın cəmindən çox, yaxud əskik olmayacağını da bilir», - sözləri məşhurdur.

Qurani-Məcidə görə, hasili-səhmlər bölünər və əsəbəyə bir şey verilməz. Əsəbə – vəfat etmiş kişinin ata, yaxud oğul tərəfindən yaxınlarıdır. Miras yalnız vacib olaraq bildirilənlərə paylarına düşən qədər verilir. Məsələn, vəfat edənin bir qızı və ata-anası qalmışsa, əmisi də yaşayırsa, qızı, atası və anası ilk təbəqədəndir və vəfat edənin varisləridir. Qardaşı ikinci, əmisi üçüncü təbəqəiyə əsəbələrindəndir. Şiəliyə görə, malın yarısı qızındır, altıda biri atanındır, digər altıda bir səhmi isə ananındır. Bundan artıq qalan hissə yenə bu üç şəxsin arasında bölünür. Qardaşa və əmiyə isə bu mirasdan çatmır. Onların buna haqqı da yoxdur.

Digər fəqihləri isə qalan artığı qardaşla əminin payı hesab edirlər. Fəqət buna xüsusi diqqət etmək lazımdır ki, bizim inancımıza görə, ər və arvadın daima müəyyən səhmi vardır və

onu alırlar. Yəni malın az olması ilə onların səhimi azalmış olmayacağı kimi, çox olması ilə də səhmləri artmaz.

Mal bütün səhnələrdən az olarsa, bu zaman bir, iki, yaxud da çox qızın bir, iki və daha çox bacının səhmləri azalır. Lakin ər və arvadın səhmlərində heç bir dəyişiklik olmur.

Allah təbarəkə və təal varislərin üstününün, aşağısının səhmlərini bildirmişdirir. Məsələn, ər və arvad övladları olmadığı zaman yarı və dörddə bir miras alırlar. Övlad varsa, səhmləi dörddə birə, səkkizdə birə enir. Fəqət heç bir vəchlə səhmlərdə bir artıq-əskiklik meydana çıxmır. Yalnız atanın səhminin azalması, yaxud azalmaması xüsusunda ixtilaf vardır. Şiə fəqihləri Əhli-beytdən (ə) gələn hədislərə əməl edərək, malın az olduğu təqdirdə bütün səhmlərin azalmasını qəbul etmişlər. Şiə alimlər «əvl» və «təsib»in barəsində bir sıra dəlillərə malikdirlər ki, bunlar fiqh kitablarında ətraflı şərh olunub.

***

İmamiyyə aid miras xüsusundakı özünəməxsusluqlardan biri də budur:

Atanın libası, Quranı, üzüyü böyük oğula qalır. Başqa mirasçıların bunlarda haqqı yoxdur. Buna «həbvə» deyilir.

Şiələrin miras barəsində tək qaldığı bir məsələ isə əkilmiş ərazidən, əkərədən arvadın miras alıb-almaması məsələsidir. Şiə ərazidən miras və ya bunun əvəzində müyyən miqdarda pulun arvada verilməsinin əleyhinədir. Ağaclardan və tikililərdən də onlara miras çatmır. Amma bunların dəyərindən miras alır. Bu Əhli-beyt imamlarından (ə) rəvayət olunan hədislərə əsaslanır. İmamlar öz dövrlərində bunu tətbiq etmişlər. Onlar isə öz cəddləri Rəsuli-Əkrəm (s) rəvayət etdikləri hədisləri dəlil olaraq gətirmişlər.

İrsdəki mühüm ixtilaflar bunlardan ibarətdir və bu da əhli-sünnət alimləri ilə şiə alimləri arasındakı digər cüzi ixtilaflardan biridir.

## VƏQFLƏR, HİBƏ VƏ SƏDƏQƏ

İnsan özünə aid olan malları bir neçə yolla öz mülkiyyətindən çıxara bilər.

1) Fəqqi-mülk (mülkiyyətdən çıxarış)

İnsan öz mülkünü heç bir kimsənin mülkiyyətinə keçirməmək şərti ilə mülkiyyətindən çıxara bilər ki, buna «təhrir» də deyilir. Malik olduğu qulu azad etmək, onu azadlığa qovuşdurmaq, yaxud dükanını, evini, ərazisini məscidə vəqf etmək kimi. Belə bir mülkə heç kim sahib çıxa bilməz.

2) Hər iki tərəfin hazırlığı ilə bir mülkü başqa birinə bir şeyin müqabilində vermək. Buna «sülh» və «bey» deyilir.

3) Bir əvəz gözləmədən yalnız savab qazanmaq, Allah rizasına yetişmək üçün verilən pul, mal və sairə. Buna «sədəqə» deyilir.

Sədəqə özü də iki qisimdir. Birincisi, «vəqf»dir ki, bu, mülkün özünü həbs edib mənfəətini tərk etməkdir. Yəni mülkü müəyyən şəxslərə, yaxud bir cəmiyyətə ondan heç bir mənfəət gözləmədən bağışlamaq.

İkincisi «sədəqə»dir. Yəni bir malı və ya pulu Allah rizası üçün heç bir əvəz gözləmədən bir başqasına istədiyi kimi sərf etməkdir.

4) Mülkün bir əvəz və savab gözləmədən ancaq bir əlaqə xatirinə bağışlanmasıdır ki, buna «hibə» deyilir.

Hibə iki qisimdir:

1) Hibeyi-muəvvəzə. Bu mülkü bir əvəz olaraq birisinə bağışlamaqdır. Məsələn, bu libası sənə bağışlayıram sən də əvəzində o kitabi mənə ver. Bu növ hibə «əqdi-lazim»dir və tərəflər heç vaxt bunu poza bilməzlər. Lakin hər iki tərəf əqdin pozulmasını öz aralarında razılaşsalar, bu mümkündür.

2) Əvəzsiz hibədir ki buna «hibeyi caizə» deyilir.

Hibələrdə mülkün hibə edilən tərəfindən alınması lazımdır, əks halda sənin olmaz. Hibeyi-caizədə bağışlanan şey geri alına bilər və bununla da əqd pozular. Yəni mal sahibi malı geri ala bilər. Ancaq qarşı tərəf qohumdursa, yaxutda mal artıq tələf

olmuşsa, əqdi pozmaq mümkün deyildir. Fəqət sədəqənin hec bir qismində fəsih (əqdi pozma) imkanı yoxdu. Ancaq burada da malı qarşı tərəfin almış olması şərtdir.

Mal vəqf edən siğəsini oxumalıdır. O, «Bu evi Allah rizası ücün filan kişilərə vəqf etdim» deyərsə sonra mülkü mütəvəlliyə yaxud vəqf etdiyi şəxslərə verərsə, yaxud özu mütəvəlli olub vəqf niyyəti ilə o mülkü ələ alarsa, onun artıq bunda dönməsi, mülkü alıb satması bağışlaması və bölməsi caiz deyildir.

Bu vəqf istərsə övlada vəqf edilmiş «xüsusi vəqf» olsun, istərsə də mədrəsə, karvansaray kimi bilik əldə etmək istəyənlərə, yolçulara vəqf edilmiş «ümumi vəqf» olsun, hökm budur.

Vəqf mal aşağıdakı hallarda satıla bilər:

1) xarab olub sıradan çıxmaq qorxusu olduqda

2) malın vəqf edildiyi şəxslər arasında mal və can tələfinə, şərəf və heysiyyətin alçaldılmasına səbəb olacaq dərəcədə bir ixtiyarın meydana çıxmaq qorxusu olduqda.

Butun bunlar yalnız hakimi-şərin xəbəri və musaidəsi ilə mümkündür. Ancaq bu gün vəqf olnmuş mallar vəqf xüsusundakı şəri hokmlərə məhəl qoymadan satılmaqdadır. Hər şeydən xəbərdar olan Allah da bu işləri görənlərin cəzasını onlara daddırmaqdadır.

Şiə alimlərinin vəqf barəsindəki inancları, hökmləri bunlardır. Bizim bunlara aid tədqiqlərimiz olsa da, onlardan bəhs açmağa burada imkan yoxdur. Ona görə də bu qədərini kifayət bildik.

## QƏZA VƏ HÖKM

Bir məsələni şəri hökmə bağlayıb müxtəlif çəkişmələrə, savaşlara və qovğalara son qoymaq səlahiyyətini həyata keçirmək çox böyük və uca məqamdır.

Şiələrin nəzərincə, ümmət arasında meydana çıxan məsələləri şəri olaraq hökm səviyyəsinə qaldırmaq işi peyğəmbərlik bağçası ağaclarının ən məhsuldarı ümumi rəyasət mərhələlərinin biri və yer üzündə Allah xəlifələridir. Qurani-Məciddə buyurulur:

يَا دَاوُدُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الأَرْضِ فَاحْكُمْ بَيْنَ النَّاسِ بِالْحَقِّ

***«Ya Davud! Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et...»***[1]

«Nisa» surəsində isə Allah-Təala buyurur:

فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجًا مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا

***«... (Ya Mühəmməd!) Sənin Allahına and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar».***[2]

Hökm vermək, bir şeyi şəri hökmə bağlamağın məqamı ona görə bu dərəcədə ucadır ki, hökm verən şəxs can, mal və irz kimi xalqın üç müqəddəs şeyində ilahi bir əmniyyət və amanı təmsil edir.

Hökm verən şəxsin məqamı nə qədər uca olsa, onun bir xətaya düşməsi də, ayağının sürüşməsi də bir o qədər böyük və qarşısıalınmazdır.

Həzrət Peyğəmbərin (s) və Əhli-beytinin (ə) hədislərində bu məqamda olan şəxsin yanlış və Allah hökmünə uymayan hərəkəti elə bir tərzdə izah olunur ki, bunun qarşısında həqiqətən

---

[1] «Sad» surəsi, ayə 26.
[2] «Nisa» surəsi, ayə 65.

də insanın beli bükülür, əzaları titrəyir. «**Qazi cəhənnəmin qarşısındadır. Qazi olan şəxsin dili cəhənnəmin iki alovu içərisindədir**», -buyurmuşdur.

Əmirəl-möminin (ə) qazi Şüreyhə buyurmuşdur: «**Ey Şüreyh, elə bir yerdə oturmusan ki, orada ancaq peyğəmbər, yaxud peyğəmbərin vəsisi, yaxud da ən pis bir şəxs otura bilər».**

Həzrət Peyğəmbərdən (s): **«Qazi olan şəxs doğrudan da bıcaqsız doğranmışdır»** hədisi rəvayət olunmuşdur. Buna bənzər bir çox hədislər mövcuddur.

Burada isə izah olunmalı şeylər bunlardır:

Fiqh alimi, yaxud müctəhid olan şəxsin dəlillərdən çıxardığı hökm başdan-başa bir mövzuya aiddirsə, onun verdiyi hökmə **fitva** deyilir. Məsələn, heç kim başqasının maşından istifadə edə bilməz, buna onun haqqı yoxdur. Yaxud öz qadınınla yaxınlıq etmək halaldır, yad bir qadınla olan yaxınlıq isə haram.

Müctəhid verdiyi hökm şəxsi və xüsusi bir mövzuya aiddirsə, bu hökmə **qəza** və ya **hükumət** deyilir. Məsələn, «Bu qadın filan kişinin arvadındır, o biri qadın isə yaddır», «Bu mal filan kişinindir».

«Qəza» və «hökumət» İmam (ə) tərəfindən naiblik mənsəbinin vəzifəsidir və istər ümumi, istərsə də xüsusi olsun, hər iki xüsusda hökm vermək adil müctəhidin vəzifələrindəndir. Ancaq bu mühüm cəhəti nəzərdən qaçırmaq olmaz: hökm vermək məsələləri yaxşıca anladıqdan sonra mümkündür. İstər mübahisə, istər müdafiə aid bir iş olsun və istər də digər məsələlərlə bağlı olsun, şəri dəlillərlə hökm çıxartmaq, fitva vermək səlahiyyəti çox ağır şərtlərlə bağlıdır. Çünki hökm zəka, səliqə, anlayış, çevik qavrayış kimi cəhətlər tələb edir ki, bunlar hər yetəndə olmur. Odur ki, göstərilən keyfiyyətlərə malik olmayan şəxslər bu məqamda olarsa, onların xalqa xeyrindən

çox zərəri dəyə bilər və verdikləri hökmlərə şübhələr daha çox olar.

Adil olmayan müchətiddən qeyrilərinin bu çox uca, eyni zamanda çox təhlükəli səlahiyyəti ifa etmələri, belə bir məqamı tutmaları biz imamiyyə şiəsinin nəzərində, ən böyük günahlardan biridir. Hətta Allah yanında küftə bərabərdir. Buna görə də çox böyük şiə alimlərinin ustalarının hökm verməkdən mümkün olduqca çətinliklərini gördük. Onlar çox zaman xalqın arasındakı ixtilafıarın, şəri hökm yolu ilə deyil, barış yolu ilə həll edilməsinə üstünlük vermişlər. Biz də bu xüsusda onların yolunu rəhbər tuturuq.

Burada bir başqa qanunun da zikri vacibdir. O da hökm verən şəxsin üç şeyə əsaslanması lüzumundan ibarətdir: **iqrar**, **yəmin**, **bəyyinə**, yəni ədalət sahibi iki şahid.

İki və daha çox şahid bir-birinə uymazsa, yəni iki şahid bir şeyə şəhadət etdikdən sonra başqa iki şahid isə əvvəlkilərin ziddinə gedərsə, bu zaman bəzi fəqihləri **bəyyinəyi-daxil** deyilən ilk şəhadətə əsaslanmağı üstün tutmuşlar. Onlar bu şəhadəti **bəyyineyi-xaric** deyilən ikinci şəhadətdən mötəbər saymışlar. Bəziləri isə bunlardan başqa üstün dəlillərə müraciət etməyi vacib saymışlar.

Bunu da qeyd edək ki, bütün bu şərtlərə malik olan qazi və hakim bir məsələ barəsində hökm verirsə, heç kəsin o hökmə müxalifətdə olmağa, onu rədd etməyə səlahiyyəti yoxdur. O hökmü rədd etmək Allahın hökmünü rədd etməyə bərabərdir. Hətta bu hökmdən sonra hər hansı bir müctəhidin həmin hökmə müdaxilə etməyə haqqı yoxdur. Ancaq hökmü verən hakim özü şübhəyə düşübsə, hökmünü təhqiq və tədqiq edər və naqis cəhətləri yalnız özü düzəldə bilər.

Fəqihlərin çoxu hökm və qəza barəsində ayrıca və müfəssəl kitablar yaşamışlar. Bu barədə kitab yazan şiə alimləri

əsərlərində qəzavət mövzusunu «Kitabül-qəza» adı ilə ətraflı şərh etmişlər. Biz də «Təhrirül-məcəllə» adlı kitabınızın dördüncü cildinə buna aid məlumat verdik. İstəyənlər o cilddə müraciət edə bilərlər.

## OV VƏ HEYVAN KƏSMƏK

Cəfəri məzhəbinə görə, fəqihlərin **nəfsi-sailə** dedikləri, daha doğrusu, çəkilərkən qanı axacaq damarları olan heyvan öldükdə murdar sayılır. Onların təmiz çıxarılması mümkün deyilir.

Köpək və donuz kimi. Bunlardan başqa heyvanlar təmizdir. Birinci qismdən murdarlığı təmizləmək olmaz. Onların diriləri də murdardı, ölüləri də. Kəsilmələri də murdardı, özü ölənləri də.

İkinci qisim şəri qayda ilə kəsilməmiş ölsə, murdardı, ətləri isə haramdır. İstər quş olsun, istər başqa heyvan, istər əhliləşmiş olsun, istər vəhşi, istər qanı axar olsun, istər axmayan, hökm eynidir. Əti halal olan heyvan üzü qibləyə çevrilərək, **bismillah** deyilib kəsilərdsə əti halaldır. Lakin yırtıcı heyvanların əti haramdır. Təzkiyə (təmizə çıxartma) iki növdür:

1) **Ovlamaq.** Bu iki yolla - ov itləri, yaxud da ox və tüfənklə olur. Əgər ovlayan müsəlmandırsa, ovu nişan olarkən **bismillah** deməlidir. **Bismillah** deyiləndən sonra vurulan ov ölsə də, əti halaldır. Əgər ovçu ova yetişərkən görsə ki, vurduğu ov hələ ölməyib, onda onun üzünü qibləyə çevirib **bismillah** deyərək kəsməlidir. Bundan başqa hər hansı bir heyvanla və ya başqa ov alətlərilə ovlanan heyvan diri olduğu halda kəsərkən «bismillah» deyilsə, əti halal olar.

2) **Şəri təzkiyə.** Bu, heyvanın üzünü qibləyə çevirib «bismillah» ilə boğazını, hulqumunu və iki şah damarını kəsməkdir. Kəsən alətin dəmir olmadı şərtdir. Fəqət çarəsizlik olduqda başqa əşya ilə də mümkündür. Dəvə isə nəhr edilməlidir, yeni boğaz çuxuruna bıçaq soxulmalıdır.

Balıqlardan isə yalnız axçalı olanlar halaldır və onların sudan çıxarıldıqdan sonra ölməsi şərtdir.

## YEYİLƏCƏK VƏ İÇİLƏCƏK ŞEYLƏR

Heyvanlar üç qidimdir: **quru heyvanı, su heyvanı və havada uçan quşlar.** Su heyvanlarının, yəni balıqların, qeyd etdiyimiz kimi, axçalı olmadı vacibdir. Bunların kürüləri də halaldır. Quru heyvanlarından qoyun, əhliləşdirilmiş öküz və

dana, buğa, dəvə, vəhşi öküz, dağkeçisi, ceyran, toyuq və toyuq kimilər halaldır. At, qatır və eşşək məkruhdur. Yırtıcı caynaqları olanlar, qurd, dovşan, tülkü, kərtənkələ, ilan və b. haramdır. Aslan, soğulcan və qurdlar, həşarat mütləq olaraq haramdır. Havada uçanlardan şahın və doğan cinsdən olanlar haramdır. Digər quşlar gəlincə şərin halal etdiklərində üç hal vardır: uçarkən qanadlarını daha çox düz tutanlar və daha az qanad çalanlar haramdır. Bunun əksi olanlar isə haramdır. Yerdə olanlar ayaqlarında mahnız varsa halaldır, yoxsa haramdır. Bayquş və ona bənzərlər, tovuz, körpü, arı heyvanları haramdır. Leş yeyən qarğalar (ala qarğa) haramdır.

Heyvanlardan başqa yeyilən və tikilən şeylər haqqında ümumi hökm bu əsaslara bağlıdır:

1) Qəsb edilmiş hər şey haramdır.

2) Murdar olan hər şey haramdır.

3) Hər pis və zərərli şey haramdır.

Mayələrdən ən haram olanı şidikdir. Ondan daha çox haram olanı isə şərab, pivə və s.-dir. Bunlar (şərab, pivə) qaynayıb üçdə ikisi gedənə qədər haramdır. İçkinin haram və murdarlığı barəsində müsəlman məzhəblərinin heç biri şiəlik qədər kəskin mövqe tutmur. İmamlardan (s) bu barədə o qədər qorxuducu, o qədər şiddətli xəbərlər gəlmişdir ki, bunların eşidən hər bir şəxsin saçları ağarar, ən cürətli insan belə qorxar. Şərabı çəkənə, satana və içənə Allah lənət etsin, - deyə bir xeyli xəbərlər varid olmuşdur və islam şəriətində içki «ümmül-həbais» - murdarlıqların, pisliklərin anası, təməli və əsli sayılır.

İçkinin zərəri və murdarlığı son dövrlərdə elmi cəhətdən sübut olunmuşdur. İslam isə onu 13 əsr əvvəl bilmiş, bildirmiş və haram etmişdir. İslam dini necə şərəfli, gözəl, incə düşüncəli, necə böyük, necə üstün və necə kamil bir dindir. Fəqət

müsəlmanlar onun əsaslarını zay etdiklərindən, ona əhəmiyyət vermədiklərindən bu dini məhv olmaq dərəcəsinə gətirmişdir.

Bunlar yeyiləcək və içiləcək şeylərə aid halal və haram hökmlərin əsaslarıdır ki, haqqında qısaca danışdıq. Geniş təfərrüat üçün bu müxtəsər risalə kifayət deyildir.

## HƏDDLƏR

İslam dinində edilmiş günahları sübut etmək şərti ilə günahkara dərhal verilən cəzaya **hədd** deyilir. Bu sözün cəmi **hüdud-hədlərdir**. Hədlərini dərhal tətbiqində məqsəd ictimai

nizamını qorunması, insanlarda pisliyə meyl duyğusunun məhv edilməsi və bu cəzanı görüb eşidənlərin ibrət alması, o günahdan və bütün günahlardan çəkinmələridir.

## ZİNA HƏDDİ

Ağlı başında olan subay bir şəxs bilə-bilə, qəsdən halal olmayan bir qadınla yaxınlıq edərsə, islam hökmünə görə ona yüz zopa vurulmalıdır. Sonra başı qırxılaraq bir il müddətində öz yaşadığı yerdən sürgün edilməlidir. Bu cəzanı icra etmək islam hökumətinin vəzifəsidir. Qadın isə öz könlü ilə bu işə razılıq veribsə ona yüz qamçı vurulur.

Zina edən şəxs evlidirsə, ona yüz qamçı vurulduqdan sonra daş-qalaq edilərək öldürülür. Qadın da ərlidirsə, o da eyni cür cəzalandırılır.

Kişi qohumluq və süd cəhətindən özünə haram olan bir qadınla, yaxud ögey anası ilə zina edərsə, cəzası öldürülməkdir.

İslam hökumətin tabeliyində olan bir yəhudi və ya xristian müsəlman qadını ilə zina edərsə, yaxud da bir adam bir qadını zorlayarsa, onun da cəzası öldürülməkdir.

Zina bu cür sübut olur:

**1.** Zina etdiyini dörd dəfə iqrar etmək;

**2.** Dörd adil şəxsin şəhadəti;

**3.** Üç adil kişi ilə iki adil qadının şəhadəti.

İki kişi ilə dörd nəfər ədalət sahibi qadın bir şəxsin zina etdiyinə şəhadət edərsə, o kişiyə yalnız yüz zopa vurulur, daş-qalaq edilib öldürülməz.

İki, yaxud üç kişi bir şəxsin zina etdiyinə şəhadət verərsə, şəhadətləri qəbul olunmazsa, birisini zina günahı ilə töhmətləmək cəzası verilir.

Zinaya şəhadət verənlərin şəhadətlərinin hər barədə eyni olması və zina hərəkətini gözlərilə görməsi şərtdir.

Bir şəxs ərli qadının zina etdiyinə şəhadət verərsə, sonra şəhadətindən dönüb inkar edərsə, zina ilə töhmətlənən kişiyə cəza verilməz.

Bir şəxs zina etdiyini söyləsə, sonra isə tövbə etsə, islam hakimi onu cəzalandırmaqla və ya bağışlamaqda azaddır. Lakin şəxs şahidlərin şəhadətlərindən sonra tövbə edərsə, onun barəsində cəza qüvvəsində qalır.

Bir şəxs iki dəfə zina edibsə və hər ikisində evli olmağından yüz qamçı cəzası alıbsa, bu hərəkəti üçüncü dəfə təkrar eləsə, cəzası öldürülməkdir.

Hamilə qadına doğmamış, xəstəyə isə sağalmamış cəza verilməz.

## LİVATƏ VƏ MUSAHƏKƏ

**Livata** - kişinin kişi ilə cinsi əlaqəsidir. Böyük günahlardan heç biri bu pis əməlin cəzasından daha ağır bir cəza ilə cəzalandırılmamışdır. Hətta islam heç bir kişiyə günahı müqabilində oda atılmaq cəzası nəzərdə tutmadığı halda, livatə edənin odda yandırılmasını caiz bilir.

İslam hakimi bu əməl sahiblərini qılıncla öldürmək, daş-qalaq etmək, sümüklərini sınması üçün hündür bir yerdən tullandırmaq, yaxud da oda atıb yandırmaqla cəzalandırmaqda ixtiyar sahibidir. Əgər üzərində livatə edilən şəxsin ağlı başındadırsa və bu işə öz könlü ilə razı olmuşsa yuxarıda göstərilən cəzaların biri ilə cəzalandırılır. Lakin şəxs yetkinlik yaşına çatmasında, təzir olunur.

«Təzir» uyğunlaşdırmaq mənasındadır. Bədəni cəzaların lazım olan bütün günahlarda təzir hakimi-şərin günahkarın

halına, tövrünə görə münasib saydığı bir cəzadır. Çox zaman günahkara iyirmi beş zopa vurmaqla icra olunur.

Livatadə zinanın sübut şərtləri caridir.

**Müsahəkə** - qadının qadınla öz şəhvətini söndürməsidir. Buna türk dilində «sevicilik»[1] deyilir. Bunun da sübutu üçün eyni şərtlər vardır. Bu işi edən və etdirən qadının hər birinə yüz zopa vurulur. Hər iki qadın yaxud onlardan biri evlidirsə daş-qalaq edilir.

Qadınla kişini bir-biri ilə culaşdırmağı adət edən şəxs bu işi ilk dəfə görürsə ona yetmiş beş zopa vurulur, başı qırxdırılaraq öz yaşadığı yerin adamlarına nümayiş etdirilir və bundan sonra sürgün olunur.

Bunun sübutu üçün həmin şəxsin iki dəfə iqrarı, yaxud iki adil şəxsin şahidliyi şərtdir.

## KƏZF

Bir müsəlmana şəri bir günah istinad etməyə kəzf deyilir.

Bir şəxs azad və yetkinlik yaşına çatmış bir müsəlmana zina, ləvatə, içki içmək kimi bir günah isnad etsə və onu sübut etməyə gücü çatmasa, bu böhtançı şəxsə səksən zopa vurulur. Lakin söylədiyi günahı adil şahidlərlə isbat edərsə və ya günah isnad olunan şəxs öz günahını boynuna alarsa, yuxarıda qeyd olunan cəza qüvvəsindən düşür.

Kəzfin isbatı üçün iki adil şəxsin şəhadəti və ya günah isnad olunan adamın özünün iki dəfə bunu iqrar etməsi lazımdır.

Əgər bir şəxsin digər bir şəxsin üzünə qarşı fasiq, zinakar, yaxud cüzama tutlmuş kimi onu təhqir edəcək sözlər söyləsə, söyləyən şəxs təzir olunur.

---

[1] Leysbiyan.

Birisi peyğəmbərlik iddiası edərsə, Rəsuli-Əkrəm (s), yaxud Əimmeyi-huda (ə)-ın birinə, haşa, pis bir söz söylərsə, o şəxsin cəzası öldürülməkdir.

## İNSANIN SƏRXOŞ EDƏN BİR ŞEY QƏBUL ETMƏYİN HƏDDİ (cəzası)

Ağlı başında olan və yetkinlik yaşına çatmış bir şəxs pivə, şərab, araq kimi insanı sərxoş edən bir şeyi, istər o şey yeni olsun, istər təzə qəbul edərsə, onun açıq kürəyinə və çiyinlərinə səksən zopa vurulur. Bu günah üç dəfə təkrar olunarsa, sərxoş edən şeyi qəbul edənə üç dəfə cəza verilmişsə, dördüncü dəfə də o şəxs öldürülür.

İçkini, sərxoş edən şeyi halal sayıb qəbul edən şəxs dindən dönmüşdür, onun öldürülməsi vacibdir.

İçki satan şəxs isə tövbə etməzsə və o işdən vaz keçməzsə, öldürülməlidir.

## OĞURLUQ

Ağlı başında olan və yetkinlik yaşına çatmış bir şəxs kilidli, qapısı bağlı bir yerdən (sandıq və s. kimi yerdən) dəyəri bir misqal qızılın dörddə birinə bərabər hər hansı bir şey oğurlasa və bu işi özü iki dəfə boynuna alsa və ya şahidlər təsdiq olunsa, sağ əlinin şəhadət, orta, adsız və çeçələ barmaqları oynaq yerlərindən kəsilir. Bu cəzadan sonra yenə oğurluq etdiyi sübut olunarsa, sol ayağı ayağının ortasından kəsilir. Üçüncü dəfə oğurluq eləsə, həbs edilir. Həbsdə də oğurluq etsə, öldürülür. Cəzadan əvvəllər də oğurluq etmişsə belə, yalnız oğurluğu isbat edildikdən sonra ona cəza verilir. Yetkinlik yaşına yetişməmiş uşaq, yaxud dəli oğurluq edərsə, hakim-şər onu təzir edir.

Oğrunun oğurladığı şeyləri sahibinə qaytarması, mal yox olmuşsa əvəzini ödəməsi vacibdir. Bunun üçün oğurunun özünün bir dəfə iqrarı, yaxud adil bir şəxsin şəhadəti kafidir.

Ata öz oğlunun malını oğurlasa, ona cəza verilməz. Ancaq oğul atasının malını oğurlasa, oğula cəza verilməlidir.

## MÜHARİB (SİLAH QALDIRAN)

Bir şəxs şəhərdə, çöldə, dənizdə silaha əl atıb, xalqın (camaatın) mallarını əllərindən almaqla hədələyərsə, islami hökumət o adamı öldürmək, acmaq, sağ əlini və sol ayağını kəsmək, sürgün etmək cəzaları ilə cəzalandırır. Qurani-Məciddə buyurulur:

إِنَّمَا جَزَاءُ الَّذِينَ يُحَارِبُونَ اللهَّ وَرَسُولَهُ وَيَسْعَوْنَ فِي الأَرْضِ فَسَادًا أَنْ يُقَتَّلُوا أَوْ يُصَلَّبُوا أَوْ تُقَطَّعَ أَيْدِيهِمْ وَأَرْجُلُهُمْ مِنْ خِلاَفٍ أَوْ يُنْفَوْا مِنَ الأَرْضِ ذَلِكَ لَهُمْ خِزْيٌ فِي الدُّنْيَا وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ

***«Allah Rəsulu ilə cənk edənlərin, yer üzündə pozğunçuluq yayanların cəzası belə olmalı: ya öldürülməli, ya asılmalı, ya da əlləri, ayaqları çarpaz kəsilməli, ya da onlar yurdundan qovumalıdır. Bu cəzalar onlar üçün dünyada bir rəzillik payıdır ki, alarlar. Onları axirətdə böyük bir əzab gözləyir».***[1]

Hakimi-şərin o şəxsi yaşadığı yerdən sürgün etdiyi təqdirdə həmin şəhər əhalisinin o şəxslə tövbə edənə kimi dostluq etməsi, yeyib-içməsi, münasibətdə olması qadağandır.

Camaatın evinə hücum çəkən oğru da müharib hökmündədir. Əgər hücum çəkdiyi zaman öldürülərsə, qanı halaldır, yəni öldürməkdən qisas alınmaz. Bir qadına, bir uşağa onun namusuna təcavüz etmək qəsdi ilə hücum çəkən şəxsə o qadının,

[1] «Maidə» surəsi, ayə 33.

o uşağın qarşı durması haqqıdır. Bu zaman təcavüz etmək istəyən şəxs öldürülərsə, qanı hədərdir.

Əldən pul qapan, hiylə işlədən, yalandan şahidlik edən şəxsi də başqalarına ibrət olsun deyə, cəzalandırmaq hakimi-şərin huququdur.

## BAŞQA CƏZALAR

Yetkinlik yaşına çatmış bir şəxs bir heyvana yaxınlıq edərsə, onu təzir etmək lazımdır. Bu işi bir neçə dəfə etsə, hər dəfəsi üçün təzir edilir. Əgər onun bu işdən əl çəkmədiyi məlum olarsa, cəzası öldürülməkdir.

O heyvan əti halal heyvandırsa, bu işdən sonra əti haram olur; o heyvanın törəyi də haramdır. Həmin heyvanı şəri tərzdə kəsmək, sonra ölüsünü yandırmaq, yox etmək gərəkdir. Bu işi işləyən şəxs heyvanın dəyərini onun sahibinə ödəməyə borcludur. Heyvanı hansı olduğuna şübhə varsa, püşklə təyin edilir.

Əgər həmin heyvan əti yeyilməyəndirsə (at, qatır və s.) onu başqa bir şəhərə satmaq, dəyərini isə Allah yolunda yoxsullara sədəqə vermək lazımdır. Bu işi işləyən şəxsin isə heyvanın dəyərini sahibinə ödəməsi gərəkdir.

Bu pis iş ya iki nəfər adil şahidlər isbat olur, ya da bu işi işləyən iki dəfə iqrar etməklə satibləşir.

Bir şəxs özünə halal olmayan ölmüş bir qadına yaxınlaşarsa, ona, haram olan bir qadına yanaşmanın cəzası verilir. Lakin bu cəza daha şiddətlə icra olunmalıdır. Livatədə də eyni cür cəza tətbiq olunur.

Bir şəxs zövcəsi, yaxud cariyəsi öldükdən sonra onunla yaxınlıq edərsə, onu təzir lazımdır. Bu işləri isbat üçün yenə dörd nəfər adil şəxsin şahidliyi gərəkdir.

Əli ilə, yaxud başqa tərzdə özündən məni gətirən kişi də təzir olunur.

Hər kəsin öz canını, malını, namusunu hər vasitə ilə qoruması, müdafiə etməsi onun hüququdur.

Birisi sahibinin izni olmadan bir evi pusarsa, bu iş də isbat olarsa, onu bu işdən nəhy etmək lazımdır. Pusquda dayanan tənbehi dinləməzsə və işini davam etdirərsə, ev sakinlərinin daşlar, torpaqla, yaxud başqa bir vasitə ilə ona mane olması gərəkdir. Bu cür müdafiə zamanı həmin adam ölərsə, qanı hədər sayılır.

## QİSAS VƏ DİYƏTLƏR

مِنْ أَجْلِ ذَٰلِكَ كَتَبْنَا عَلَىٰ بَنِي إِسْرَائِيلَ أَنَّهُ مَنْ قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الْأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا وَلَقَدْ جَاءَتْهُمْ رُسُلُنَا بِالْبَيِّنَاتِ ثُمَّ إِنَّ كَثِيرًا مِنْهُمْ بَعْدَ ذَٰلِكَ فِي الْأَرْضِ لَمُسْرِفُونَ

***«Bir şəxsi günahsız yerə öldürmək böyük bir günahların ən böyüyüdür, yer üzündə pozğunculuqdur, böyük bir pozğunluq meydana gətirməkdir».***[1]

وَمَنْ يَقْتُلْ مُؤْمِنًا مُتَعَمِّدًا فَجَزَاؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللَّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا

***«Hər kəs bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük əzab hazırlar!»***[2]

Bir şəxsin bədən üzvlərindən birini kəsmək kimi bir cinayət ya qəsdən, istəyərək, bilərək, yaxud qəsdə bənzər bir tərzdə və ya yanlışlıqla olur.

---

[1] «Maidə» surəsi, ayə 32.
[2] «Nisa» surəsi, ayə 93.

Bilə-bilə, qəsd edərək belə bir cinayəti işləmək xüsusunda izahata bir lüzum görmürük. Qəsdə bənzər cinayət belə ola bilir:

Bir şəxs öldürmək, yaxud bədən üzvlərindən birini şikəst etmək qəsdilə deyil, cəzalandırmaq, tərbiyələndirmək üçün oğlunu, şəyirdini döyərkən əli ölümcül bir yerinə deyər və onun ölümünə səbəb olarsa, yaxud vurduğu şillə qulaq pərdəsini partladıb onu kar edərsə, bu bir təsadüfdür. Deyən şəxsin belə bir qəsdi yoxdur.

Yaxud bir şəxs xəstəyə onun halını yaxşılaşdırmaq üçün bir dərman verərsə, dərmanı içən şəxs onun təsiri ilə ölərsə, bu növ cinayətlərə qəsdə bənzər cinayət deyilir.

Bir quşa atılan ox, güllə bir adama rast olub onun ölümünə səbəb ola bilər; bu cür cinayətlər yanlışlıqla edilən cinayətlər növündəndir.

Silahını təmizləyən bir şəxsin əlindəki silahdan gözlənilmədən atəş açılıb birisini öldürə bilər. Bu da yanlışlıqlar edilən cinayətdir.

Yuxuda ikən gəzən bir şəxs heç bir qəsdi olmadan gördüyü bir kabus nəticəsində birini öldürə bilər. Dəli və yetkinlik yaşına çatmamış uşaq da adam öldürə bilər. Bunlar da yanlışlıqlar edilən cinayətdir.

Amma bir şəxs bir şəxsi öldürmək qəsdi ilə atəş açarkən küllə həmin adama deyil, bir başqasına deyib onu öldürərsə, yaxud çaldığı yumruq araya girən birinə təsadüfən deyib onun ölümünə səbəb olarsa, çəkdiyi bıçaq başqa bir şəxsə dəyib onu öldürərsə, öldürülən şəxsin qanı şərin mənfuz və haram olduğundan bu hərəkət qəsdən adam öldürmək hökmünə daxildir.

Bir də bunu qeyd etmək lazımdır ki, yuxarıda göstərilən öldürmə hadisəsində bir şəxs istər özü də əli ilə bu işi görmüş olsun, istərsə bunun üçün şərait hazırlasın ikisi də eynidir.

Cinayətdə bir şəxslə müştərək olmaqla o cinayəti etmək arasında da elə bir fərq yoxdur.

Məsələn, bir şəxs təkbaşına, yaxud bir neçə nəfərlə bərabər bir cinayəti etmiş olsa, onların hər ikisi birdir; təkbaşına birini öldürən də günahının şəri cəzasına çatar, onunla bərabər cinayətə ortaq olanlar da eyni cəzaya mübtəla olarlar.

***

Qisas - bilə-bilə, qəsdən adam öldürən şəxsə tətbiq olunan şəri cəzadır.

Yanlışlıqla, yaxud qəsdə bənzər, yanlışa bənzər tərzdə adam öldürəninin diyət verməsi lazımdır.

Qisas üçün caninin ağlı başında olması və yetkinlik yaşına çatması şərtdir. Yetkinlik yaşına çatmamış uşaq on yaşına girmiş olsa belə qisas tabe deyildir. İstər yetkinlik yaşına çatmış şəxsi və istərsə də uşağı öldürülmüş olsun dəlinin cinayəti qisasla cəza hökmünə daxil deyildir. Çünki dəlinin qəsdi də xəta hökmündədir və yalnız diyətə tabe olur. Bu halda diyəti caninin atasına nəsil baxımından yaxın olan şəxslər - qardaşları, əmiləri, əmisi oğlanları ödəməlidir. Bunlar qisasa aid hökmlərdir.

Öldürülən şəxsə gəlincə, onun da ağlı başında olması, yetkinlik yaşına çatması şərtdir. Bir uşağı öldürənin cəzası qisas deyil, diyətdir. Ancaq bu halda qisasını lazım olduğunu söyləyənlər də olmuşdur.

Qisasın şərtlərindən biri də caninin cinayət etməyə məcbur edilməməsidir. Ancaq bu şərt adam öldürməkdən başqa cinayətlərdəndir. Bir şəxsi öldürməyə məcbur edilən adam öz canını qurtarmaq, yaxud da zərərə uğramamaq üçün günahsız bir şəxsi öldürərsə, məruz sayılmaz. Çünki qan tökməyə təqiyyə ola bilməz və bu şərtlə adam öldürən şəxs qisasla cəzalandırılır. Onu

bu işə məcbur edən şəxs və ya şəxslər isə ömürlük həbs cəzasına məhkum edilir.

Qisas şərtlərindən biri də öldürülən şəxsin günahsız və qanı haram olmasıdır. Öldürülən şəxsin öldürülməsi vacibdirsə, öldürənin qisas cəzasına məhkum olunması mənasızdır.

Canı öldürülən kişinin atası, yaxud da babası ilə istər yaxın, istər uzaq qohumdursa, bu zaman cinayət diyətə tabedir və bu diyət ölənin varisinə ödənilir. Ata və babaya bundan pay düşməz.

Bir müsəlmanı qəsdən öldürən müsəlmandan qisas alınaraq öldürülməlidir.

Azad bir kişiazad bir kişiyə, yaxud azad bir qadına əvəz qisasla cəza görür. Azad bir qadını öldürən azad bir kişi öldürülür və qadının vəlisi öldürülən azad kişinin əhlinə yarım diyət verir. Çünki kişinin diyəti qadının diyətinin yarısı qədərdir. Lakin bunun əksi olarsa, yəni azad bir qadını öldürdüyünə görə kişi ölümə məhkum edilərsə, öldürülən kişinin adamlarına diyət verilmir. Çünki caniyə öldürülməkdən başqa cəza düşmür.

***

Azad bir müsəlmanın diyəti (qan bahası) yüz dəvə, yaxud iki yüz öküz, yaxud min qoyun, yaxud hər biri iki dəst olmaqla iki yüz dəst libas, ya da min dinardır. Bunlardan hansı verilsə, olar.

Qəsdən adam öldürməyin əvəzində verilən cəza qısasdır. Fəqət öldürülən kişinin varisi razılaşsa, cani cəzadan diyətlə də canını qurtara bilər. Bu diyət isə bir il ərzində tam ödənilməlidir.

Qəsdə bənzər cinayətdə cəza diyətdir. Bu diyət iki il müddətində ödənməlidir.

Yanlışlıqla adam öldürən də diyətlə cəzalandırılır. Diyətin tam ödənmə müddəti üç ildir. Hər il diyətin üçdə birinin ödənməsi lazımdır.

***

Əl, yaxud ayaq kəsmək və ya gözü kor etmək kimi cinayətlər qəsdən edilmişsə, cani qısasla cəzalandırılır. Yəni gözün əvəzinə gözün çıxarılması, qulağın əvəzinə qulağın kəsilməsi, dişin əvəzinə dişin qırılması kimi Qurani-Kərimin «Maidə» surəsində buyurulmuşdur:

وَكَتَبْنَا عَلَيْهِمْ فِيهَا أَنَّ النَّفْسَ بِالنَّفْسِ وَالْعَيْنَ بِالْعَيْنِ وَالأَنفَ بِالأَنفِ وَالأُذُنَ بِالأُذُنِ وَالسِّنَّ بِالسِّنِّ وَالْجُرُوحَ قِصَاصٌ

***«Biz Tövratda İsrail oğullarına yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burununku burun, qulağınkı qulaq, dişinki diş və yaralarınkı yaralardır...»***[1]

Yanlışıqla, yaxud yanlışlığa bənzər bir cinayətdə hər üzvün o üzvə görə diyəti vardır; bəzi üzvlərdə insanın tam diyəti, yəni min dinar və ya tutarı, bəzilərində diyətin yarısı, bəzilərində isə yarısından azı verilir.

Burun kimi kişilik nişanəsi olan tək üzvlərdə diyət tam ödənilir. Göz, qulaq, əl və ayaq kimi cüt olan üzvlərin birinin kəsilməsi və yaxud şikəst edilməsinin cəzası yarım diyətdir. Lakin bu üzvlərin ikisinin də kəsən və ya şikəst edən tam diyət ödəməlidir.

Qəsdən və ya qəsdə bənzər cinayətlərdə diyəti cani özü ödəyir. Xətaya bənzər cinayətdə diyət aqiləyə aiddir.

Qisas və diyətlər haqqında şiəyi-imamiyyənin inancları, hökmləri xülasə şəklində bu söylədiklərimizdən ibarətdir.

---

[1] «Maidə» surəsi, ayə 45.

Nisbətən geniş məlumatı bu mövzuya həsr olunmuş kitablardan almaq olar.

İndi, ey din alimləri, ey müsəlman qardaşlarımız, bu tayfanın zikr etdiyimiz xüsuslarda dini məhv edəcək bir şeyini gördünüzmü? Yaxud burada yəhudilikdən, xristianlıqdan, zərdüştilikdən alınma bir hökmə rast gəldinizmi?

Anlatdığımız bu bəhslərdə islamın əsas inanclarından ayrı, Kitab və sünnətə zidd bir hökm varmı? İnsafı olanlarınız bunu mühakimə etsin, cahilləriniz isə iftiralarından vaz keçsinlər.

Dilədiyimiz budur ki, Allah möminlərin arasını düzəldər, onların arasındakı ayrılığı, ziddiyyəti götürər, nifrəti yox edər və hamısı qardaş kimi birləşərlər. Müsəlmanlar Quranın hökmü altında bir vücud olub öz itib gedən qüdrətlərini yenidən canlandırarlar.

Həqiqətən də möminlərin arasındakı məzhəb ixtilafı götürülmədikcə, qövmiyyət qeyrəti yox olmadıqca bütün məzhəblər biri digərinə hörmətlə yanaşmadıqca bu lütfə yetirmək olmaz. Bizim fikrimizcə, ümmətlərin yaşayışı üçün bütün bunlardan üstün olanı hər bir fərdin öz inanc qardaşını çanla-başla sevməsi ilə, mənfəətdə bir olduğunu idrak etməsi ilə, onu mənfəətindən faydalanması ilə, onu da bu mənfəətə ortaq etməsi ilə, özünə rəva gördüyünü öz din qardaşlarına da rəva görməsi ilə mümkündür.

Bu hələlik bir xətal kimi görünsə də, mümkün olmayacaq bir şey də deyildir. Allahın buna, əlbəttə gücü yetər. Allahın rəhmətindən ümid kəsilməz və ulu Allah istəsə bu yasa batmış ümmətə öz dərgahından yeni bir ruh ehsan edər ki, onu ölümündən sonra dirildər; Onun bəsirətini və gözlərini açar, qəflət sərxoşluğundan ayıldar.

## SON

Şiəliyi qınayanların əsaslandıqları iki şey vardır. Bunlardan biri «bəda»dır. Bunu anlamayanlar şiənin Allah təbarəkə və təalaya öncə məlum olmayan bir şeyin sonradan zahir olaraq məlum olması tərzində qəbul etmişlər ki, bu sırf cahillikdən meydana gəlmiş bir anlayışdır və nəinki imamiyyə, hətta heç bir

islam məzhəbi belə bir inancı qəbul etməz. Çünki bu inanc Allah sübhanəhu və təalaya cahil isnadından başqa bir şey deyildir. Allah sübhanəhu və təalanın elmi əzəli və əbədidir. Onda «muxalifətun lil-həvadis» sifəti mövcuddur.

«Bəda» - Allah təbarəkə və təalanın məktum (gizli) elmində mövcud olan və zati-əcəllu əlası tərəfindən məhv və isbat lövhində olan bir işi yenə özünə məlum müəyyən və müqəddər olan zamanda izhar eyləməsindən başqa bir şey deyildir. Bəda ali-Muhəmmədin (s) sirlərindəndir. Allah sübhanəhu və təalanı heç kim haqqı ilə bilmədiyi kimi, bunu da və buna bənzər şeyləri də bilə bilməz.

Allah bir işi buyurdur; bu buyruğu müqəddərdir; ancaq bir müddət sonra o işin əvəzinə başqa bir işi buyurur. Məktum (gizli) olan elmində bu, müəyyən və müqəddərdir. Bunu anlamayanlar, - iş dəyişdi, yaxud, haşa, Allah buyruğunu dəyişdirdi, özünə başqa bir iş lazım oldu, - kimi bir zənnə düşərlər. Halbuki bu gizləmə və izhar onun «ümmül-xitab»ında, əzəli bilgisində sabitdir. Hecə ki, Qurani-Kərimin «Rəd» surəsinin 39-cu ayəsində buyurur:

يَمْحُو اللهُ مَا يَشَاءُ وَيُثْبِتُ وَعِنْدَهُ أُمُّ الْكِتَابِ

***«Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli Onun yanındadır».***

Yaradılış aləmindəki bəda təşri aləmindəki nəsh kimidir. Allah təbarəkə və təala bir işi hökm edər, bunun hikməti öz dərkahındadır. Sonra bu əmri digər bir əmrilə nəsh edər. Bəda da buna bənzəyir. Sədəqə bəlanı dəf edər.

Allah Həzrət İbrahim əla nəbiyyina və alihi və əleyhissəlama İsmailin (ə) qurban edilməsini əmr buyurub, sonra qoç yollayır. Bəda olmasaydı sədəqənin duanın, şəfahətin göz yunub-açana qədər Allahın əmrinə muxalifətdə olduqları halda

ənbiya və ovliyanın qorxmalarının, ağlamalarının səbəb və hikməti olmazdı. Onların qorxuları heç bir fərdin bilə bilmədiyi bu elmi-məhzun və məktumi-ilahidəndir. Bu xüsusda «Əd dini vəl islam» adlı kitabımızın ilk hissəsində məlumat vermişik.

Şiələri qınayanların əsaslandıqları ikinci şey isə «təqiyyə», yəni məzhəbin gizlənməsi keyfiyyətidir. Bu xüsusda da şiəni qınayanlar cahillikdən qınayırlar. Təqiyyənin mənasını, yerini gerçək lüzumunu iman ilə bilən bunun yalnız şiəyə aid olmayıb ağıl və şər baxımından da gərəkli olduğunu anlayar. Hər bir insan üçün ən əziz və sevgili şey olan həyatını qorumaq üçün çalışarkən təqiyyəyə əməl etməsi zəruridir. Şərəfi üçün, haqqı qorumaq üçün batili yox etmək üçün insanın təhlükəyə atılması da lazımdır. Fəqət belə bir zərurət meydana çıxarsa, aşağıdakı ayələrdə buyurulduğu kimi, nəfsini qorumaq üçün gerçəyi gizləməsi lazımdır:

لاَ يَتَّخِذِ الْمُؤْمِنُونَ الْكَافِرِينَ أَوْلِيَاءَ مِن دُونِ الْمُؤْمِنِينَ وَمَنْ يَفْعَلْ ذَلِكَ فَلَيْسَ مِنَ اللهِ فِي شَيْءٍ

***«Möminlər möminləri buraxıb kafirləri dost tutmasınlar! Bunu edən kəs Allahdan heç bir şey gözləməsin».*** [1]

مَنْ كَفَرَ بِاللهِ مِنْ بَعْدِ إِيمَانِهِ إِلاَّ مَنْ أُكْرِهَ وَقَلْبُهُ مُطْمَئِنٌّ بِالإِيمَانِ وَلَكِنْ مَنْ شَرَحَ بِالْكُفْرِ صَدْرًا فَعَلَيْهِمْ غَضَبٌ مِنَ اللهِ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ

***«Qəlbi imanla sabit olduğu halda məcbur edilən şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə. Lakin qəlbən küfrə razı olanlara Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!»*** [2]

Necə ki, Əmmar raziyullahu ənhin müşriklərin ona verdikləri əzabın qarşısında canını qorumaq üçün onlarla həmfikir olması, ata-anasının isə (raziyullahu ənhuma) bu təklifə razı olmayıb şəhid olmaları məşhurdur. Təqiyyə ilə əməl etmək

---

[1] «Ali-İmran» surəsi, ayə 28.

[2] «Nəhl» surəsi, ayə 106.

nəfsin qorunması üçün lazımdır. Belə olduğu halda təqiyyə nəfsin mühafizəsi üçün şərtdir. Bundan əlavə bir də rüxsət mövqeyi vardır ki, bu da şəxsin nəfsi mühafizəyə, haqqı qüvvətləndirməyə yarayacağı zamandır. Fəqət üçüncü yolda, yəni batili himayə etmək, xalqı sapıqlığa sövq eləmək, cövr və zülmü davam etdirmək kimi hallarda təqiyyə heç bir zaman caiz deyildir.

Müseyləmətül-Kəzzab iki müsəlmanı həbs etmişdir. Onlara dedi ki, siz mənim Allahın rəsulu olduğuma şəhadət verin. Onlardan biri: «Şəhadət verirəm ki, - dedi, - Mühəmməd rəsulullahdır, sən də Müseyləmətül-Kəzzabsan». Museyləmə onu öldürtdü. O biri şəxs Müseyləmənin dediyinə əməl etdi. Həzrət Peyğəmbər (s) bunu eşidərkən buyurdu ki, birinci şəxs Cənnətə tez getmək istəmişdir. İkincisi isə rüsxətdən yapışmışdır. İkisinin də mükafatı (əcri) var.

Şiəlik Əməvilərin dövründə hər cür təqiblərə məruz qaldı. Abbasilər də onların yolunu tutdu. Onlar Əli övladlarını və şiəsini aradan götürmək üçün bütün zülmlərə əl atdılar. Bu dövrlərdə Hücr ibn Ədiyyil-Kindi, Əmr ibn Hamikil-Hüzzai, Meysəmi Təmmar, Rüşeydül-Həcəri, Abdullah ibn Yəktur və başqaları iman və islamın mühafizəsi, haqqında batildən ayırd edilməsi üçün özlərini qurban verməkdən çəkinmədilər. İmam Hüseyn (ə) və Əshabı (raziyullahi əleyhim) isə bu şəhidlərin seyyidləridir.

Allah sübhənəhu və təaladan bizi haqq və hidayət yolunda birləşdirməsini, sonumuzun xeyirlə tamamlanmasını diləyirik.

Vəssalamu əleykum və rəhmətullah və bərəkatuhu.

**Tərcümə bidi.**
**15 Rəcəbül- mürəccəb, yövmi-istiftah, 1385.**

# YER ÜZÜ VƏ HÜSEYNİN

# TORPAĞI

## ÖN SÖZ

1365-ci ilin rəcəbində Məhəmməd Hüseyn Əli Kaşifil-Ğitaya Bəsrədən Mina Müdirliyi mürtəcim Əhməd Bədran bir məktub göndərmişdir. Məktubda Britaniya İslam Ensiklopediyasının yəni nəşri ilə əlaqədar İmam Hüseyn (ə)-ın şəhadətindən sonra onun qəbrindən və ətrafından götürülən torpağa səcdə etməyin nə səbəbə baş verdiyi, İmam Hüseyndən (ə) əvvəl belə bir şeyin olmadığı halda sonradan bunu necə

meydana gəldiyi və müsəlmanlardan ilk dəfə kimin bu torpağa səcdə etdiyi soruşulurdu. Bundan sonra Məhəmməd Hüseyn Əli Kaşfil-Ğita kiçik bir risalə halında «Əl-tərzi vət-turbatul-Hüseniyyə»ni («Yer üzü və Hüseynin torpağı») yazmışdır. Bu risalə Hacı Mirzə Nəcmül-Əskərinin «Əl-vudui fil-kitabi vəs-sünnə» adlı çox dəyərli kitabı ilə birlikdə mərhum Seyyid Əbdülhüseyn Şərafüddinin yazdığı «Əl-məshu ələl ərculi əv qəsliha fil-vudu» adlı risaləsəinə əlavə olaraq Qahirədə nəşr olunmuşdur. Müəllifin həmin risaləsini ixtisarla türk dilinə tərcümə edib, oxuculara təqdim edirik. Bununla iki böyük islam məzhəbi arasındakı bəzi anlaşılmazlığı aradan qalxacağına ümid edirik. Tövfiq Allahdandır.

**Əbdulbaqi GÖLPINARLI**

## RAHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ.

كَأَيِّنْ مِنْ آيَةٍ فِي السَّمَاوَاتِ وَالأَرْضِ يَمُرُّونَ عَلَيْهَا وَهُمْ عَنْهَا مُعْرِضُونَ

***«Göylərdə və yerdə neçə-neçə əlamətlər (nişanələr) vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər».***[1]

Bu ayeyi-kərimədə buyurulduğu kimi, həqiqətən də hər vaxt üz çevirdiyimiz dəlilləri ən böyüklərindən biri də üstündə yaşadığımız, ondan meydana gələn şeylərlə güzəran

[1] «Yusif» surəsi, ayə 105.

keçirdiyimiz torpaqdır, yer üzüdür. Bu barədə Qurani-Kərimin «Taha» surəsinin 53-55 ayələrinə nəzər salmaq kifayətdir. Orada buyrulur:

الَّذِي جَعَلَ لَكُمُ الأَرْضَ مَهْدًا وَسَلَكَ لَكُمْ فِيهَا سُبُلاً وَأَنْزَلَ مِنَ السَّمَاءِ مَاءً فَأَخْرَجْنَا بِهِ أَزْوَاجًا مِنْ نَبَاتٍ شَتَّىٰكُلُوا وَارْعَوْا أَنْعَامَكُمْ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِأُولِي النُّهَىٰمِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَىٰ

***«Yer üzünü sizdən ötrü döşəmiş, orada sizdən ötrü yollar açan, səmadan su endirrən Odur. Növ-növ bitki bitirmişik bu su ilə; yeyin, həm də heyvanlarınızı otarın. Şübhəsiz, bunlarda ağıl sahibləri üçün ayələr var! Biz, ayələrimizin hamısını ona (Firona) göstərdik. Lakin (Firon) onları yalan sayıb (heç birini) qəbul etmədi».***

Yer üzündə gəzib-dolanıb, əkib-biçir, heyvan otarır, onun bərəkətindən faydalanırıq. Bütün həyatımız boyu onunla təmasda oluruq. Lakin onu bir dəfə də olsun ağlımıza, xatirimizə gətirmirik. Dəlillərdən xəbərsiz qalır, ondan üz çeviririk. Ondakı çox böyük qüdrətə göz yumuruq. Torpağı varlıların ən əhəmiyyətsizi bilir, onu tapdalayıb keçirik. O görünüşcə çox sadədir, lakin onda neçə ünsürlər, neçə xassələr vardır! Yeyəcəymiz ruzi oradan gəlir, yeyəcəyimiz şeyləri o verir. Dadı, ləzzəti, xassəsi müxtəlif olan meyvələri o bitirir.

Torpaq dadlı, ləzzətli, həyat bağışlayan nemətlər, rəngbərəng ətirli gül-çiçəklər yetirdiyi kimi, acı, öldürücü zəhər də yetirir. Halbuki, hamısı yaşıldır, rəngarəngdir, hamısıda bir-birinə bənzəyir.

وَفِي الأَرْضِ قِطَعٌ مُتَجَاوِرَاتٌ وَجَنَّاتٌ مِنْ أَعْنَابٍ وَزَرْعٌ وَنَخِيلٌ صِنْوَانٌ وَغَيْرُ صِنْوَانٍ يُسْقَىٰ بِمَاءٍ وَاحِدٍ وَنُفَضِّلُ بَعْضَهَا عَلَىٰ بَعْضٍ فِي الأُكُلِ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِقَوْمٍ يَعْقِلُونَ

***«Bir-birinə qonşu olan sahələr, üzüm bağları, tarlalar, çox kök üstə bitər xurma ağacları mövcüddur yer üzündə. Hamısı***

***da bir su ilə sulanır, amma onların bir-birindən üstün tuturuq».***[1]

Bu ayeyi-kərimədə göstərildiyi kimi, torpaq birdir, su da bir. Fəqət yetişdirdiyinin hər birində ayrı bir xassə vardır; heç biri o birinə bənzəməz. Hər meyvə öz mövsümündə yetişər, hər bitki isə öz mövsümündə göyərər. Baharda yetişən qışda görünməz, qışda olana baharda rast gəlmək olmaz. Torpağın xassələrindən biri də ondakı mədənlərdir. Bu qızıla-gümüşə, bu firuzəyə bax! Hamısı torpaqdan çıxmırmı? Bəli torpaq canlı və cansız nə varsa, hamısının anasıdır. O, su ilə, hava və günəşlə əhatə olunmuşdur. Həyat da, ölüm də ondadır. Xəstəlik orada meydana gəlir, dava-dərman orada bitir. Göy üzünün əsərləri bəlkə sayıla bilər, ancaq yer üzünün əsərlərini sayıb qurtarmaq olmaz. Onun mədənlərini, bərəkətini saymağa, bilməyə imkan yoxdur. Qurani-Kərimin «Mursəlat» surəsinin 25-26-cı ayələrində buyrulur:

أَلَمْ نَجْعَلِ الأَرْضَ كِفَاتًاأَحْيَاءً وَأَمْوَاتًا

***«Yer üzünü xəlq etmədikmi ölülərə və dirilərə?»*** və ya «Nəziat» sürəsinə 30-31-ci ayələrində buyrulur:

صَبَبْنَا الْمَاءَ صَبًّاثُمَّ شَقَقْنَا الأَرْضَ شَقًّافَأَنْبَتْنَا فِيهَا

***«Sonra yer üzünü döşəmiş; Oranın sularının üzə çıxarmış, orada otlaqlar yaratmışdır».*** Və yenə başqa bir yerdə buyrulur:

فَلْيَنْظُرِ الإِنْسَانُ إِلَىٰ طَعَامِهِأَنَّا صَبَبْنَا الْمَاءَ صَبًّاثُمَّ شَقَقْنَا الأَرْضَ شَقًّافَأَنْبَتْنَا فِيهَا
حَبًّاوَعِنَبًا وَقَضْبًاوَزَيْتُونًا وَنَخْلاًوَحَدَائِقَ غُلْبًاوَفَاكِهَةً وَأَبًّا

***«İnsan öz yeməyinə bir nəzər sala; bolluca yağış tökdük; orada dənli bitkilər yetirdik; üzümlükləri, yoncaliqlari, zeytun, xurma bağlarini sıx ağaclı bağ-bağatı; növ-növ meyvələri, otları».***[2]

---

[1] «Rəd» surəsi, ayə 4.
[2] «Abəsə» surəsi, ayə 24-31.

Yer üzündə bitən, oradan nəşət edən bitkiləri, ağacları, dənli bitkiləri bir yana qoyaq. Bu hər şeyi qirib-tökən, hər sınığı sarıyan, ağla sahib insan haradan meydana gəlmişdir? O torpaqdan yaranmamışmıdır? Bütün varlıq torpaqdan yaranıb yenidən ona qovuşmurmu?

Torpağın ən müqəddəa ucalıqlarda biri də Rəsulullahın (s) bütün insanlardan daha çox sevdiyi Əli (ə) «**Əbu Turab** - Torpaq atası» küniyyəsi verməsidir və bu küniyyə Əmirəl-mömininin ən çox sevdiyi küniyyədir.

Əbdülbaqiq-Öməri sufiyanə bir şeirində yazır:

**Allah Adəmi torpaqdan yaratdı;**
**O torpağın oğlu, sənsə atasısan.**

Xəyam bir rübaisində deyir:

**Ey torpaq, könlünü bir yarsalar,**
**Könlündə necə dəyərli kövhərlər var.**

Ariflərdən bir isə belə buyurur:

**Hər zərrənin könlünü yarsan,**
**İçində bir günəş olduğunu görərsən.**

Bəli, bu mübarək yer üzü qədrinin ucaldılması, ululanması, müqəddəsləşdirilməsi lazım gələn bir çox dəlillərə sahibdir. Rəsulallah (s) buyurmuşdur: **«Yer üzünü məsh edin; o sizə xeyirdir, bərəkətdir».** Başqa bir hədisində isə yer üzünün insanların anası olduğunu bildirmişdir. Bunların hamısı ağıl ərbablarına rəmzdir, işarələrdir.

Allah təbarəkə və təala torpaqdan yaratdığı, ondan bütün aləmi topladığı, aləmi-əkbərin bir yekunu, xülasəsi olan Adəmə (ə) mələklərin səcdə etməsini əmr etdi. Mələklər Allahın əmrinə itaət edib Adəmi mehrab edərək, Allaha, Allahın bədii sənətinə, kəmali-qüdrətinə, gerçək məbuda – Allaha səcdə etməyə

başladılar. İblis bunu idrak etməyib özünün oddan yaradıldığını əsas götürərərk torpaqdan yaradılmış Adəmə (ə) səcdə etməkdən boyun qaçırtdı. Halbuki səcdə Adəmə deyil, Allaha idi. Həm də odla torpaq arasında fərq vardır. Torpaq toplayıçı, od isə dağıdıçıdır. Toplamaq – güc, qüvvət nişanəsi, dağıtmaq isə zəiflik əlamətidir. Yer üzünü mötədildir, od isə yandırıcı. Torpaq bitirib yetirmək qüvvəti vardır, odda yox edib öldürmək. Yer üzü hər bir canlını bəsləyir, yaşadır, od isə öldürür, həlak edir.

Allah təbarəkə və təala islam şəriətində bütün murdarlıqların su ilə təmizlənəcəyini bildirmiş, «Su tapmasanız təmiz torpaqla təymmüm edin; torpağı üzünüzə və əllərinizə sürtün», - deyə buyurmuşdur. Bununla da torpaq bəzi hallarda paklıq timsalı olan suyun əvəzi kimi qəbul olunmuşdur. Ona görə də yer üzü təmizdir vəs əxcdə yeridir. Həzrət Peyğəmbər (s) buyurmuşdur: **«Yer üzü mənə məscid edildi; təmiz bilindi, yəni harda namaz vaxtı çatarsa, orada namaz qılmaq olar və su tapılmazsa, torpaqla təmizlənmək mümkündür. Çüni torpaq təmizdir və təmizləyiçidir».**

Həqiqətən də, yer üzü təmizləyicidir; bir sıra murdar şeylər, mikroblar yer üzündə ölür. Bir tərəfdən də islam şəriətində ölünün torpağa basdırılması, başqa bir yerdə dəfn olunması, torpağa basdırarkən üzünün torpaq üstünə qoyulmas, hətta dənizdə ölən şəxsin belə quruya çıxarılıb dəfni mümkünsə, dəfn edilməsi əmr olunmuş, yandılıması mən edilmişdir. Çünki cəsəd yandığı zaman ondan çıxan buxar havanı fəsadlaşdırır və bu da səhhət üçün zərərlidir.

أَلَمْ نَجْعَلِ الأَرْضَ كِفَاتًاأَحْيَاءً وَأَمْوَاتًا

*«Yer üzünü xəlq etmədikmi ölülərə və dirilərə?»*[1] ayəsində buna işarə olunur.

[1] «Mursəlat» surəsi, ayə 25-26.

**«Yer üzü sizə xeyir və bərəkətdir; onunla təyəmmüm edərsiniz. Diri ikən oraya səcdə edər, namaz qılasınız, ölərkən də orada cəm olarsınız»** buyurmuşdur ki, bu Allahın bir nemətidir. Ona həmd olsun.

Namaz qılanın səcdə edəcəyi ən gözəl və üstün şey pak torpaqdır.

İslam şəriətində mübarək günlərdən biri də «Dəhvul-ərz», yəni Kəbənin yerləşdiyi yedən başlayıb yer üzünün döşənməyə başlanması gündür. Bu zilqədənin 25-ci günüdür və o gün oruc tutmaq müstəhəbdir. Aşağıdakı ayədə və Əhli-beytdən gələn duanın başlanğıcında buna işarə vardır:

وَالأَرْضَ بَعْدَ ذَلِكَ دَحَاهَا

***«Və yer üzünü bundan sonra yaydı, döşədi».***[1]

**«Ey Kəbəni döşəyən, dönləri yarıb çıxaran, möhnətlərin aparan Allahım, haqqını ucaldığın, şiənin böyütdüyün, möminlərə bir ehsan olaraq lütf etdiyin bu günə and olsun...»**

***

Kərbəla torpağına səcdə etməyə gəlincə, deyə bilərik ki, Rəsllullah (s) öz ümmətinin içərisində iki qiymətli əmanət qoyub getdiyini bəyan buyurmuşdur. O, bildirmişdir ki, bu əmanətlərin biri göydən yerə uzadılmış olan Allah ipi – Quran, o biri isə Əhli-beytdir. Bunlardan yapışanlar sapqılığa düşməyəcək və nicat tapanlardan olacaqlar. Bununla da o, öz Əhli-beytini Quranla bir tutmuşdur.

---

[1] «Naziat» surəsi, ayə 30.

Əhli-beytin ilki, yəni başçısı o özüdür ki, aləmlərə rəhmət üçün Allah tərəfindən göndərilmişdir. Yenə onun özü buyurmuşdur: **«Hüseyn məndəndir, mən Hüseyndənəm».**

Hüseyn (ə) isə mövqe, mənsəb, xilafət naminə deyil, şəriətə müxalif olan bir zalım əmirin Quran əleyhinə hərəkətlərinə qarşı duraraq özündə sonra gələn müsəlmanların batili haqq kimi tanınmaması üçün Kərbəlayi-müəllada bir ovuc dostu və Əhli-beyti ilə güclü düşmən ordusuna qarşı vuruşmuş, övladlarını, hətta südəmər körpəsini belə bu yolda qurban vermişdir. İmam Hüseyn (ə) cəddinin ən sevimli səhabələrinin şəhadətlərini görmüş, qardaşlarının, qardaşı balalarının yasına batmış, əhli-əyalının əsir olacağını bilə-bilə, onların fəryadlarını eşidə-eşidə, nəhayət, öz canını da Allah yolunda, şəriətin qorunması üçün fəda etmiş, o müqəddəs torpaqda şəhadət şərəfinə yetişmiş, qanı ilə haqla batili bir-birindən ayırmışdır. Ümməti fədası olan belə bir imamın, Rəsulullahın (s) göz bəbəyinin şəhid olduğu yer, əlbəttə, müqəddəs bir torpaqdır. İslamın zühuru etdiyi müqəddəs yer Məkkeyi-Mükərrəmə, yayılıb genişləndiyi yer Mədineyi-Münəvvərədirsə, qorunduğu yer də, şübhəsiz, Kərbəlayi-Müəlladır. O müqəddəs yer haqqında imamlarımızdan rəvayət edilən ziyarətdə belə bir cümlə var: **«Şəhadət verirəm ki, siz tərtəmizsiniz və təharəti-kamiləyə yetişmişsiniz. Dəfn edildiyini yer isə tərtəmiz bir hala gəldi».**

Fiqh alimlərimiz yerdən başqa bir şeyə şəxsən caiz bilməmişlər. Yerdən bitən, fəqət yeyilməyən şeylərə isə (bədəndən başqa) səcdə etməyə icazə vermişlər. Onlar Kərbala torpağına səcdənin daha əfzəl olduğunu göstərmişlər.

Şübhə yox ki, yerə şərhlər xalı, kiçik və s. toz-torpağa, murdarlığa məruzdur. Bu cəhətdən onlara səcdənin, səcdə etməyi caiz görməmişlər. Hədisi-şərifə buyurulmuşdur: **«Bəndənin Rəbbinə ən yaxın olduğu an səcdə zamanıdır».**

Özlərini haqq yolunda qurban verən, ruhları ərşi-əlaya ucalan, bu dünyanın aldanışlarına qapılmayan, batilə baş əyməyə şəriət ulularının torpağına səcdə isə, əlbəttə, pərdələri qırıb atar, insanı onların ruhaniyyətinə qovuşdurmaq, haqqa yaxınlaşdırmağa vəsilə olar.

Torpağa səcdə vacibdir. Türbəti-Hüseyniyyəyə - torpağında şəfa, adında vəfa olan məzlum Hüseynin torpağına səcdə isə Əhli-beytin sünnətidir.

Ancaq bunu da qeyd edək ki. Kərbala torpağına səcdə təşəbbüs (ibadət) yolu ilə ola bilməz; bu küfrdür, səcdə yalnız Allahdandır. Torpağa və Kərbala torpağına səcdə təbərrük (mübarək sayma) və təvəssül (inanma) yolu ilədir, Allaha qarşı kiçilmə, qul olmadır. Bütün şiə müctəhidləri yalnız Allaha səcdə ediləcəyini, başqa bir şeyə və ya digərinə səcdənin küfr olduğunu söyləmişlər. Buna görə təkrar edirəm, Kərbala torpağına, səcdə o torpaqda şəhid olana və olanlara səcdə etmək deyildir. Həmin torpağa baş qoymaq surətilə Allaha səcdədir. Necə ki, torpağa səcdə də torpağa ibadət deyildir. Bunun əksi düşünülərsə, torpağa səcdə etməyin xalıya, kilimə səcdə edənlərin də yuna və ya o yunun sahibinə səcdə etməsini qəbul etməliyik ki, bu da kökündən batil bir düşüncədir.

Əvvəldə qeyd etdiyimiz kimi, mələklərinə Adəm (ə) səcdəsi onların Allaha səcdəsidir. Bir şeyə səcdə ilə, bir şeyə alnını qoymaqla Allaha səcdə arasında böyük fərq vardır..

***

Hicrətin üçüncü ilində Ühüd döyüşündə Həzrət Peyğəmbərin (s) əmisi və süd qardaşı cənab Həmzə şəhid olarkən Həzrət Peyğəmbərin müsəlman xanımlara **«öz şəhidlərimizə ağlayarkən Həmzəni də yad edin»**, - deyə

buyurduğu, Həzrət Fatimənin (s.ə) Həmzənin qəbrinin torpağından təsbih düzəltdiyi, Həzməyə «Seyyidüş-şühəda», «Allahın və Rəsulunun aslanı» ləqəblərinin verildiyi rəvayət olunur. Məclisinin «Biharul-ənvar»ında İbrahimüs Səqəfi atasından, o da İmam Cəfər Sadiq (ə) rəvayət edir ki, Həzrət Fatimə (s.ə) bir üçün ipə tədbirin sayı qədər düyün vurmuşdu və bununla təsbih edərdi. Həzrət Həmzənin şəhadətindən sonra Fatimə onun torpağından təsbih düzəltdi və onu çevirməyə başladı.

Hüseyn (ə) şəhid edildikdən sonra həmin ənənəyə uyğun olaraq onun torpağından təsbih düzəldildi.

Müsəlmanlardan, müsəlman imamlardan ilk dəfə İmam Hüseyn (ə)-ın torpağına səcdə edən, o torpaqdan təsbih düzəldən Zeynülabidin Əli ibn Hüseyn (ə)-dır. Hətta Şamda Yezidin məscidinə girdiyi zaman bu təsbih onun əlində idi. Yezid (l.ə) ondan, əlində çevirdiyi nədir? - deyə soruşarkən imam, Həzrət Peyğəmbərdən (s) aşağıdakı hədisi söylədi: **«Kim bir təsbih götürüb sübh vaxtı ona məxsus duanı oxuyar və o təsbih çevirərsə, təsbih etməsə belə, təsbih cavabına yetişər».**

İmam və Əhli-beyt Mədinəyə dönərkən bu müqəddəs torpağa səcdə etməyə, o torpaqdan az bir miqdarını suda isladıb xəstələrə içirtməyə başladı. Beləliklə, ilk dəfə olaraq türbəti-Hüseyniyyəyə səcdə edən on iki məhsum imamın dördüncüsü Zeynülabidin Əli ibn Hüseyn (ə) oldu. Ondan sonra oğlu, beşinci İmam Mühəmmədül-Baqir (ə) bu ənənəni davam etdirdi. Tərəfdarlarına bunu təlqin elədi. Oğlu, altıncı İmam Cəfər Sadiq (ə) həmin ənənəni yaydı. Şeyxüt-taifə Şeyxüt-Tusi (Allahın sirrini təqdis etsin) «Misbahul-Mütəhəccid» əsərində rəvayət etmişdir ki, Əbu Abdullah Cəfər Sadiq (ə) bir sarı bez üstündə İmam Hüseyn (ə)-ın torpağını yanında gəzdirirdi. Namaza durarkən o torpağı səccadəsinə qoyar, səcdədə alnını həmin

torpağın üstünə qoyardı və buyurardı ki, Əbu Abdullah Hüseyn (ə)-ın torpağına səcdə yeddi hicabı yırtar, aradan götürər. Bu yeddi hicab insanın ruhi səfərini pozan, insanın insanlıqdan uzaqlaşdıran kin, həsəd, tamah, qəzəb, cahillik, hiylə və alçaqlıq duyğularından ibarətdir. Kimdə bu keyfiyyətlər olsa, o hər kəsi qısqanar, fəzilətə düşmən olar, yaxşıya və yaxşılığa qarşı çıxar, dikbaş və təkəbbürlü olar.

Torpağa səcdə təvazönün son dərəcəsi olduğundan bu yeddi pis xüsusiyyəti aradan götürərək, onun əvəzinə yaxşı xasiyyətlərin yaranmasına səbəb olar.

«Əl-vəsail» sahibi Deyləmidən rəvayət etmişdir ki, İmam Sadiq (ə) yalnız İmam Hüseyn (ə)-ın torpağına təbərrük yolu ilə səcdə edərdi. Ondan törəyən imamlar da bu yolu tutdular. Buna görə də təbərrükdə böyük savablar olduğu göstərilir. Ta o zamanlardan bəri şiələr də bu adətə uymuş və Kərbəla torpağının su ilə qarışdırılmasından əmələ gəlmiş bu gün «möhür» deyilən şeylər düzəltmişlər. Namazda Allaha səcdə etdikləri zaman alınlarını onun üstünə qoyarlar.

Himeyri, Hüseyn (ə)-ın möhürlə səcdə etməkdə bir fəzilət varmı? - sorğusu ilə On ikinci İmam (ə) yazılı müraciət edərkən, İmam onun cavabında bildirmişdir ki, bunun çox böyük fəziləti vardır. Həmin torpaqdan düzəldilmiş təsbih barədəki sorğuya da eyni cavabı vermişdir.

İmam Cəfər Sadiq (ə) isə bu barədə buyurmuşdur: **«Hüseynin (ə) torpağına səcdə yeddi qat yeri və oradakıları işıqlandırır. Kimin əlində bu torpaqdan düzəldilmiş təsbih varsa və onun çevirərsə, təsbih etməsə belə, təsbih cavabına yetişər».**

Bunu da qeyd etmək lazımdır ki, Hüseynin şəhadəti, onun torpağı hələ Hüseyn (ə) uşaq ikən Rəsulullahın (s) zamanında aydın idi. Bu barədə Süyutinin 1320-ci ildə Heydərabadda çap

olunmuş Xəsaisül-kübra əsərində Peyğəmbərin Hüseynin şəhadətinin xəbər verməsi fəslinə baxmaq olar.

Əhli-sünnətin mötəbər alimlərindən Hakimi, Bəyanatı, Əbu Nuəym və başqaları bu barədə Ümmül Fəzl binti Harisdən Rəsulullahın (s) zövcələri Ümmül Sələmə və Aişədən, Ənəsdən, Vəhəbdən, Məktəbdən, Əbu Ümamədən və İbn Abbasdan hədislər rəvayət etmişlər. Bu hədislərin çoxunun məzmunu təxminən belədir:

- Rəsulullah (s) oturmuşdu. Hüseyn də qucağında idi. Həzrət Rəsul (s) ağlayırdı və əlində bir ovuc torpaq var idi. Ravi, - ya Rəsulullah, bu nədir? - soruşarkən, Həzrət buyurdu: «Cəbrayıl gətirdi və mənə xəbər verdi ki, ümmətin bu oğlumu Kərbalada şəhid edəcək». Sonra Rəsuli-Əkrəm (s) o torpağı Ümmü Sələməyə verdi və buyurdu ki, bu torpaq qana boylanarkən, bil ki, Hüseyni şəhid etdilər. Ümumi Sələmə Hüseynin şəhid edildiyi il Aşura günü gecə gördüyü bir yuxunun nəticəsində ooynadı və bir rəng aldığını gördü. Bununla da İmamın şəhadəti ona aydın oldu.

Hüseynin torpağı, onun şüşə içərisində saxlanması, o torpağın qüdsittəti Həzrət Peyğəmbərin (s) zamanında və Hüseynin (ə) doğulmasından dərhal sonra məlum idi. Həzrət Peyğəmbər (s) onun məzlum olaraq şəhid ediləcəyini xəbər vermişdi. Necə ki, Quranın «Fəth» surəsinin 27-ci ayeyi-kərimməsində bəyan buyurulduğu üçün və vəhy yolu ilə Məscidül-Hərama görüləcəyini, Məkkənin fəthi ediləcəyini, Rumun farsa üstün gələcəyini, [1] Kəsranın ölümünü, Xatibin müşriklərlə göndərdiyi məktubu və xəbəri, Kəsra və Qeysər ölkələrinin alınacağını, əshabıbın ondan sonra ixtilafa düşəcəyini, Əmirəl-möminin (ə) İbn Mülcəm (l.ə) tərəfindən şəhid olunacağını, İmam Həsənin (ə) şəhadətini, Bəni-Ümeyyənin səltənət

[1] «Rum» surəsi, ayə 1-5.

quracağını, zülm edəcəklərini, Xiyrənin fəth ediləcəyini və buna bənzər şeyləri əvvəlcədən xəbər vermişdi.

***

Risaləni bitirərkən bunları deməyin lazım bilirəm: Şəri hakimin islam şəriətində bildirdiyi şeylərdən biri də torpağın pak və təmizləyici olmasıdır.

Yer üzü on təmizləyici şeyin biridir. Murdarlıq kənar edildikdən sonra torpaq üzərində yeriyərkən ayağın, ayaqqabının altı təmizə çıxır.

Su tapılmazsa, üç daşlar təmizləmək olar.

Su tapılmazsa, vacibi, yaxud sünnəti təmizlik təyəmmümlə olmalıdır.

Ölülərimizi iylənməmək üçün və yırtıcı heyvanların eşib çıxara bilməyəcəyi qədər dərinliyə dəfn edir və üzünü torpaq üstünə qoyuruq.

Sahibi olsa belə, geniş ərazidə namaz qılmaq üçün o ərazinin sahibindən icazə alınmır.

Geniş ərazidə axan böyük nəhrlərdən, sahibi olsa belə, ondan icazə almadan dəstənin almaq və su içmək olar.

Yerə və yerdən hasil olan, lakin yeyilməyən, gəyilməyən şeylərə səcdə etmək olar. Səcdə zamanı burunu da yerə qoymaq, dayamaq lazımdır.

Zəlzələ zamanı, fiqh kitablarımızda bildirildiyi kimi, ayət namazı qılmaq vacibdir.

Buğda, arpa, xurma və üzümdən zəkatı vermək vacibdir. Müsəlmandan icarəyə götürülmüş ərazidən xüms verilməsi vacibdir.

Sahibsiz yerləri ehya etmək, əksinə yararlı olmayan yerləri əkib-biçmək, yararlı bir hala gətirmək lazımdır.

Yer üzünə aid bu və ya buna bənzər şeylər fiqh kitablarında ətraflı izah olunmuşdur.

İslam şəriətinə görə, yerin qüdsiyyəti vardır. Yer üzü məsciddir. Şiələrdə mütləq torpağa, torpaqdan bitən yeyilməyən geyilməyən şeylərə səcdə vacibdir.

İmam Hüseyn (ə)-ın torpağından düzəldilmiş möhürə səcdə isə bir yandan təmiz bir şeyə alın qoymaq baxımından, bir yandan da təbərrük və təvəssül yolu ilə əfzəldir. Fəqət heç bir vaxt bu səcdə haşa, o torpağa, o torpaqda yatan məxsus deyildir, Allahadır.

Şiələrin daşa, torpağa səcdə etməsi barədə söylənilən və hamısı da kökündən yanlış olan sözlər cahillikdən meydana gəlmişdir və iftiradan doğan böhtanlardan ibarətdir.

**23 şəban 1366**